RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 115 (8994) CÜMƏ, 3 iyun 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı dostluq əlaqələrinin mövcud vəziyyəti sevindiricidir



→ 2

## Azərbaycan-Türkiyə əlaqələrinin bugünkü səviyyəsi birlik və həmrəyliyin yeni təzahürüdür



→ 3



# Azərbaycan qlobal enerji təhlükəsizliyinin əsas təminatçılarındandır

→ 5



## Zəfər səfərləri

Prezident İlham Əliyevin birinci xanım Mehriban Əliyeva ilə Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına növbəti səfəri dövlətçilik ənənələrinin və iqtisadiyyatımızın inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir.

Qələbəmizdən sonra dövlət başçısı, Ali Baş Komandan düşmənin qovulduğu torpaqlarda üçrəngli bayrağımızı ucaltmaqla kifayətlənmədi.

→ 4




## Enerji təhlükəsizliyi və enerji ehtiyatlarının şaxələndirilməsi üzrə dialoq güclənir

Bakı Ekspo Mərkəzində dünyanın enerji nəhəngləri yenidən bir araya gəliblər. Koronavirus pandemiyasının yaratdığı ikiillik fasilədən sonra Bakı Enerji Həftəsi çərçivəsində keçirilən Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi daha böyük həvəs və işgüzarlıqla fəaliyyət göstərir. 30 ölkəni təmsil edən 249 şirkətin bir-birindən maraqlı və məlumat baxımından zəngin stend və ekspozisiyaları istər iştirakçıların, istərsə də ziyarətçilərin diqqət mərkəzindədir.

→ 5

## Erməni vandalizminin izi ilə...

### Qarabağa və Şərqi Zəngəzura səfər edən diplomatlar da işğalçının bu ərazilərdə törətdiyi barbarlıqlardan dəhşətə gəldilər

Azərbaycan işğal altında olan torpaqlarını mənfur düşməndən azad etdikdən dərhal sonra həmin ərazilərə müxtəlif ölkələrdən olan diplomatların, media, ictimaiyyət nümayəndələrinin səfərləri təşkil edildi. Beləliklə, barbar xislətli ermənilərin Qarabağda və Şərqi Zəngəzurda 30 il ərzində törətdiyi vandallıqlara beynəlxalq aləmin də əyani şahid olmasına şərait yarandı. Faşist ideologiyalı ermənilərin təkcə insanlarımızın deyil, təbiətimizin, tarixi, mədəni, dini irsimizin də qəniminə çevrildiyini öz gözləri ilə görmələrinə zəmin yarandı. Və bütün dünya bir daha gördü ki, illərdir Azərbaycan xalqı necə qaniçən, qəddar, vəhşi bir düşmənlə qarşı-qarşıya idi...

**Məgər nəcib xalq belə hərəkət edə bilərmi!?**

İşğaldan azad edilən torpaqlarımıza səfər edən hər bir şəxs, o cümlədən də beynəlxalq ictimaiyyətin nümayəndələri bu ərazilərdəki dağıntıların, talanın, təbiətə vurulan zərərin miqyasını gördükdə dəhşətə gəlirlər. Halbuki ermənilərin törətdikləri bu insanlıqdan uzaq vəhşiliyi ifadə etməyə söz tapmaqda belə çətinlik çəkirlər. Halbuki erməni barbarları hər zaman özlərini dünyaya "sivil", "qədim", "nəcib" xalq kimi sırımağa cəhd edir, bu barədə sadəcə özlərinin inandıqları nağılları uydururdular.

→ 6

## İnsan kapitalı - parlaq gələcəyin təminatı

Prezident İlham Əliyev ölkəmizə rəhbərliyinin ilk illərindən Azərbaycanın mövcud təbii resurslarının insan kapitalına çevrilməsi zərurətini əsas prioritetlərdən biri kimi irəli sürüb.

Müəyyən edilmiş inkişaf hədəfləri, qəbul olunmuş qərarlar, həyata keçirilən strateji layihələr bu prioritetə uyğunlaşdırılır. Dövlətimiz rəqabətli insan kapitalının formalaşdırılmasını qloballaşma dövrünün əsas vəzifələrindən biri kimi görür və bu istiqamətdə ardıcıl addımlar atır.

Mayın 26-29-da Bakıda keçirilən və Azərbaycan-Türkiyə birgəliyinin daha bir nümunəsi kimi tarixə yazılan "TEKNOFEST-Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı da bütün digər cəhətləri ilə yanaşı, eyni zamanda insan kapitalının, elmə, texnologiyalara qoyulan sərmayələrin gücünün nümayişi idi. Belə tədbirlər müasir dünyamızın çağırışlarına uyğun bilik və bacarıqların fərdlər, cəmiyyətlər, dövlətlər və ümumən bəşəriyyət üçün nə qədər böyük əhəmiyyət kəsb etdiyini göstərir. Xüsusilə gənc nəslin texnologiyalara marağını artırır, onlar üçün öz yaradıcı ideyalarını reallaşdırmaqda böyük fürsətlər yaradır.

Dövlət rəhbərimiz hələ illər əvvəl insan kapitalı məsələsini irəli sürərkən müasir dünyamızın əsas çağırışını diqqətə çatdırmış, cəmiyyətin bu prioritet ətrafında səfərbər olunmasının vacibliyini aktuallaşdırmış və bildirmişdir ki, bu məqsəd ölkəmizdəki inkişaf proseslərinin aparıcı istiqamətlərindən olacaqdır.

→ 6

# Əcnəbi şirkətin Bakıdakı özbaşınalığı




### "Bolt" Azərbaycan qanunlarını niyə saymır?

→ 10

## Havalar isinir, sudan səmərəli istifadə aktuallığını artırır

Məlumdur ki, Azərbaycan su resurslarının məhdud olduğu ölkələrdəndir və bu üzdən sudan səmərəli istifadə olunması bizim su təsərrüfatlarının qarşısında duran vacib məsələlərdən sayılır. Son illər bu istiqamətdə Azərbaycanda bir sıra tədbirlər görülsə də, problemin həll olunduğunu demək hələ tezdir.



→ 11

### Bakı beynəlxalq tədbirlərin keçirildiyi unikal məkandır

→ 10

### Azərbaycan Açıq Büdcə İndeksi reytinqində 44-cü yerə yüksəlib

→ 11

### "Ermənistan iqtisadiyyatı təcili yardıma ehtiyacı olan xəstəyə bənzəyir"

→ 11

## Avropada inflyasiya rekord həddə çatıb



Avrozonada inflyasiya illik hesablamada 8,1 faizlə yeni rekord həddə çatıb. Avropa Statistika İdarəsinin (Eurostat) son məlumatına görə, bu, 1999-cu ildə vahid Avropa valyutası olan avronun dövriyyəyə buraxılmasından bəri ən yüksək göstəricidir. Bundan əvvəl iqtisadçılar Avropada inflyasiyanın ən yüksək səviyyəsini 7,7 faiz həddində qiymətləndirmişdilər.

→ 12

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Zati-aliləri.

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Qətər Dövlətinin xalqı adından, şəxsən öz adımdan Sizə və qardaş xalqınıza səmimi salamlarımı və təbriklərimi, ən xoş arzularımı çatdırıram.

Zati-alinizə möhkəm cansağlığı və səadət, Azərbaycan xalqına firavanlıq və inkişaf, ölkələrimiz arasındakı sıx əlaqələrin gələcəkdə daha da möhkəmlənməsini diləyirəm.

Xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edəsiniz.

***Şeyx Təmim bin Həməd Al TANİ,***
***Qətər Dövlətinin Əmiri***

❖ ❖ ❖

Əs-səlamu aleykum və rəhmətullahi və bərəkətuhu.

Dost ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Bəhreyn Krallığının hökuməti, xalqı adından və şəxsən öz adımdan zati-alinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və xoşbəxtlik, xalqınıza davamlı tərəqqi və firavanlıq diləyirəm.

*Dərin hörmət və ehtiramla,*

***Həməd bin İsa Al XƏLİFƏ,***
***Bəhreynin Kralı***

❖ ❖ ❖

Zati-aliləri.

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə bütün kanadalılar adından Sizi və Azərbaycan xalqını təbrik edirəm.

Ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün yaxınlaşdığı bir vaxtda Kanada Azərbaycanla əlaqələrin genişlənməsindən məmnundur. Xalqlarımızın möhkəm əlaqələrinə və fəal Azərbaycan-Kanada cəmiyyətinə əsaslanan tərəfdaşlığımız qadınların səlahiyyətlərinin artırılması və ətraf mühitin mühafizəsi kimi ümumi maraq doğuran mühüm məsələlərin həllində beynəlxalq əməkdaşlığa sadiqliyimizlə daha da möhkəmlənib.

Ölkələrimizin öz vətəndaşları üçün daha yaxşı gələcək qurmağa çalışdığı bir vaxtda Kanada Azərbaycanla münasibətlərini daha da inkişaf etdirəcəyinə ümid edir.

Bu əlamətdar gündə Kanada xalqı Azərbaycan xalqına, həmçinin Kanadada yaşayan bütün azərbaycanlılara qoşularaq ölkənizin Müstəqillik Gününü Sizinlə birlikdə qeyd edir. Bütün xalqınıza sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Meri SAYMON,***
***Kanadanın General-Qubernatoru***

❖ ❖ ❖

Əs-səlamu aleykum və rəhmətullahi və bərəkətuhu.

Zati-aliləri.

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan Respublikasının hökumətinə və xalqına təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Bruney ilə Azərbaycan Respublikası mehriban dostluq münasibətlərini uğurla davam etdirirlər. Qoşulmama Hərəkatında və İslam Əməkdaşlıq Təşkilatında birgə səylərimiz də daxil olmaqla, ikitərəfli və beynəlxalq əməkdaşlığımızı möhkəmləndirmək üçün bundan sonra da Sizinlə birlikdə çalışmaq arzusundayam.

Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına davamlı tərəqqi və rifah diləyirəm.

Vəssəlamu aleykum və rəhmətullahi və bərəkətuhu.

***Hacı Həssənal BOLKİAH,***
***Bruneyin Sultanı***

❖ ❖ ❖

Zati-aliləri.

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Şri-Lanka Demokratik Sosialist Respublikasının hökuməti və xalqı adından Sizi, Azərbaycan hökumətini və xalqını səmimi-qəlbdən təbrik etməkdən, ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Ümidvaram ki, Şri-Lanka ilə Azərbaycan arasında mövcud olan sıx dostluq və əməkdaşlıq əlaqələri qarşıdakı illərdə ölkələrimizin mənafeyi naminə daha da möhkəmlənəcəkdir.

Zatı-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə davamlı sülh və firavanlıq arzulayıram.

***Qotabaya RACAPAKSA,***
***Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Dominikan Respublikasının hökuməti və xalqı adından, şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram.

Böyük xalqınıza firavanlıq və rifah arzulayıram.

***Luis ABİNADER,***
***Dominikan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident.

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Kot-d'İvuar hökuməti və xalqı adından, şəxsən öz adımdan Sizə təbriklərimi çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək ölkələrimiz arasında mövcud olan dostluq və əməkdaşlıq əlaqələrinin xalqlarımızın maraqlarına uyğun olaraq möhkəmləndirilməsi və genişləndirilməsi üçün zati-alinizlə birgə çalışmağa hazır olduğumu bir daha bildirirəm.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına tərəqqi və rifah arzulayıram.

*Dərin hörmətlə,*

***Alassane UATTARA,***
***Kot-d'İvuar Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident.

Ölkənizin milli bayramı - 28 May - Müstəqillik Günü münasibətilə Benin hökuməti, xalqı adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimi çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına sülh və rifah arzulayıram.

Eyni zamanda ölkələrimiz arasında mövcud olan dostluq və əməkdaşlıq əlaqələrinin xalqlarımızın mənafeyinə uyğun olaraq möhkəmləndirilməsi arzularımı bildirmək istəyirəm.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Patris TALON,***
***Benin Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə səmimi salamlarımı və təbriklərimi çatdırmaqdan məmnunluğumu bildirirəm.

Zati-alinizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzulayıram.

*Ən yüksək ehtiramla,*

***Abdullah bin Həməd Al TANİ,***
***Qətər Dövləti Əmirinin müavini***

❖ ❖ ❖

Əs-səlamu aleykum və rəhmətullahi və bərəkətuhu.

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə zati-alinizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Uca Allahdan Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı tərəqqi və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Salman bin Həməd Al XƏLİFƏ,***
***Bəhreyn Krallığının vəliəhdi,***
***Nazirlər Şurasının sədri***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

İcazə verin, Sizə öz ehtiramımı bildirim və Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi ürəkdən təbrik edim.

Müstəqillik Günü millətin birliyini və mənəvi yenilməzliyini əks etdirən əsas dövlət bayramıdır.

Bu əlamətdar gündə Sizə və Azərbaycan Respublikasının bütün sakinlərinə möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq və Azərbaycanın rifahı naminə səmərəli fəaliyyətinizdə yeni nailiyyətlər arzu edirəm.

Həştərxan vilayəti ilə Azərbaycan arasında uzun illər davamlı strateji tərəfdaşlıq xarakteri daşıyan çoxşaxəli qarşılıqlı əlaqələrin inkişafına hərtərəfli dəstəyinizə və dəyərli şəxsi töhfənizə görə Sizə təşəkkür edirəm. Əminəm ki, qarşılıqlı hörmətə və etimada əsaslanan əməkdaşlıq əlaqələrini birgə səylərimizlə bundan sonra da fəal şəkildə genişləndirəcəyik.

*Dərin hörmətlə,*

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru***

# Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı dostluq əlaqələrinin mövcud vəziyyəti sevindiricidir

**Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ülyahəzrət II Elizabetə**



Ülyahəzrət!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı - Təvəllüd Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir və ən xoş arzularımı çatdırıram.

Eyni zamanda Platin Yubileyiniz - taxtda olmağınızın 70 illiyi ilə əlaqədar Sizə ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram. Son yeddi onillik boyu Birləşmiş Krallığın rifahı, hərtərəfli inkişafı naminə yorulmaz fəaliyyətiniz, şəxsi nümunə və fədakarlığınız Sizə dünyada böyük rəğbət, hörmət və nüfuz qazandırmışdır.

Azərbaycan ilə Birləşmiş Krallıq arasında münasibətlərin bütün inkişaf mərhələlərində, hazırkı səviyyəyə yüksəlməsində, bu gün əməkdaşlığımızın bir sıra sahələrdə strateji xarakter kəsb etməsində Sizin töhfənizi xüsusi qeyd etmək istərdim.

Bu il dövlətlərarası əlaqələrimizin tarixində əlamətdar ildönümüdür - biz ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik. Bu dövr ərzində Azərbaycan ilə Birləşmiş Krallıq arasında təşəkkül tapmış dostluq əlaqələrinin mövcud vəziyyəti bizi sevindirir. Əminəm ki, qarşılıqlı etimad və dəstəyə əsaslanan münasibətlərimiz, səmərəli çoxşaxəli əməkdaşlığımız bundan sonra da uğurla inkişaf edəcək və genişlənəcəkdir.

Ülyahəzrət!

Sizi bir daha səmimiyyətlə təbrik edir, möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, fəaliyyətinizdə uğurlar, dost xalqınıza daim firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyun 2022-ci il*

# Azərbaycan İtaliya ilə dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirir

**İtaliya Respublikasının Prezidenti zati-aliləri cənab Sercio Mattarellaya**



Hörmətli cənab Prezident!

İtaliya Respublikasının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Biz Azərbaycan ilə İtaliya arasında dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirir və onlara böyük əhəmiyyət veririk. İkitərəfli əlaqələrimizin gündən-günə inkişafı, qarşılıqlı etimad və dəstəyə əsaslanan strateji tərəfdaşlığımızın möhkəmlənməsi xüsusi məmnunluq doğurur.

İqtisadiyyat, ticarət və enerji sahələrindəki uğurlu işbirliyimiz və əldə etdiyimiz nailiyyətlər bizi sevindirir. İtaliya şirkətləri Azərbaycanda geniş fəaliyyət göstərir və münasibətlərimizdə vacib rol oynayır. Hazırda bu əməkdaşlıq Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən işğaldan azad olunmuş ərazilərimizin bərpası və yenidən qurulması işlərində də müvəffəqiyyətlə davam edir.

Azərbaycan dost İtaliya ilə çoxşaxəli tərəfdaşlığı xalqlarımızın rifahı naminə daha da genişləndirmək əzmindədir. Bu gün qarşılıqlı faydalı fəaliyyətimizin inkişaf etdirilməsi üçün yaxşı perspektivlər var. Şübhəsiz, iqtisadiyyat, enerji və digər sahələrdəki mövcud potensialdan, xüsusilə qeyri-neft sektorundakı imkanlardan tam istifadə etməklə əməkdaşlığımızı yeni məzmunla zənginləşdirə bilərik.

İnanıram ki, sağlam təməl üzərində qurulmuş ənənəvi dostluq əlaqələrimiz istər ikitərəfli qaydada, istərsə də Avropa İttifaqı çərçivəsində birgə səylərimizlə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu əlamətdar gündə Sizə cansağlığı, xoşbəxtlik və işlərinizdə uğurlar, dost İtaliya xalqına daim firavanlıq və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyun 2022-ci il*

# Prezident Administrasiyasında Azərbaycan Ümid Partiyasının sədri ilə görüş keçirilib

Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə həyata keçirilən siyasi dialoq prosesi çərçivəsində siyasi partiya rəhbərləri ilə təşkil olunan görüşlər davam etdirilir. Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin növbəti görüşü iyunun 2-də Azərbaycan Ümid Partiyasının sədri İqbal Ağazadə ilə keçirilib.

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüş çərçivəsində şöbə müdiri Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan islahatlar, iqtidar-müxalifət siyasi dialoqu və bunun nəticəsi olaraq yaranan sağlam siyasi mühit, həmçinin "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi, məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 27 may tarixli sərəncamı, İkinci Qarabağ müharibəsində qazanılmış qələbə, Böyük qayıdış çərçivəsində görülən işlər və sürətlə reallaşdırılan layihələr, yeni geosiyasi reallıqlar, Azərbaycanın beynəlxalq arenada artan nüfuzu və bir sıra digər aktual məsələlər haqqında fikirlərini bildirib.

Görüşdə Azərbaycan-Türkiyə münasibətləri xüsusi olaraq müzakirə edilib. Qardaş Türkiyə ilə münasibətlərin yüksələn xətlə inkişaf etdiyini vurğulayan administrasiya rəsmisi Şuşa Bəyannaməsinin tarixi əhəmiyyətini qeyd edib. Ölkəmizdə keçirilmiş "TEKNOFEST Azərbaycan" festivalında iştirak etmək məqsədilə Türkiyə Prezidentinin Azərbaycana səfərini əlamətdar hal kimi dəyərləndirən şöbə müdiri tədbirdə hər iki ölkənin rəhbərləri tərəfindən səsləndirilmiş siyasi mesajların qardaşlıq münasibətlərinin əbədiləşdirilməsinə xidmət etdiyini bildirib.

Şöbə müdiri ölkəmizdə cərəyan edən siyasi prosesləri şərh edərkən siyasi partiyaların artan ictimai nüfuzunu xüsusi vurğulayıb. Bu mənada siyasi partiyaların maarifləndirici funksiyasını qeyd edən administrasiya rəsmisi Azərbaycan haqqında obyektiv məlumatların yayılmasında və onların beynəlxalq təşkilatlara çatdırılmasında siyasi partiyaların daha fəal mövqe sərgiləmələrini arzulayıb.

Partiya sədri öz növbəsində ölkənin demokratik münasibətlər təcrübəsinin zənginləşməsinə xidmət edən siyasi dialoqla bağlı təşəbbüsləri dəstəklədiyini qeyd edib və bu cür təşəbbüslərin davamlı olmasının əhəmiyyətini vurğulayıb. İqbal Ağazadə ölkəmizin Türkiyə ilə münasibətlərini yüksək dəyərləndirib və işğaldan azad olunmuş ərazilərin bərpasında yerli şirkətlərlə yanaşı, xarici, o cümlədən Türkiyə şirkətlərinin iştirakını xüsusilə təqdir edib.

Görüş çərçivəsində aparılmış müzakirələrdə siyasi proseslərin iştirakçıları arasında etibarlı münasibətlərin qorunması məsələsinə də toxunulub. Belə ki, ölkəmizdə demokratik ənənələrin dərinləşməsi haqqında söhbət açan şöbə müdiri radikal müxalifət nümayəndələrinin sərt, qərəzli və inkarçı ritorikadan istifadə etməsinin bu proseslərə şüurlu şəkildə zərər vurmasına xidmət etdiyini vurğulayıb.

Görüşün sonunda administrasiya rəsmisi əməkdaşlığa açıq və fəal mövqeyinə görə İqbal Ağazadəyə təşəkkürünü bildirib, onun sədrlik etdiyi siyasi partiyaya gələcək fəaliyyətində uğurlar arzulayıb.

# Rumıniya ilə iqtisadi əlaqələrin genişləndirilməsi müzakirə olunub



İqtisadiyyat naziri Mikayıl Cabbarov Rumıniyanın energetika naziri Virgil-Daniel Popesku ilə görüşüb.

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə qarşılıqlı iqtisadi əlaqələrin inkişafı, enerji, nəqliyyat, ticarət və s. sahələrdə tərəfdaşlıq, SOCAR-ın Rumıniyada fəaliyyəti vurğulanıb, Rumıniya şirkətləri Azərbaycandan olan həmkarları ilə fəal əməkdaşlığa dəvət olunub.

Tərəflər iqtisadiyyatın müxtəlif sahələri, o cümlədən neft-qaz sahəsində əməkdaşlığın gücləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Polşa parlamentinin nümayəndələri Şəhidlər xiyabanını ziyarət ediblər

Ölkəmizdə səfərdə olan Polşa parlamentinin Azərbaycanla dostluq qrupunun rəhbəri xanım Yoanna Lixotska və qrupun üzvləri iyunun 2-də Şəhidlər xiyabanını ziyarət ediblər.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, polşalı deputatlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının məzarları üzərinə güllər qoyublar, "Əbədi məşəl"abidəsini ziyarət ediblər.

Daha sonra Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi, şəhərdə görülən abadlıq və quruculuq işləri barədə məlumat verilib.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin deputatları - Polşa ilə parlamentlərarası dostluq qrupunun rəhbəri Səttar Möhbalıyev, qrupun üzvü Ülviyyə Həmzəyeva və digər rəsmi şəxslər müşayiət ediblər.

***"Azərbaycan"***

# Azərbaycan-Türkiyə əlaqələrinin bugünkü səviyyəsi birlik və həmrəyliyin yeni təzahürüdür



İyunun 2-də Milli Məclisin Sədri Sahibə Qafarova "İNCSOS-Qarabağ" 7-ci Beynəlxalq Sosial Elmlər Konqresində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM) Sədri Mustafa Şentopla görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Sahibə Qafarova TBMM Sədrini salamlayaraq bildirib ki, Azərbaycan və Türkiyə parlamentlərinin himayəsi altında keçirilən 7-ci Beynəlxalq Sosial Elmlər Konqresi akademik dairələrimizin birgə fəaliyyətinin daha da gücləndirilməsi baxımından çox önəmlidir.

Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin Sədri, professor Mustafa Şentopa bu tədbirin Azərbaycanda keçirilməsi təşəbbüsünü irəli sürdüyünə və verdiyi böyük dəstəyə görə təşəkkürünü bildirib. Diqqətə çatdırıb ki, bu cür elmi tədbirlərin keçirilməsi universitetlərimiz, elmi dairələrimiz arasında əməkdaşlığın inkişafı baxımından olduqca zəruridir.

Milli Məclisin Sədri bildirib ki, 7-ci Beynəlxalq Sosial Elmlər Konqresinin mövzusunun Qarabağa həsr olunması da çox mühüm məsələdir. Çünki Qarabağ həqiqətlərinin akademik dairələr tərəfindən vurğulanması və elmi ədəbiyyatda əks etdirilməsi çox vacibdir.

Qeyd olunub ki, qardaş ölkələr olan Azərbaycan-Türkiyə əlaqələrinin bugünkü səviyyəsi birlik və həmrəyliyimizin yeni təzahürüdür. 44 günlük Vətən müharibəsində qardaş Türkiyənin Azərbaycana birmənalı siyasi və mənəvi dəstəyi bu birliyin parlaq nümunəsidir.

Sahibə Qafarova diqqətə çatdırıb ki, iyunun 15-də biz Azərbaycan-Türkiyə əlaqələrində daha bir əlamətdar hadisə olan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsinin imzalanmasının birinci ildönümünü qeyd edəcəyik. Dövlət başçılarımızın qətiyyəti və iradəsi sayəsində Azərbaycan-Türkiyə müttəfiqlik münasibətləri Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində imzalanmış Şuşa Bəyannaməsi ilə ən yüksək zirvəsinə çatıb. Bu sənəd ölkələrimiz arasında dostluq və qardaşlığın mahiyyətini əks etdirməklə yanaşı, qarşıda dayanan yeni hədəfləri və məqsədləri müəyyənləşdirir.

Səmimi sözlərə görə təşəkkürünü bildirən Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop xalqlarımızın təmsilçiləri olan parlamentlərimizin də dövlət başçılarının siyasi iradəsini yekdilliklə təsdiqlədiyini diqqətə çatdırıb.

Bildirib ki, bu gün Azərbaycan-Türkiyə əlaqələri xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ifadə etdiyi "bir millət, iki dövlət" prinsipinə əsaslanır. Heç şübhəsiz ki, gələcəkdə Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı daha da inkişaf edəcək və daha da möhkəmlənəcək.

TBMM Sədri 7-ci Beynəlxalq Sosial Elmlər Konqresi çərçivəsində aparılacaq müzakirələrin elmi dairələrimizin birgə fəaliyyətinin gücləndirilməsi, ölkələrimiz və xalqlarımız üçün mühüm mövzuların nəzərdən keçirilməsi baxımından faydalı olacağına əminliyini ifadə edib. O, bu mühüm tədbirin yüksək səviyyədə təşkili üçün Azərbaycan tərəfinə minnətdarlığını bildirib.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop ölkəmizə səfərə gəlib




Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun rəhbərlik etdiyi nümayəndə heyəti "İNCSOS-Qarabağ" 7-ci Beynəlxalq Sosial Elmlər Konqresində iştirak etmək üçün iyunun 2-də Azərbaycana səfərə gəlib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycanın və Türkiyənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Hava Limanında Türkiyə parlamentinin nümayəndə heyətini Milli Məclis Sədrinin müavini Fəzail İbrahimli, Türkiyə ilə parlamentlərarası dostluq qrupunun rəhbəri Əhliman Əmiraslanov, Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı və digər rəsmi şəxslər qarşılayıblar.

***"Azərbaycan"***

# Ölkəmizə qaytarılmış daha 13 nəfərlə əlaqədar sosial-psixoloji dəstək işlərinə başlanılıb

Azərbaycan hökuməti tərəfindən repatriasiya işlərinin davamı olaraq son günlərdə İraq və Suriyadan daha 13 nəfər vətəndaşımız ölkəmizə qaytarılıb. Onlardan 2-si qadın, 11-i uşaqdır.

Repatriasiya olunmuş şəxslərdən 11-i Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin sosial xidmət müəssisəsinə, 2-si tibb müəssisəsinə yerləşdirilib. Repatriantlara ilkin tibbi, sosial- psixoloji dəstək işlərinə başlanıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, növbəti mərhələ kimi, agentliyin sosial işçiləri və psixoloqları repatriasiya olunmuş qadın və uşaqların sosial-psixoloji vəziyyətlərini qiymətləndirəcək. Nəticəsinə uyğun olaraq hər bir repatriantla bağlı fərdi inkişaf planı əsasında psixoloji dəstək tədbirləri həyata keçiriləcək.

Qeyd edək ki, reabilitasiya prosesini başa çatdıran repatriantların sosial reabilitasiyası onlar öz mənşə ailələrinə verildikdən sonra da davam etdirilir. Onlara sosial dəstək xidmətləri digər aidiyyəti orqanlarla qarşılıqlı əməkdaşlıq şəraitində həyata keçirilir.

Ölkəyə qaytarılan vətəndaşlarımızın sosial re inteqrasiyası və sosial reabilitasiyası məqsədilə agentliyin mütəxəssisləri tərəfindən fərdi sosial iş aparılır.

Onlar psixoloji konsultasiyalara, maarifləndirici tədbirlərə, asudə vaxtlarının mənalı keçmələri üçün müxtəlif dərnəklərə də cəlb edilirlər.

# ADA Universitetində 7-ci Beynəlxalq Sosial Elmlər Konqresi keçirilir

İyunun 2-də ADA Universitetində Milli Məclis, Türkiyə Böyük Millət Məclisi və Beynəlxalq Balkan Universitetinin birgə təşkilatçılığı ilə 7-ci Beynəlxalq Sosial Elmlər Konqresi işə başlayıb.






AZƏRTAC xəbər verir ki, konqresdə elm və təhsil sahəsi üzrə bir çox rəsmilər, türk dövlətlərinin aparıcı universitetlərinin rektorları, nüfuzlu alimlər və yüksəksəlahiyyətli yerli və xarici çıxışçılar iştirak edirlər.

Konqres çərçivəsində baş tutacaq panel müzakirələr çərçivəsində torpaqlarımızın işğaldan azad edilməsi ilə regionda yaranan yeni reallıqlar və çağırışlar, geosiyasi vəziyyət və sülh quruculuğu kimi mövzular ətrafında müzakirələr aparılacaq.

Tədbir Azərbaycan və Türkiyənin Dövlət himnlərinin səsləndirilməsi ilə başlanıb.

Açılış mərasimində çıxış edən ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev konqres iştirakçılarını salamlayaraq tədbirin daha əvvəl İspaniya, Rumıniya, Türkiyə, Qüds, Özbəkistan və Makedoniyada keçirildiyini nəzərə çatdırıb. Rektor konqresdə iştirak etmək üçün 520-dən çox qonağın Bakıya, ADA Universitetinə gəldiyini və 1000-dən çox akademik məruzənin təqdim edildiyini bildirib. Səfir Hafiz Paşayev əlavə edib ki, ADA Universiteti Türkiyənin bir neçə aparıcı universiteti də daxil olmaqla dünyanın 100-dən çox ali təhsil ocağı ilə akademik əməkdaşlığı inkişaf etdirib.



Milli Məclisin Sədri Sahibə Qafarova 7-ci Beynəlxalq Sosial Elmlər Konqresinin akademik dairələrimizin birgə fəaliyyətinin daha da gücləndirilməsindəki önəmindən bəhs edərək deyib ki, konqresin Qarabağa həsr olunması, Qarabağ həqiqətlərinin akademik dairələr tərəfindən vurğulanması və elmi ədəbiyyatda əks etdiriləcək gələcək nəsillərə ötürülməsi olduqca vacibdir.




Spiker bildirib ki, dövlətlərimiz arasında rəsmi münasibətlər 30 ili əhatə etsə də, xalqlarımızın ortaq tarix, dil, mənəvi-mədəni dəyərlərə əsaslanan birliyi və həmrəyliyi əsrlərdən bəri davam edir. Azərbaycan-Türkiyə əlaqələrinin bugünkü səviyyəsi isə birlik və həmrəyliyimizin yeni bir təzahürüdür.

Türkiyə Respublikası Böyük Millət Məclisinin Sədri Mustafa Şentop konfransın əhəmiyyətini vurğulayaraq söyləyib ki, tədbir çərçivəsində təxminən 30 il davam edən işğal, verilən şəhidlər, ürək parçalayan Xocalı qətliamına alimlər tərəfindən diqqət çəkiləcək.

Azərbaycanın haqq səsinin beynəlxalq aləmdə eşidilməsinin Türkiyə üçün vacibliyini vurğulayan sədr 20 fərqli ölkədən 100-dən çox professorun konqresdə iştirak etdiyini və buradakı müzakirələrin nəticəsinin kitab şəklində çap olunacağını diqqətə çatdırıb.

Təhsil naziri Emin Əmrullayev Azərbaycan və Türkiyənin təhsil nazirlikləri arasında əməkdaşlığa diqqət çəkərək gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün nəzərdə tutulmuş Dövlət Proqramına toxunub.

Dövlət proqramları çərçivəsində gənc istedadların təhsil almaları üçün geniş imkanların təqdim edildiyini vurğulayan nazir Azərbaycandan 20 mindən çox tələbənin Türkiyədə təhsil aldığını və bu il Bakıda Azərbaycan-Türkiyə Universitetinin əsasının qoyulacağını nəzərə çatdırıb.

Sonda çıxış edən Beynəlxalq Balkan Universitetinin rektoru Erol Özvar Türkiyə universitetləri ilə Azərbaycan ali təhsil müəssisələri arasında əlaqələrin inkişafından və perspektivlərdən söhbət açıb.

İki gün davam edəcək konqres çərçivəsində Bakıda panel müzakirələr baş tutacaq. Konqres Şuşada təşkil olunacaq tədbirlə başa çatacaq.

# Milli Məclisin deputatları Ələt Azad İqtisadi Zonasında görülən işlərlə tanış olublar




İyunun 2-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişilinin başçılığı ilə parlamentin bir qrup deputatı Ələt Azad İqtisadi Zonasında (Ələt AİZ) olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində deputatlar zonada aparılan işlərlə, yaradılan şəraitlə yaxından tanış olublar. Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov deputatları zonanın ərazisi ilə tanış edib. Valeh Ələsgərov deputatlara Ələt AİZ-in inkişaf konsepsiyası haqqında danışıb, zonada beynəlxalq standartlara uyğun yaradılan infrastruktur, istehsalat, ticarət və logistika mərkəzləri, gömrük-keçid məntəqəsi, eləcə zonada fəaliyyət göstərəcək xidmətlər haqqında geniş məlumat verib.

Sonra deputatlara Ələt Azad İqtisadi Zonası haqqında təqdimat nümayiş etdirilib. Valeh Ələsgərov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə milli iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı ilə bağlı icra olunan layihələrdən söz açıb, Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu kimi layihələrin həyata keçirilməsindən bəhs edib. Ələt AİZ-in ixrac potensialının artırılması, xarici investisiyaların cəlb edilməsi istiqamətində böyük əhəmiyyəti olan işlərin görüldüyünü vurğulayıb. Valeh Ələsgərov təqdimatda AİZ-in investorlara təklif etdiyi əlverişli işgüzar mühit, unikal qanunvericilik bazası, fiskal və qeyri-fiskal imtiyazlar və güzəştlər paketi, ticarətin sadələşdirilməsinə əsaslanan gömrük rejimi, ixtisaslaşmış personal və investorların hüquqlarının tam qorunması və digər imkanlar barədə ətraflı məlumat verib.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Prezident İlham Əliyevin birbaşa rəhbərliyi ilə Azərbaycanın ən böyük qeyri-neft sektoru layihəsi olan Ələt Azad İqtisadi Zonasının yaradılmasını ölkəmizin iqtisadiyyatına xarici sərmayələrin cəlb olunması və qeyri-neft sektorunun inkişafı baxımından yüksək qiymətləndirib. Komitə sədri Ələt AİZ-in yeni texnologiyaların, innovasiyaların ölkəmizə gətirilməsi və yeni iş yerlərinin açılması baxımından əhəmiyyətini xüsusi qeyd edib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Əli Məsimli, deputatlar Vahid Əhmədov, Ziyad Səmədzadə, Məşhur Məmmədov, Aydın Hüseynov, Elnur Allahverdiyev, Rüfət Quliyev, İqbal Məmmədov, İltizam Yusifov, Razi Nurullayev çıxışlarında iqtisadi zonada investorların cəlb olunması üçün münbit şəraitin yaradılmasından bəhs ediblər, azad zonanın fəaliyyəti üçün mükəmməl normativ hüquqi bazanın olduğunu söyləyiblər. Deputatlar zonanın ölkənin qeyri-neft sektorunun inkişafına və regional əməkdaşlığa, ticarət dövriyyəsinin artmasına yüksək töhfə verəcəyini, vətəndaşların sosial rifahına müsbət təsir göstərəcəyini qeyd ediblər.

***"Azərbaycan"***




# Zəfər səfərləri

**Prezident İlham Əliyevin birinci xanım Mehriban Əliyeva ilə Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına növbəti səfəri dövlətçilik ənənələrinin və iqtisadiyyatımızın inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir.**

Qələbəmizdən sonra dövlət başçısı, Ali Baş Komandan düşmənin qovulduğu torpaqlarda üçrəngli bayrağımızı ucaltmaqla kifayətlənmədi, işğaldan azad edilmiş ərazilərin simasının büsbütün dəyişməsi, dağıdılmış çoxsaylı yaşayış məntəqələrinin yenidən qurulması üçün yüksək texnologiyalara, yeni iqtisadi modellərə üstünlük verdi, yaşıl iqtisadiyyatı, "ağıllı" kənd və şəhərlərin salınmasını, qədim abidələrin tarixi görkəmlərinin bərpasını önə çəkdi.

Bu gün Qafqazın Xirosimasının - Qarabağın bərpası bütün dünyanın diqqət mərkəzindədir. Azərbaycan Prezidentinin Qarabağa qalib səfərlərini dostlarımız da, düşmənlərimiz də diqqətlə izləyirlər. Sonuncu səfərdə dövlət başçısı və birinci xanım Füzuli rayonunda Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi ilə tanış oldular, Cəbrayıl rayonunda Horadiz-Ağbənd dəmir yolu xəttinin Soltanlı stansiyasının və "Azərenerji" ASC-nin "Cəbrayıl" enerji qovşağının təməlqoyma mərasimində iştirak etdilər. Qeyd edək ki, bu qovşaq işə salındıqdan sonra Cəbrayıl-Naxçıvan-Ağrı (Türkiyə) yarımstansiyalarına, oradan isə Türkiyə enerji sistemi vasitəsilə Avropa enerji bazarlarına əlavə və daha əlverişli çıxış əldə etmək üçün unikal imkan yaranacaq. Min meqavat yükötürmə qabiliyyətinə malik olmaqla ixrac imkanlarını artırmaq, uzun illərdən sonra Naxçıvan Muxtar Respublikasını Azərbaycanın ümumi enerjisisteminə qoşmaq, "Xudafərin" və "Qız qalası" Su-Elektrik stansiyalarının, o cümlədən "bp Cəbrayıl" Günəş-Elektrik Stansiyasının enerjisistemə inteqrasiyasını həyata keçirmək üçün 330 kilovoltluq "Cəbrayıl" yarımstansiyasının tikilməsi də olduqca əhəmiyyətli hadisədir.

Zəngilan rayonunda dövlət başçısı və birinci xanım Beynəlxalq Hava Limanının və "Paşa Holding" MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən inşa olunan Zəngilan məscidinin tikinti işləri ilə tanış oldular, İşğal və Zəfər muzeyləri kompleksinin təməlqoyma mərasimində iştirak etdilər. Bu kompleks İşğal Muzeyi, Zəfər Muzeyi və dağıntıları əks etdirən Memorial parkdan ibarət olacaq. Qeyd edək ki, bu iki muzey erməni əfsanələrinə, ermənilərin qədim, müdrik və mədəni xalq olması barədə uydurmalara əbədi divan tutan, erməni vandallığını ifşa edən əbədi tribunaya çevriləcək. Hər iki muzey Azərbaycan xalqının iftixar və qürur mənbəyi sayılan şanlı ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm qələbəni indiki və gələcək nəsillərin yaddaşına həkk edən, beynəlxalq hüquqa uyğun şəkildə ərazi bütövlüyünü bərpa edən Azərbaycanın haqq səsini dünyaya çatdıran təşviqat və informasiya mərkəzi olacaq.

Bundan başqa, Zəngilanla bağlı tarixi faktların yaradıcı üsulla dağıntılar üzərində əks etdirilməsi üçün xüsusi layihə həyata keçiriləcək. Dünyanın müxtəlif ölkələrindən dağıntılar üzərində fərqli divar rəsmləri ("Street art") yaratmaq üçün rəssamlar cəlb ediləcək. Beləliklə, 10 min 500 kvadratmetr sahəni əhatə edən dağıntılardan ibarət Memorial parkda bütün dünyadan gələn ziyarətçilər "müdrik və mədəni" erməni xalqının törətdikləri vəhşiliklərin şahidi olacaqlar. Məhz belə addımlara görə erməni millətçiləri Prezident İlham Əliyevin səfərlərini sakit yox, hay-küy və qəzəblə şərh edirlər.

Qarabağda quruculuq işlərinin və bütünlükdə iqtisadi islahatların necə vüsət almasının getdikcə daha çox şahidi oluruq. Zəngilan şəhərində Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya şəhərin Baş planını təqdim edən Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev məlumat verdi ki, bu planın hazırlanmasına çox böyük təcrübəyə malik nüfuzlu beynəlxalq şəhərsalma qrupu - İsveçrənin "sa_partners" şirkəti cəlb edilmişdir. Araz vadisinin yaxınlığında, həm Zəngəzur nəqliyyat dəhlizindən, həm də Zəngilan Beynəlxalq Hava Limanından cəmi 10 kilometr məsafədə yeni şəhər yaradılacaq və o, Zəngilanın beynəlxalq nəqliyyat dəhlizi ilə əlaqəsi olan logistika, turizm və ticarət mərkəzi, bərpaolunan enerji məkanı kimi inkişaf etdiriləcək. Əsas ideya şəhərin "rahat yaşayış", "yaşıl və təmiz", "mütərəqqi innovasiyalar" kimi formalaşmasıdır. Şəhərin yerləşdiyi Oxçuçay çayının sahilində geniş park, həmçinin dağüstü park və daxili yaşıl dəhlizlər salınacaq, təmiz ekoloji mühitin formalaşması əsas götürüləcək. Əslində bütün nəzərdə tutulan yeniliklər "ağıllı şəhəri" yanaşmasının geniş tətbiqini özündə ehtiva edir.

Zəngilan Beynəlxalq Hava Limanında dövlət başçısına aparılan tikinti işləri barədə məlumat verildi. Bildirildi ki, perronda torpaq işləri tamamlanmışdır. Uçuş-enmə zolağında isə asfalt-beton işləri davam edir. Zolağın uzunluğu 3000, eni 60 metr olacaq. Beynəlxalq standartlara uyğun inşa edilən terminal binası saatda 200 sərnişinə xidmət edəcək.

Bir sözlə, Qarabağda reallaşdırılan layihələr bütün ölkənin iqtisadi durumunun güclənməsinə, yeni iqtisadi ideyaların geniş tətbiqinə böyük imkanlar yaradır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Aviatorlar Azərbaycan mülki aviasiya işçiləri gününü qeyd ediblər



2 iyun tarixdə Azərbaycan aviatorları rəsmi olaraq peşə bayramını qeyd ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Mülki aviasiya işçilərinin peşə bayramının təsis edilməsi haqqında" 18 may 2006-cı il tarixli sərəncamına əsasən hər il iyunun 2-si Azərbaycanda mülki aviasiya işçilərinin peşə bayramı günü kimi qeyd edilir.

Bu gün aviatorlar Fəxri xiyabanı ziyarət edərək Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsini yad etmiş, onun məzarı üzərinə əklil və çiçəklər qoymuşlar. Həmçinin görkəmli alim-oftalmoloq, akademik Zərifə Əliyevanın xatirəsi yad edilmiş, məzarı üzərinə çiçəklər qoyulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə mülki aviasiya sahəsinin bir qrup işçisinə fəxri ad verilmiş, aviatorların bir qismi orden və medallarla təltif edilmişdir.

***"Azərbaycan"***

# Azərbaycan-Polşa əlaqələri inkişaf edir

İyunun 2-də Milli Məclisin Polşa ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Polşa Respublikası parlamentinin Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri xanım Yoanna Lixotska və qrupun üzvləri ilə görüşüblər.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Polşa ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Səttar Möhbalıyev görüşdə ölkələrimiz və xalqlarımız arasında əlaqələrin dərin köklərə söykəndiyini deyib, uzun illər əvvəl Azərbaycana köçmüş polyakların yerli əhali ilə birgə mehriban yaşadığını, ölkəmizin bir sıra şəhərlərində memarlıq nümunələrinin inşasında, habelə neft sənayesinin inkişafında polşalı mütəxəssislərin xidmətlərini qeyd edib.

Səttar Möhbalıyev dövlət başçılarının qarşılıqlı səfərlərinin, aparılan danışıqların ölkələrimiz arasındakı dostluq əlaqələrinin möhkəmlənməsində mühüm əhəmiyyət daşıdığını söyləyib, siyasi, iqtisadi, humanitar sahələrdə əlaqələrimizin yüksələn xətlə inkişaf etdiyini bildirib.

Dövlətlərimiz arasında münasibətlərin genişləndirilməsində parlamentlərin mühüm rol oynadığını deyən işçi qrupunun rəhbəri qanunvericilik orqanları arasında əlaqələrin inkişafını, nümayəndə heyətlərinin qarşılıqlı səfərlərini təqdirəlayiq hal kimi qiymətləndirib. Mötəbər beynəlxalq parlament qurumlarında Azərbaycan və Polşa nümayəndə heyətlərinin qarşılıqlı faydalı əməkdaşlığının vacibliyini qeyd edib.

Səttar Möhbalıyev Azərbaycan torpaqlarının uzun müddət Ermənistan işğalına məruz qaldığını deyərək ermənilərin xalqımıza qarşı törətdiyi Xocalı soyqırımı barədə danışıb. O, 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun zəfər çalaraq bu işğala son qoyduğunu bildirib, regionda yaranmış yeni reallıqlardan bəhs edib, hazırda işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinin sürətlə həyata keçirildiyini diqqətə çatdırıb.

Polşa Respublikası parlamentinin Azərbaycanla dostluq qrupunun rəhbəri xanım Yoanna Lixotska səmimi görüşə və qonaqpərvərliyə görə təşəkkürünü ifadə edib. Qonaq ölkələrimiz arasında əməkdaşlığın dinamik inkişafından danışıb, Azərbaycanın, xüsusilə də Bakının gözəlliyi barədə xoş təəssüratlarını bölüşüb.

İki ölkə arasında parlamentlər səviyyəsində əlaqələrin inkişaf etdirilməsinin vacibliyini vurğulayan qonaq qanunvericilik sahəsində təcrübə və informasiya mübadiləsi baxımından qarşılıqlı səfərlərin və görüşlərin əhəmiyyətini qeyd edib. O, Polşanın Azərbaycanla müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu söyləyib.

Polşalı deputatlar Barbara Bartus və Boquslav Vontor da dövlətlərimiz və xalqlarımız arasında əlaqələrin möhkəmlənməsindən bəhs ediblər, iqtisadi, ticarət sahəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu bildiriblər.

Söhbət zamanı Milli Məclisin Polşa ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Sevinc Hüseynova və Nizami Səfərov iki ölkə arasındakı münasibətlərə dair fikirlərini bildiriblər.

***"Azərbaycan"***

# *Bakı Enerji Forumu:* "Cənub qaz dəhlizi" Avropanın enerji təhlükəsizliyinin təminatında böyük rol oynayır

İyunun 2-də Bakı Konqres Mərkəzində Bakı Enerji Forumu öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən forumun ilk günündə qlobal enerji perspektivləri, "yaşıl enerji"yə keçidin maliyyələşdirilməsi, qaz təchizatı məsələləri, Xəzər regionunda kəşfiyyat və hasilat imkanlarının xəritəsi və bir sıra digər aktual məsələlər müzakirə olunur.

Bu il forumda dünyanın 20 ölkəsindən 400-dən çox nümayəndə iştirak edir. Forumun proqramına 50 məruzəçinin 25-dən çox mövzusu daxildir. Plenar iclas "Enerji keçid dövründə dəyişən dünyada yeni imkanlar və problemlər" mövzusuna həsr olunub.

Forumda çıxış edən energetika naziri Pərviz Şahbazov bildirib ki, "Azəri-Çıraq-Günəşli" (AÇG) və "Şahdəniz" yataqlarından indiyədək 168 milyard kubmetr qaz hasil edilib. Bu layihələr çərçivəsində 163 milyard dollardan artıq gəlir əldə olunub. Bu günədək AÇG neft-qaz yataqları blokunda və "Şahdəniz" qaz-kondensat yatağında 555 milyon ton neft hasil edilib.

Nazir, həmçinin diqqətə çatdırıb ki, indiyədək Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) ilə 29 milyard kubmetr Azərbaycan təbii qazı nəql olunub. Bunun 6,8 milyard kubmetri bu il nəql edilib. Bu ilin yekununda TANAP-la 16 milyard kubmetr qazın ötürülməsi nəzərdə tutulub.

"İyunun 4-də Şuşada bərpaolunan enerji sahəsində müqavilə imzalanacaq. Bu cür müqavilələrin imzalanması investorlar tərəfindən gözlənilən addımdır. Çünki Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının "yaşıl enerji" sektorunda böyük potensialı mövcuddur", - deyə P.Şahbazov vurğulayıb.

Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ölkəsinin Azərbaycandan enerji ehtiyatlarını tədarük etməkdə maraqlı olduğunu söyləyib. Bildirib ki, Azərbaycan qazının Avropanın əsas idxalatçısına çevrilməsi üçün Xəzər regionunun infrastrukturu və potensialı inkişaf etdirilməlidir. Enerji qiymətləri, boru kəmərlərinin azlığı müəyyən çətinliklər yaradır.

Azərbaycanın etibarlı enerji tərəfdaşı kimi özünü sübut etdiyini deyən Bolqarıstanın energetika naziri Aleksandr Nikolov diqqətə çatdırıb ki, Avropanın enerji təchizatının şaxələndirilməsi indi daha əhəmiyyətlidir və bu səbəbdən Xəzər regionu ilə əməkdaşlıq Avropa üçün mühüm məsələdir.

İtaliyanın ekoloji keçid məsələləri üzrə nazir müavini Vannia Qava qeyd edib ki, İtaliya "Cənub qaz dəhlizi" çərçivəsində əməkdaşlığı gücləndirəcək. Məqsəd TAP-ın buraxılış gücünü 20 milyard kubmetrədək artırmaqdır. Bu, Yunanıstana, İtaliyaya tədarükün təmini baxımından mühümdür. "Cənub qaz dəhlizi" ilə İtaliyaya qaz tədarükü 7,2 milyard kubmetrə çatıb.

"Enerji təhlükəsizliyi ilə bağlı məsələlər İtaliya üçün bu sahədə prioritetdir. İtaliya tərəfdaşları ilə infrastrukturun inkişafı və tədarükün şaxələndirilməsi istiqamətində çalışır", - deyə V.Qava əlavə edib.




ABŞ dövlət katibi müavininin enerji diplomatiyası üzrə müşaviri Laura Loxman vurğulayıb ki, ABŞ enerji keçidi ilə əlaqədar Azərbaycanın səylərini qiymətləndirir. "Cənub qaz dəhlizi" Avropanın enerji təhlükəsizliyinin təminatında böyük rol oynayır.

Bakı Enerji Forumu çərçivəsində BP şirkəti ilə Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) arasında çərçivə sazişi imzalanıb. Sənədi BP-nin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli və ADNSU-nun rektoru Mustafa Babanlı imzalayıb.

Razılaşmaya əsasən Britaniya universitetlərindən biri ilə ADNSU-nun ikili diplom magistr proqramı olacaq. Saziş çərçivəsində yaxın 3 ildə Azərbaycanda bərpaolunan enerji sahəsində 100-dən çox mütəxəssis hazırlanacaq.

Sonra forum şirkət və dövlət rəsmilərinin çıxışları ilə davam edib.

SOCAR-ın birinci vitse-prezidenti, prezident vəzifəsini müvəqqəti icra edən Rövşən Nəcəf bildirib ki, Azərbaycanın Avropaya qaz ixracını artırmaq potensialı var.

Hazırda Azərbaycanın tədarük edə biləcəyi kifayət qədər qaz potensialının olduğunu söyləyən SOCAR-ın birinci vitse-prezidenti qeyd edib ki, hazırkı mərhələdə "Cənub qaz dəhlizi" vasitəsilə nəzərdə tutulan həcmdən əlavə qazın nəqli mümkün deyil: "Əlavə qaz həcmlərinin daşınması üçün dəhlizin ötürücülük qabiliyyətinin artırılması vacibdir. Bu səbəbdən qarşımızda duran əsas məsələlərdən biri "Cənub qaz dəhlizi"nin nəqletmə gücünün artırılmasıdır. Bunun üçün avropalı tərəfdaşlarımızın, alıcılarımızın və beynəlxalq maliyyə qurumlarının dəstəyi önəmlidir. Biz tərəfdaşlarımızla danışıqlar prosesini davam etdiririk. Onu da vurğulamalıyam ki, bu prosesə dərhal başlamaq üçün hazırda əlverişli fürsət mövcuddur".

SOCAR-ın birinci vitse-prezidenti diqqətə çatdırıb ki, son dövrlərdə qlobal miqyasda apstrim layihələrinə investisiya qoyuluşlarında azalmaların müşahidə olunması səbəbindən hazırda beynəlxalq bazarlarda təkliflər tələbi qarşılaya bilmir, buna görə də apstrim və midstrim layihələrinə investisiyaların artırılması zəruridir.

SOCAR-ın 2035-ci ilə qədər olan Korporativ Strategiyasından bəhs edən R.Nəcəf bildirib ki, SOCAR nümunəvi və ən müasir enerji şirkətlərindən birinə çevrilmək məqsədini qarşıya qoyub: "SOCAR olaraq yalnız neft-qaz layihələrinə deyil, həmçinin bərpaolunan enerji mənbələri, quruda və dənizdə külək enerjisi layihələri və digər aşağı emissiyalı sahələrdə potensial bazar imkanlarını nəzərdən keçiririk. Bizim strategiyamız qısa və ya orta müddətli deyil, uzunmüddətli hədəfləri nəzərdə tutur".

O qeyd edib ki, SOCAR öz müəssisələrində rəqəmsal enerji texnologiyalarının tətbiqinə də üstünlük verir və bunu prioritet istiqamət kimi müəyyənləşdirib.

Neft və qaza olan tələbatın bundan sonra da davam edəcəyini söyləyən Rövşən Nəcəf bununla bərabər olaraq, iqlim dəyişikliyi, bərpaolunan enerji məsələlərinin də diqqətdən kənarda saxlanılmamalı olduğunu vurğulayıb. Bildirib ki, enerji istehsalının bərpaolunan mənbələr hesabına artırılması ilə təbii qaz sərfiyyatı azaldıla və beləliklə, qənaət edilən qaz xarici bazarlara ixrac oluna bilər.

Rumıniyanın energetika naziri Virgil Daniel Popesku diqqətə çatdırıb ki, ölkəsi Azərbaycan ilə "yaşıl enerji" sahəsində əməkdaşlıq edə bilər. Bərpaolunan enerji sahəsində istehsal edilən elektrik enerjisinin tədarükü ilə əlaqədar Azərbaycan, Gürcüstan və Avropanı birləşdirən "yaşıl dəhliz" yaratmaq olar. Rumıniya bu istiqamətdə səylər aparmaqda maraqlıdır.

Serbiyanın Baş nazirinin müavini - energetika və mədənçilik sənayesi naziri Zorana Mixayloviç deyib ki, Serbiya Azərbaycanla interkonnektor vasitəsilə qaz tədarükü məsələsini müzakirə edir. Serbiyanın enerji ehtiyatlarından asılılığının azaldılması üçün tədarükün şaxələndirilməsi çox əhəmiyyətlidir.

Türkmənistandan Azərbaycana İran üzərindən il ərzində 1,5 milyard kubmetr qaz nəql ediləcəyini deyən İranın neft naziri Cavad Oici vurğulayıb ki, bu, Azərbaycan, İran və Türkmənistan arasında imzalanan üçtərəfli müqaviləyə əsasən həyata keçiriləcək. İran təbii qazın gündəlik istehsal həcmini 2 milyard kubmetrə çatdırıb, neft hasilatı üzrə bu göstərici 4 milyon bareldir. Gələcəkdə qaz hasilatının 1,4 milyard kubmetrədək azaldılması, xam neft hasilatının isə gündəlik 6 milyon barelə çatdırılması planlaşdırılır.

Moldova Baş nazirinin müavini, infrastruktur və regional inkişaf naziri Andrey Spinu Azərbaycanın həm ənənəvi enerji ehtiyatları, həm də alternativ enerji üzrə böyük potensiala malik olduğunu vurğulayıb: "Enerji ehtiyatları tədarükünün şaxələndirilməsi baxımından Azərbaycan Moldovanın əsas tərəfdaşıdır. Yarımil ərzində Moldovada qazın qiyməti 5 dəfə artıb. Bu da enerji ehtiyatları olmayan Serbiya və Moldova kimi ölkələrə çox ciddi təsir edir".

Sonra digər çıxışçılar qlobal enerji perspektivləri, xalis sıfıra aparan yol, enerji sektorunda az karbonlu gələcəyə keçid üçün kadr potensialı, Xəzər regionunda kəşfiyyat və hasilat imkanları kimi mövzular ətrafında fikirlərini bölüşüblər.

Qeyd edək ki, Bakı Enerji Forumunda yerli və xarici şirkətlərin nümayəndələrinin ünsiyyət qurmasına və mümkün əməkdaşlığın bütün aspektlərini ətraflı müzakirə etməyə imkan verəcək ikitərəfli B2B işgüzar görüşlər də keçirilir. Forum enerji sənayesinin aparıcı nümayəndələri ilə görüşmək, yeni səmərəli və qarşılıqlı əlaqələr qurmaq və mövcud əlaqələri genişləndirmək üçün unikal imkan yaradır.

Forumun möhtəşəm yekunu Qarabağın işğaldan azad edilmiş ərazilərində baş tutacaq. İyunun 4-də Şuşa şəhərində Bakı Enerji Forumunun iştirakçıları ilə sessiya keçiriləcək. Səfər sessiyası "Qarabağ regionunda yaşıl enerjinin potensialı və imkanları" mövzusuna həsr olunub.

Bakı Enerji Forumu Azərbaycan Respublikası Energetika Nazirliyi və SOCAR-ın rəsmi dəstəyi ilə həyata keçirilir.




# Azərbaycan qlobal enerji təhlükəsizliyinin əsas təminatçılarındandır

## İlham Əliyevin yürütdüyü diplomatiya beynəlxalq birlik və böyük güclər tərəfindən təqdir edilir

Bir vaxtlar özünün daxili enerji tələbatını ödəmək gücündə olmayan, yalnız idxal gücünə ayaqda dayanan Azərbaycan indi təkcə mövcud olduğu yox, o cümlədən Avropanın enerji təhlükəsizliyinin təminatında olduqca mühüm rol oynayır və bu, ölkəmizin beynəlxalq birliyin daim xüsusi diqqət mərkəzində qalmasının səbəblərindən biridir.

Həmçinin enerji təhlükəsizliyi təminatında Azərbaycanın rolunun gündən-günə artması ölkəmizlə dünya dövlətlərini, xüsusən də Qərbi bu sferada daha sıx əməkdaşlığa sövq etməkdədir.

Buna əsas səbəb həm enerji ehtiyatları ilə kifayət qədər zəngin olan Azərbaycanın uzun müddət Avropanın enerji tələbatının ödənilməsində vacib rola malik tərəflərdən biri kimi çıxış etməsi, həm də Azərbaycanın iştirakı olmadan Mərkəzi Asiyadan başlayaraq, Qafqazı keçməklə Türkiyə və Avropa istiqamətində uzanan enerji layihələrinin reallaşdırılmasının mümkünsüzlüyüdür.

### ABŞ-dan İlham Əliyevin enerji siyasətinə tam dəstək

Hazırda dünyanın geosiyasi və iqtisadi gündəminin əsas mövzularından birini təşkil edən Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycan əsas açar rolunu oynayan dövlətlərdən biri kimi qəbul olunmaqdadır. Çünki Azərbaycanın iştirakı olmadan bölgədə və geniş mənada yerləşdiyimiz qitədə enerji təhlükəsizliyi məsələləri tam şəkildə həll oluna bilməz. Yəni Azərbaycan qlobal enerji təhlükəsizliyinin əsas təminatçılarındandır. Bunu tərəfdaşlıq etdiyimiz böyük ölkələr də bölüşür.

Azərbaycanın qitədə enerji təhlükəsizliyinin təminatında mühüm rol oynaması ölkə sərhədlərindən kənarda, özü də ən yüksək səviyyələrdə etiraf olunmaqdadır. Məhz elə buna görədir ki, dünyanın hətta ən qüdrətli dövlətləri belə enerji sahəsində Azərbaycanla əməkdaşlığa xüsusi önəm verməklə yanaşı, bundan, sözün əsl mənasında, qürur hissi keçirdiklərini də açıq bildirirlər.

ABŞ dövlət başçısı Cozef Baydenin Bakıda keçirilən Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi ilə bağlı Prezident İlham Əliyevə göndərdiyi məktubda da qeyd olunur ki, enerji təhlükəsizliyi ilə bağlı məqsədlərə çatmaq üçün şaxələndirmə heç vaxt olmadığı qədər əhəmiyyətlidir və Azərbaycan bu məqsədə nail olmaq üçün regional səylərdə əsas rol oynayıb: "Azərbaycan həm də regional və qlobal bazarların sabitləşdirilməsi baxımından trans-Xəzər əməkdaşlığının nəhəng potensialının reallaşdırılmasında mühüm əhəmiyyətə malikdir. Eyni zamanda Azərbaycan "Cənub qaz dəhlizi" vasitəsilə və Ukrayna üçün mühüm olan yanacağı təchiz etməklə də Avropanın enerji təhlükəsizliyinin sabitləşdirilməsinə kömək etməkdə həlledici rol oynayır".

Rəsmi Vaşinqton Azərbaycanın tam potensialına nail olunması, o cümlədən şaxələndirilmiş iqtisadiyyatın təşviqi, bərpaolunan enerji mənbələrinə investisiyaların yatırılması ilə iqlim dəyişikliyinə qarşı mübarizədə qlobal məqsədlərə töhfənin verilməsi, qanunun aliliyi və hesabatlılığın möhkəmləndirilməsi istiqamətində İlham Əliyevin addımlarını alqışlayır və bəyan edir ki, Birləşmiş Ştatlar davamlı tərəfdaşlıq və əməkdaşlığa hər zaman sadiqdir.

### 26 ilin möhtəşəm layihələri Avropanın enerji təhlükəsizliyinin təminatçısıdır

İyunun 1-də "Bakı Enerji Həftəsi" çərçivəsində rəsmi açılış mərasimi keçirilən 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində çıxış edən İlham Əliyev Azərbaycanın enerji siyasəti, hazırkı durum və yeni zamanın tələbi olan alternativ enerjidən istifadə ilə bağlı Azərbaycanın gördüyü işləri, eləcə də hədəflərini açıqlayıb.

Bu bir həqiqətdir ki, Azərbaycan müstəqillik illərində öz enerji təhlükəsizliyinə böyük sərmayə yatırıb, idxalçıdan ixracatçıya çevrilib. 1994-2020-ci illər ərzində Azərbaycan "Əsrin müqaviləsi", Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, üç seqmentli-Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP qaz boru kəmərlərindən ibarət "Cənub qaz dəhlizi" layihələrini reallığa çevirib.

Prezidentin söylədiyi kimi, XXI əsrin boru kəməri olan "Cənub qaz dəhlizi"nə ehtiyac duyulurdu. Bir çox ölkələri keçən, dənizin dibindən tutmuş uca dağ zirvələrinə qədər uzanan 3500 kilometrlik vahid boru kəmərləri sistemi Azərbaycanın qüdrətinin təzahürüdür. Buna görə Azərbaycanın ilkin mərhələdə başlatdığı enerji layihələri regional əməkdaşlıq üçün çərçivə yaradıb və onlar hazırda qlobal enerji layihələrinə çevrilib. Məhz bu layihələri reallaşdırmaqla Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatçılarından biri kimi daha mühüm rol oynamağa çalışır.

"Cənub qaz dəhlizi"nin reallaşması isə Azərbaycana nəhəng "Şahdəniz" qaz-kondensat yatağında hasilatı artırmağa imkan yaradıb. Qısa müddət ərzində Azərbaycan qaz ixracının artırılmasına da müvəffəq olub. Ötən il 22 milyard kubmetr təbii qaz ixrac edən ölkəmiz 2022-ci ildə bu rəqəmi 24 milyard kubmetrə çatdıqmağı planlaşdırır. Onu da vurğulayaq ki, Azərbaycanın qaz potensialı yalnız "Şahdəniz"lə məhdudlaşmır. Gələn il digər yataqlarda da hasilat başlayacaq və təbii ki, bu da enerji təhlükəsizliyinə mühüm töhfə verəcək.

### Qarşıdakı planlar - yenilənən enerji və imkanlardan səmərəli istifadə

Azərbaycanın yeni hədəflərini açıqlayan Prezident bildirdi ki, gündəlikdə duran növbəti plan yenilənən enerjidir və artıq bu sahədə işlər görülür.

Ümumiyyətlə, Azərbaycan zəngin neft-qaz ölkəsi olsa da, gələcəyin enerji təminatını alternativ mənbələrdə görür. Azərbaycanda hələ 2011-ci ildən "Qobustan" Hibrid Elektrik Stansiyası fəaliyyət göstərir.

Onu da vurğulayaq ki, ölkəmiz külək və günəş enerjisinin istehsalı üçün geniş mənbələrə malikdir. Bu da alternativ enerjidən daha geniş istifadə etmək imkanı yaradır. Artıq gündəliyin ön sıralarında olan "Yaşıl gündəlik" də təsdiq edilib və Azərbaycan işğaldan azad edilmiş əraziləri "yaşıl enerji" zonası elan edib. Ölkədə bir neçə su-elektrik stansiyası inşa edilib və onlar hazırda fəaliyyətdədir. Günəş və külək stansiyalarının yaradılması ilə bağlı planlar mövcuddur.

Prezident buna misal olaraq, bu il dünyanın aparıcı enerji şirkətləri olan "ACWA Power" və "Masdar" şirkətləri ilə iki stansiyanın təməlqoyma mərasiminə diqqət çəkərək vurğulayıb ki, hazırda biri günəş, digəri isə külək olmaqla, iki elektrik stansiyası inşa olunur. Onların birgə istehsal gücü 470 meqavatdır. Gələn il bu iki stansiya istifadəyə veriləcək və bu, hələ başlanğıcdır. Azərbaycan artıq yenilənən enerji sahəsində bir çox aparıcı enerji şirkətləri ilə fəal danışıqlar mərhələsindədir.

Göründüyü kimi, həm Xəzər dənizinin nəhəng potensialı, həm də İkinci Qarabağ müharibəsində zəfər nəticəsində işğaldan azad olunan ərazilərin, xüsusilə də Kəlbəcər və Laçının potensialı böyük investorların marağını cəlb etməkdədir. Bütün bunlar isə hökumət tərəfindən ciddi şəkildə nəzərdən keçirilir. Təbii ki, bu proses də Azərbaycana böyük iqtisadi dividend vəd edir. Çünki bərpaolunan enerjiyə nə qədər çox sərmayə qoyularsa, bir o qədər də qaza qənaət ediləcək və Azərbaycandan qaz ixracının artırılmasına səbəb olacaq. Bu, dövlətin əsas hədəflərindən biridir.

Əminliklə söyləyə bilərik ki, İlham Əliyevin enerji diplomatiyası və bu istiqamətdəki bütün layihələri ölkənin iqtisadi potensialını gücləndirir, eləcə də neft-qaz sektorundan əldə edilən gəlirlərin iqtisadiyyatın qeyri-neft sektoruna yönəldilməsinə real imkan yaradır.

Bütün bunlar onu göstərir ki, Azərbaycan enerji ehtiyatlarının ixracı sahəsində ölkənin milli maraqlarına tam cavab verən, həmçinin beynəlxalq sferada mövqeyini və əlaqələrini əhəmiyyətli dərəcədə gücləndirən siyasət həyata keçirir. Məhz bu siyasətin nəticəsi olaraq Azərbaycanla enerji sahəsində əməkdaşlığa daim xüsusi maraq göstərilir və ölkəmizin mövqeyi ilə daha çox hesablaşırlar.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində

# Enerji təhlükəsizliyi və enerji ehtiyatlarının şaxələndirilməsi üzrə dialoq güclənir

**Bakı Ekspo Mərkəzində dünyanın enerji nəhəngləri yenidən bir araya gəliblər. Koronavirus pandemiyasının yaratdığı ikiillik fasilədən sonra "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi daha böyük həvəs və işgüzarlıqla fəaliyyət göstərir. 30 ölkəni təmsil edən 249 şirkətin bir-birindən maraqlı və məlumat baxımından zəngin stend və ekspozisiyaları istər iştirakçıların, istərsə də ziyarətçilərin diqqət mərkəzindədir.**




Hamı tədbirin açılışında Prezident İlham Əliyevin iştirak etməsindən və buradakı çıxışından məmnunluğunu bildirir. Sərginin "veteran"ları vurğulayırlar ki, Prezident hər il tədbirə belə yüksək dəyər verir. Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin Ulu Öndər Heydər Əliyevin yadigarı olduğu da dönə-dönə xatırlanır. Belə ki, bu tədbir ilk dəfə 1994-cü ildə, "Əsrin müqaviləsi"nin imzalanması ərəfəsində Ümummilli Liderin səyi və təşkilatçılığı sayəsində keçirilib. Dövlət başçısının bu il iyunun 1-də Bakı Ekspo Mərkəzindəki çıxışında dediyi kimi: "Artıq 27-ci dəfədir keçirilən Xəzər Neft və Qaz Sərgi və Konfransı qlobal enerji şirkətlərinin o vaxt müstəqilliyini yenicə qazanmış, bir çox çətinliklərlə üzləşmiş, ərazisinin əhəmiyyətli hissəsi işğal olunmuş və bir çox çağırışlarla üzləşmiş Azərbaycana diqqətinin cəlb edilməsində çox əhəmiyyətli rol oynayıb".





Ulu Öndərin çox dəyərli yadigarlarından biri də onun adını şərəflə daşıyan Bakı Dərin Özüllər Zavodudur. Bu zavodun istehsalat sahələrində neçə illərdir əsl xarüqələr yaradan BOS ŞELF şirkətinin sərgidəki pavilyonuna yaxınlaşırıq. Qeyd edək ki, şirkət neft-qaz sərgilərinin daimi iştirakçılarındandır və burada deməyə həmişə sözü olur. Kommersiya məsələləri üzrə mütəxəssis Aygün Nəsibova bildirir ki, müəssisədə indi də qızğın iş gedir. İşlər "Qarabağ, "Abşeron" yataqları, "Azəri Mərkəzi Şərqi" və digər layihələr üçün dəniz qurğularının tikintisini əhatə edir.

BOS ŞELF-in nümayəndələri sərginin yüksək səviyyədə təşkilindən də çox razı qaldıqlarını deyirlər. İstər yerli, istərsə xarici şirkərlərin onların müəssisəsinə maraq göstərməsinin bir səbəbini də bununla izah edirlər.

Xatırladaq ki, Xəzər Neft və Qaz Sərgisi ilə eyni vaxtda və eyni məkanda 10-cu yubiley Xəzər Beynəlxalq Energetika və Bərpaolunan Enerjisi sərgisi də keçirilir. Odur ki, iştirakçılar geniş çərçivədə təmsil olunurlar. Məsələn, Belarusun Nəqliyyat Kompleksinin təqdim etdiyi ekspozisiyalarda Minsk vaqon təmiri və Qomel vaqon tikintisi zavodları, eləcə də həmin respublikanın "Dəmiryollayihə" institutu və gəmiçilik idarəsi öz əksini tapıb. Bunların hər biri zəngin təcrübəyə malik müəssisə və birliklərdir, öz səriştələrinə güvənli olduqları üçün tərəfdaşlar axtarırlar və bunun üçün bir məkan kimi sözügedən sərgiləri seçdiklərindən razıdırlar.










140 illik tarixə malik Minsk vaqon təmiri zavodu direktorunun istehsalat üzrə müavini Valeri Qradov bunları bildirməklə yanaşı, ilk dəfə gördüyü Bakıya, xüsusilə Dənizkənarı Milli Parka valeh olduğunu deyir: "Elə sərgimizin keçirildiyi bu mərkəzin özü də çox gözəldir. Həm zahiri ilə diqqəti cəlb edir, həm də daxilində ən möhtəşəm tədbirlərin təşkili, tərtibat işləri üçün şərait var".

"Bakı Enerji Həftəsi" dünyanın diqqət mərkəzindədir. Sərgilərdə və konfransda iştirak etmək üçün müxtəlif ölkələrdən yüksək vəzifəli şəxslər gəlib. Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydenin Prezident İlham Əliyevə ünvanladığı məktub isə təkcə bu tədbirin statusunu vurğulamaq deyil, həm də Azərbaycanın, dövlətimizin başçısının nüfuzunun, həyata keçirdiyimiz layihələrin dəyərinin göstəricisidir.

Dünyaya səs salan layihələrimizi isə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) bp, "Türkiye Petrolleri", "Equinor", "Total" və bir sıra digər tanınmış şirkətlərlə tərəfdaşlıqda gerçəkləşdirib. Təsadüfi deyil ki, bu şirkətlər "Bakı Enerji Həftəsi"nin dəstəkçisi və sponsorları sırasındadırlar. Bakı Ekspo Mərkəzində eyni zamanda onların geniş ekspozisiyalarını görürük. Səudiyyə Ərəbistanının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətlərinin tədbirdə geniş təmsil olunması isə ölkəmizdə bərpaolunan enerjiyə verilən önəmdən irəli gəlir.

Ümumiyyətlə, sərgilərdə debütünü edən şirkətlər çoxdur. Bunlardan biri də Almaniyanın "FLEXİM" şirkətidir. Şirkətin 30 yaşı var və onun 15 ölkədə ofisləri, bir çox yerlərdə isə distribüterləri fəaliyyət göstərir. Bundan əvvəlki sərgilərdə şirkətin məhsulları - suyun, neftin və qazın sərfiyyatını göstərən nəzarət-ölçü cihazları başqa müəssisələr tərəfindən təqdim olunub. Özünə yeni distribüterlər axtaran şirkət bu dəfə sərgiyə özü gəlib. Ən maraqlısı isə budur ki, Almaniya şirkətini təmsil edənlərdən biri Berlində yaşayan soydaşımız İntiqam Ağamuradovdur. O, "FLEXİM"də satış üzrə mühəndis vəzifəsində çalışır. Soydaşımız əmindir ki, sərgi onların əməkdaşlıq və tətəfdaşlıq əlaqələrinin genişlənməsinə təkan verəcək.

Təkcə iştirakçıların deyil, ziyarətçilərin də bu tədbirlərdən gözləntisi çoxdur. SOCAR-ın METANOL zavodunun növbə rəisi, Vətən müharibəsinin iştirakçısı Taleh Məmmədov deyir ki, buraya çalışdığı sahənin ən son yeniliklərindən xəbər tutmaq, müxtəlif şirkətlərin təcrübəsi ilə tanış olmaq, ixtisası üzrə bilgilərini artırmaq məqsədilə gəlib.

Ziyarətçilər arasında diqqətimizi bir dəstə gənc də cəlb edir. Onlar hər stendin qarşısında dayanır, gördükləri barədə fikirlərini bir-biri ilə bölüşürlər. Öyrənirik ki, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin tələbələridir. Qaz, neft, mədən fakultəsində logistika üzrə təhsil alan İbrahim Yasinov deyir ki, sərgidə onları maraqlandıran çox məlumatlar var. Röya Musazadə isə bildirir ki, ən çox yerli şirkətlərin işi ilə maraqlanırlar: "Baxdıqca arzularımız qanad açır. Nə vaxtsa bu şirkətlərdə işləyəcəyimizi düşünürük".

Biz isə arzulayaq ki, növbəti sərgilərdə bu gəncləri ziyarətçi kimi yox, iştirakçı kimi görək.

*Flora SADIQLI,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*







# Erməni vandalizminin izi ilə...



## Qarabağa və Şərqi Zəngəzura səfər edən diplomatlar da işğalçının bu ərazilərdə törətdiyi barbarlıqlardan dəhşətə gəldilər

Azərbaycan işğal altında olan torpaqlarını mənfur düşməndən azad etdikdən dərhal sonra həmin ərazilərə müxtəlif ölkələrdən olan diplomatların, media, ictimaiyyət nümayəndələrinin səfərləri təşkil edildi. Beləliklə, barbar xislətli ermənilərin Qarabağda və Şərqi Zəngəzurda 30 il ərzində törətdiyi vandallıqlara beynəlxalq aləmin də əyani şahid olmasına şərait yarandı. Faşist ideologiyalı ermənilərin təkcə insanlarımızın deyil, təbiətimizin, tarixi, mədəni, dini irsimizin də qəniminə çevrildiyini öz gözləri ilə görmələrinə zəmin yarandı. Və bütün dünya bir daha gördü ki, illərdir Azərbaycan xalqı necə qaniçən, qəddar, vəhşi bir düşmənlə qarşı-qarşıya idi...

### Məgər nəcib xalq belə hərəkət edə bilərmi!?

İşğaldan azad edilən torpaqlarımıza səfər edən hər bir şəxs, o cümlədən beynəlxalq ictimaiyyətin nümayəndələri bu ərazilərdəki dağıntıların, talanın, təbiətə vurulan zərərin miqyasını gördükdə dəhşətə gəlirlər. Onların ermənilərin törətdikləri bu insanlıqdan uzaq vəhşiliyi ifadə etməyə söz tapmaqda belə çətinlik çəkirlər. Halbuki erməni barbarları hər zaman özlərini dünyaya "sivil", "qədim", "nəcib" xalq kimi sırımağa cəhd edir, bu barədə sadəcə özlərinin inandıqları nağılları uydururdular.

Amma Prezident İlham Əliyevin də dəfələrlə müsahibələrində vurğuladığı kimi, erməni vandallarının "nəcib xalq" olma iddiaları ilə vəhşi əməlləri qətiyyən üst-üstə düşmür: "Məgər nəcib xalq belə hərəkət edə bilərmi? Ölüləri qəbirdən çıxarıb onların qızıl dişlərini çıxartmaq, qəbirüstü daşları sındırıb qonşu ölkələrə satmağa aparmaq, məscidləri dağıtmaq, orada donuz saxlamaq. Biz bütün bunları göstərdik, hərçənd heç nə göstərməyə ehtiyac yox idi, sadəcə adamların oraya gəlməsi lazım idi ki, özləri baxıb görsünlər".

### İşğaldan azad olunmuş ərazilərə tanışlıq səfərləri

Zəfərlə bitən haqq savaşımızdan sonra Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun, o cümlədən xarici ölkələrin səfirlərinin, hərbi attaşelərin, beynəlxalq təşkilatların nümayəndəliklərinin rəhbərlərinin də azad torpaqlarımıza mütəmadi səfərləri təşkil olunur. Prezident İlham Əliyevin tapşırığına əsasən, xarici diplomatik korpusun işğaldan azad olunmuş ərazilərə tanışlıq səfərlərinin davamlı şəkildə həyata keçirilməsinin özü də Azərbaycanın bu ərazilərdə gerçəkləşdirdiyi irimiqyaslı layihələrin, quruculuq-bərpa işlərinin, o cümlədən erməni vəhşiliyi ilə üz-üzə qalan, başdan-başa talan olunan yurdlarımızla beynəlxalq aləmin tanışlığı məqsədini daşıyır.

Ötən il fevralın 6-da Ermənistan silahlı qüvvələrinin Azərbaycanın qədim yurd yerlərində törətdiyi vəhşiliklər və cinayət izləri ilə tanış olmaq üçün Azərbaycanda fəaliyyət göstərən səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri işğaldan azad olunmuş Cəbrayıl və Zəngilan rayonlarına səfər etmişdilər. Səfirlər əvvəlcə Cocuq Mərcanlıda olmuş, kənd barədə ətraflı məlumat almışdılar. Daha sonra Cəbrayıl şəhərinə yollanaraq orada dağıdılmış qəbiristanlıqları və erməni vəhşiliyinə məruz qalmış digər əraziləri öz gözləri ilə görmüşdülər. Cəbrayılda qədim Xudafərin körpüsündə olan səfər iştirakçıları daha sonra Zəngilandakı erməni barbarlığına şahidlik etmiş, dağıdılmış şəhər məscidinə baş çəkmişdilər.

Həmin il iyulun 9-da isə Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun və beynəlxalq təşkilatların, ümumilikdə 100-dən çox xarici diplomatik nümayəndənin Şuşa şəhərinə səfəri təşkil olunmuşdu. Səfərdə Türkiyə, Pakistan, İtaliya, Avstriya, İsveç, Polşa, İsrail, Çin, Yaponiya, Malayziya, Cənubi Koreya, Belarus, Ukrayna, Braziliya, Meksika, Səudiyyə Ərəbistanı, Qətər, Əlcəzair və digər ölkələrin səfirləri, həmçinin BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının, Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələri də iştirak etmişdilər. Səfərin məqsədi xarici diplomatları Şuşa şəhərində həyata keçirilən bərpa və yenidənqurma işləri, Şuşa şəhərinin orijinal memarlıq üslubu və Azərbaycan xalqının milli-mədəni irsi ilə tanış etmək idi.

Ümumiyyətlə, ötən il Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun işğaldan azad olunmuş ərazilərə, o cümlədən Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın rayonlarına səfərləri təşkil olunmuşdu. Diplomatlar işğal dövründə erməni vandalizminin nəticələri və həyata keçirilməsinə başlanmış bərpa və yenidənqurma işləri ilə tanış olmuşdular.

### Qafqazın Xirosiması kimi tanınan Ağdam yenidən qurulur

Cari ildə də Qarabağ və Şərqi Zəngəzura bu qəbildən olan səfərlər davamlı olaraq təşkil olunur. Aprelin 29-da Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun rəhbərlərinin, o cümlədən xarici ölkələrin səfirlərinin, beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin əməkdaşlarının işğaldan azad olunmuş Ağdam şəhərinə növbəti səfəri təşkil olundu.

Səfər zamanı ermənilərin dini abidələrimizi təhqir etməsi, məscidlərdə heyvan saxlaması, qəbiristanlıqları dağıtması kimi faktlar qonaqların diqqətinə çatdırılıb, Ermənistan tərəfindən ərazilərin minalarla çirkləndirilməsi, bu istiqamətdə aparılan təmizləmə işləri barədə məlumat verilib. Qonaqlar işğaldan azad olunan torpaqlarda, o cümlədən Ağdamda aparılan geniş tikinti-quruculuq işləri barədə də məlumatlandırılıblar.

Diplomatlara Ağdam şəhərinin Baş planı çərçivəsində həyata keçiriləcək quruculuq işləri barədə də ətraflı məlumat verilib. Onlar Ağdam şəhəri üçün yeni məscid nümunələri, bina tipologiyaları və şəhərətrafı obyektlər, yol-nəqliyyat infrastrukturu ilə də tanış olublar. Diqqətə çatdırılıb ki, Qafqazın Xirosiması kimi tanınan Ağdam Azərbaycan Prezidentinin və hökumətinin təşəbbüsü ilə regionun ən gözəl şəhərlərindən birinə çevriləcək, doğma yurdlarından 30 il ayrı düşmüş insanların öz yurdlarına təhlükəsiz şəraitdə qayıdışı təmin ediləcək.

### Erməni barbarlığının Kəlbəcərdəki təzahürü

Mayın 31-də isə Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun, o cümlədən xarici ölkələrin səfirlərinin, hərbi attaşelərinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin rəhbərlərinin, ümumilikdə 50-dən artıq ölkədən 80-dən çox şəxsin azad olunmuş Kəlbəcər rayonuna səfəri təşkil edildi.

Səfərin məqsədi diplomatları ermənilər tərəfindən Kəlbəcər rayonunda törədilmiş dağıntıları, vəhşilikləri, xüsusilə onların həmin ərazilərdən çıxdığı dövrdə məqsədli şəkildə yaratdıqları problemləri diplomatik korpusun nümayəndələrinin diqqətinə çatdırmaq olub. Qonaqlara ermənilərin dini abidələrimizi təhqir etməsi ilə bağlı məlumat verilib. Diplomatik korpusun nümayəndələri eyni zamanda Kəlbəcər rayonunda həyata keçirilən nəqliyyat və enerji infrastrukturu layihələri, o cümlədən yol, tunel tikintisi, enerji xətlərinin çəkilişi və sair barədə məlumatlandırılıb.

Səfər çərçivəsində xarici diplomatlar Kəlbəcər rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı "Tunel qırğını"nın törədildiyi Kəlbəcər-Laçın tunelində olublar. Qonaqlara bu ərazidə törədilmiş qətliamlar barədə məlumat verilib və bu qırğının rayonun 36 kəndini birləşdirən yeganə avtomobil yolunu ələ keçirmək, Kəlbəcəri mühasirədə saxlamaq məqsədilə törədildiyi bildirilib. Eyni zamanda 1993-cü il aprelin 18-də Kəlbəcərin Başlıbel kəndində Ermənistan hərbçilərinin silahsız mülki şəxslərə qarşı həyata keçirdiyi qətliam barədə ətraflı məlumat verilib.

Qonaqlar Kəlbəcər şəhərində erməni vəhşiliyi nəticəsində yerlə-yeksan edilən infrastrukturla tanış olublar. Məscid, Bayraq meydanı, tarixi-diyarşünaslıq muzeyi, qədim daş heykəllər və şahmat məktəbinin binasının dağıntılarının şahidi olan diplomatlara şəhərin tarixi, dağıdılmış binaları barədə məlumat verilib, erməni işğalından əvvəl çəkilmiş şəkillər göstərilib.

Səfər iştirakçıları "İstisu" sanatoriyasına da baş çəkiblər. Onlara erməni vandalları tərəfindən təbii sərvətlərin də istismar edildiyi bildirilib.

### Azərbaycanın haqq zəfəri bölgədə əbədi sülhü bərqərar etdi

Bəli, Vətən müharibəsi təkcə Azərbaycanın tarixi, hüquqi, siyasi haqlılığının qələbəsi olmadı, həm də erməni vəhşiliyinin tam çılpaqlığı ilə dünyanın gözləri önünə sərilməsinə, onların barbarlıqlarının beynəlxalq ictimaiyyətin də görüb, anlayıb haqlı olduğumuza şərait yaratdı.

Bu da faktdır ki, illərdir Azərbaycan işğal altında olan torpaqlarında ermən mənfurlarının törətdiyi vəhşilikləri bütün beynəlxalq kürsülərdən dünyaya çatdırırdı. Lakin bəzi qərəzli beynəlxalq qurumlar inadla erməni vandalizmini görməzdən gəlir, hətta ört-basdır etməyə çalışırdılar.

Hazırda isə vəziyyət tamamilə dəyişib və bütün aləm Qarabağda, Şərqi Zəngəzurda törədilən vəhşiliklərin fonunda faşist xislətli ermənilərin əsl çirkin simalarını görür.

İndi dünya da erməni vandallığını pisləyir. Erməni vəhşiliyi ilə bağlı bu reallıqların dünyada qəbul edilməsinə şərait yaradan əsas amillərdən biri isə beynəlxalq ictimaiyyət, diplomatik korpus nümayəndələrinin Qarabağa və Şərqi Zəngəzura səfər edərək bu vəhşiliklərlə yerindəcə tanış olması, murdar erməni xislətini görmələri ilə bağlıdır.

Eyni zamanda işğaldan azad edilən yurdlarımıza səfər edən xarici ölkə nümayəndələri dövlətimizin dağıntıya məruz qalan yurdlarımızda həyata keçirdiyi sürətli bərpa-quruculuq işlərini, erməni vandalizminə məruz qalan maddi-mədəni irsimizə məxsus tarixi-dini abidələrimizin Heydər Əliyev Fondu tərəfindən bərpası prosesində göstərdiyi əzmi təqdir edirlər.

Bir sözlə, səfər iştirakçıları Azərbaycanın haqq və ədalət zəfərinin Cənubi Qafqazda əbədi sülhü bərqərar etdiyinin əyani şahidi olurlar.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# İnsan kapitalı - parlaq gələcəyin təminatı

Prezident İlham Əliyev ölkəmizə rəhbərliyinin ilk illərindən Azərbaycanın mövcud təbii resurslarının insan kapitalına çevrilməsi zərurətini əsas prioritetlərdən biri kimi irəli sürüb.



Müəyyən edilmiş inkişaf hədəfləri, qəbul olunmuş qərarlar, həyata keçirilən strateji layihələr bu prioritetə uyğunlaşdırılır. Dövlətimiz rəqabətli insan kapitalının formalaşdırılmasını qloballaşma dövrünün əsas vəzifələrindən biri kimi görür və bu istiqamətdə ardıcıl addımlar atır.

Mayın 26-29-da Bakıda keçirilən və Azərbaycan-Türkiyə birgəliyinin daha bir nümunəsi kimi tarixə yazılan "TEKNOFEST-Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı da bütün digər cəhətləri ilə yanaşı, eyni zamanda insan kapitalının, elmə, texnologiyalara qoyulan sərmayələrin gücünün nümayişi idi. Belə tədbirlər müasir dünyamızın çağırışlarına uyğun bilik və bacarıqların fərdlər, cəmiyyətlər, dövlətlər və ümumən bəşəriyyət üçün nə qədər böyük əhəmiyyət kəsb etdiyini göstərir. Xüsusilə gənc nəslin texnologiyalara marağını artırır, onlar üçün öz yaradıcı ideyalarını reallaşdırmaqda böyük fürsətlər yaradır.

### Yeni keyfiyyət amili

Dövlət rəhbərimiz hələ illər əvvəl insan kapitalı məsələsini irəli sürərkən müasir dünyamızın əsas çağırışını diqqətə çatdırmış, cəmiyyətin bu prioritet ətrafında səfərbər olunmasının vacibliyini aktuallaşdırmış və bildirmişdir ki, bu məqsəd ölkəmizdəki inkişaf proseslərinin aparıcı istiqamətlərindən olacaqdır. Prezident İlham Əliyev demişdir: "Müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır. Hər bir dövləti rifah və yüksəlişə aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir…". Dövlət rəhbərimizin bu fikri "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də öz əksini tapıb.

Milli prioritetlərin 3-cü hissəsi "Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı"nın yaradılmasına həsr edilib. Azərbaycan dövləti bunu növbəti onillikdə qarşıda duran əsas vəzifələrdən biri kimi müəyyənləşdirib. Belə bir məqsəd müasir dövrdə dünya iqtisadiyyatında müşahidə olunan misilsiz texnoloji dəyişikliklərdən və həmin dəyişikliklərin ölkələrarası rəqabətə son dərəcə güclü təsirindən irəli gəlir. 4-cü Sənaye İnqilabı artıq bütün Yer kürəsini əhatə edir. Heç bir region onun müsbət mənada təsir dairəsindən kənarda qala bilmir. Əgər əvvəllər dünyanın müxtəlif ölkələrində tədqiqatçılar aylarla, illərlə hansısa elmi ideyalar üzərində axtarışlar aparırdılarsa, ideyaların paylaşımı, birgə həllərin tapılması indi an məsələsidir. Müasir dünyanın reallıqları sabitlikdən daha çox daimi dəyişkənliyə, təkbaşına fəaliyyətə deyil, faydalı tərəfdaşlıq və konstruktiv əməkdaşlığa, hər hansı maddi formalara deyil, texnoloji üstünlüklərə əsaslanır. Mütəxəssislər bildirirlər ki, son yüz il ərzində bir-birinə bənzər məhsullar istehsal edən fabriklərdən fərqli olaraq, müasir dünyamızın şirkətləri öz xidmətlərini hər bir fərdin istəklərinə uyğunlaşdırmağa çalışır. Fərdi yanaşmalar kütləvi istehsalı əvəz edir. İntellektual sərmayə ən müxtəlif sahələrdə nailiyyət qazanmağın əsas meyarına çevrilir. Müəssisələrin, ayrı-ayrı qurumların müasir dövrün proseslərini anlamağa, insanların ehtiyaclarını, gözləntilərini başa düşməyə qabil istedadları, yüksək hazırlıqlı kadrları cəlb etməsi get-gedə daha böyük zərurətə çevrilir. Yeniliklərə sürətlə uyğunlaşma məsələsi daim dəyişən əmək bazarında özünə yer tutmaq və həm də yüksək rəqabətə davam gətirmək üçün indi əsas şərtdir. Bu da insan kapitalı məsələsini həm Azərbaycan, həm də ümumilikdə dünya üçün aktuallaşdırır.

### Qara qızıl insan kapitalına çevrilir

Müasir dünyamızda ən qiymətli sərvət ayrı-ayrı insanlara məxsus əqli mülkiyyət, intellektual sərmayə, bilik və bacarıqlardır. İnsan kapitalı daşınan sərvətdir. İnsan öz bilik və bacarıqlarını özü ilə bir məkandan digərinə daşıyır, öz potensialını uyğun yerlərdə, şəraitlərdə reallaşdırır.

Bütün bu qeyd edilənlər 4-cü Sənaye İnqilabının dünyada yaratdığı vəziyyətdir. Bu yeni növ rəqabətə hazır olmaqdan ötrü hər bir ölkənin yüksəkrəqabətli insan kapitalını formalaşdırması mütləqdir. Bunun üçün müasir təhsilin, innovasiyaları təşviq edən ekosistemin və insanların sağlamlığının təmin olunması əsas şərt kimi qəbul olunur. Bu mənada Azərbaycan Prezidenti İlham Əliyev hələ illər əvvəl irəli sürdüyü "Qara qızılı insan kapitalına çevirək" tezisi ilə kreativliyə, yaradıcılığa, yenilikçiliyə ən böyük dəstəyini, 2020-ci il pandemiya dövründə dəfələrlə səsləndirdiyi "bizim üçün birinci məsələ insanların həyatı, onların sağlamlığıdır" fikrilə isə iqtisadi inkişafımızın əsas hərəkətverici qüvvəsi olan insana verilən dəyəri ifadə etmişdir.

Bu gün Azərbaycan dövləti ölkəmizdə insan kapitalının inkişafını stimullaşdırmaq məqsədilə bir sıra tədbirlər həyata keçirməkdədir. Real sektorun tələbinə uyğun kadr hazırlığının aparılması, təhsil sistemində islahatlar burada mühüm yer tutur.

Ümumiyyətlə, bəşəriyyət tarixi elm və təhsilin bütün dövrlərdə hər bir dövlətin davamlı sosial-iqtisadi və mədəni yüksəlişində mühüm rol oynadığını göstərir. Yeni dövrün tələblərinə cavab verən təhsil sisteminin qurulması, mütərəqqi yeniliklərin tətbiqi yolu ilə milli təhsil sisteminin müasirləşdirilməsi, bu sahədə özünü göstərən obyektiv problemlərin aradan qaldırılması son onilliklərdə Azərbaycanda reallaşdırılan dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Ulu Öndər Heydər Əliyev Azərbaycanın davamlı inkişafının yeganə yolunu məhz yüksək təhsildə, xalqın maariflənməsində görür, respublikada fundamental və humanitar elmlərin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirirdi.

Prezident İlham Əliyev də ölkəmizə rəhbərliyi dövründə bu istiqamətdə bir sıra tarixi qərarlara imza atmışdır. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı", "Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" və digər bu kimi fundamental sənədlər ölkəmizdə təhsilin inkişafına və son nəticədə insan kapitalının yüksəlişinə xidmət edir. Azərbaycanda müasir dünyanın çağırışlarına uyğun universitetlər yaradılır. Məsələn, son illər regionun kifayət qədər nüfuzlu ali təhsil ocaqlarından birinə çevrilmiş ADA-nın fəaliyyəti buna bir sübutdur. Azərbaycanda böyük elm-təhsil ənənələrinə malik Fransa, İtaliya, Rusiya kimi ölkələrlə birgə universitetlərin yaradılması, müxtəlif ali məktəblərdə tanınmış universitetlərlə müştərək təhsil proqramlarının tətbiqi xoş bir ənənəyə çevrilib. Eyni zamanda ölkəmizdəki mövcud universitetlərin rəqabət qabiliyyəti yüksəlir. Onlar dünya reytinqlərində öz yerini tutmağa başlayır. Bütün bunlar insan kapitalının formalaşması üçün son dərəcə mühümdür. Çünki insan kapitalının formalaşmasında, intellektual sərmayə mühitinin yaranmasında ali məktəblərin rolu çox böyükdür.

Azərbaycanda təhsilin maliyyələşdirilməsi sahəsində dövlət vəsaitləri ilə yanaşı, özəl sektorun da payının artırılması üçün lazımi addımlar atılır. Məktəbəqədər müəssisələrin inkişafı ilə bağlı işlər görülür. Eləcə də ali təhsilin daha böyük əhali qrupu üçün əlçatanlığının təmin edilməsi məqsədilə dövlət hesabına təhsil müəssisələrinin sayı çoxaldılır. Universitetlərdə tədris edilən bir sıra ixtisaslar əmək bazarının tələblərinə uyğunlaşdırılır. Həmçinin vətəndaşlara təhsil kreditlərindən istifadə imkanları yaradılır.

### İnnovasiyalar mühiti

İnsan kapitalı deyərkən ilk yada düşən amillərdən biri, təbii ki, innovasiyalardır. İnnovasiyalar hər bir ölkədə iqtisadi inkişafın hərəkətverici qüvvəsi rolunda çıxış edir. Bu, tarixin bütün dövrlərində belə olub. Müasir mərhələdə isə innovasiyalara daha böyük maraq var. Bu da onunla bağlıdır ki, 4-cü Sənaye İnqilabının iqtisadi rəqabət qaydaları xeyli fərqlidir. Ölkələrin, şirkətlərin öz rəqabət güclərini daim qorumalarına ehtiyac var. Bu isə ancaq yeniliklərə çevik şəkildə uyğunlaşmaqla, bütün formalarda innovasiyaların ön mövqelərində irəliləməklə mümkün ola bilər. Azərbaycan dövləti də buna çalışır. Bu istiqamətdə ardıcıl addımlar atılır, müxtəlif innovasiya mərkəzləri yaradılır. Yaradıcı gənclərin öz ideyalarını, bilik və bacarıqlarını həyata keçirmələrinə dəstək verilir. İnnovasiyalara dəstək sahəsində özəl sektorun da payı getdikcə artır. Müxtəlif şirkətlərdə innovasiya mərkəzləri fəaliyyət göstərir. Azərbaycanda biznes və investisiya mühitinin yaxşılaşdırılması, kiçik və orta sahibkarlığın inkişafının təmin edilməsi dolayısı ilə innovasiyalara da marağı artırır. Bütün bunlar isə cəmiyyətimizdə insan kapitalının inkişafına xidmət edir.

Azərbaycan Prezidentinin 26 iyul 2019-cu il tarixli sərəncamı ilə təsis olunmuş və intellektual səviyyəsi, idarəçilik keyfiyyətləri yüksək olan rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi, ölkədə kadr ehtiyatı bankının yaradılması məqsədilə keçirilən "Yüksəliş" müsabiqəsinin əsas məqsədi də insan kapitalının formalaşmasına, inkişafına, cəmiyyətdə insan kapitalının aparıcı qüvvəsi rolunda çıxış edən gənc istedadlara dəstəkdir.

Bu müsabiqə zamanın çağırışlarına cavab olaraq kadr ehtiyatının zənginləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində atılmış mühüm addımlardandır. "Yüksəliş" müsabiqəsi də insan kapitalının inkişaf etdirilməsinin dövlətimiz üçün nə qədər mühüm əhəmiyyət kəsb etdiyini göstərir. Ölkəmizdə yüksək intellektə malik insan kapitalının formalaşması və inkişafına, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin olunmasına, müxtəlif sahələrdə qazanılmış qabaqcıl dünya təcrübəsinin tətbiqi ilə fərdi potensialların üzə çıxarılmasına yaradılan bərabər imkanları təcəssüm etdirir.

### Dayanıqlı inkişaf

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrin də insan kapitalının inkişafında çox böyük rolu var. Mehriban xanım uğurla reallaşdırdığı layihələrlə Azərbaycanda və dünyada təhsili, mədəniyyəti, intellektual sərmayəni təbliğ edir. İnsanları ömür boyu savadlanmağa, müasir dünyanın tələb etdiyi bilik və bacarıqlara yiyələnərək əmək bazarında layiqli yerini tutmağa çağırır.

Mehriban xanım Əliyeva qeyd edir ki, müasir dövrdə hər bir fəaliyyət sahəsində yeni ideya və baxışlar tələb edilməklə yanaşı, elmi biliklərə əsaslanan bacarıq və vərdişlərə malik kadr ehtiyatlarının mövcudluğu vacib şərtlərdən biridir. "İnsan kapitalının inkişaf etdirilməsi bizim üçün həmişə ciddi qəbul edilən prioritet məsələ olmuş və olmaqda davam edir. Ölkəmizdə yüksək intellektə malik insan kapitalının formalaşması və inkişafına, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsinə, müxtəlif sahələrdə qazanılmış qabaqcıl dünya təcrübəsini tətbiq edərək onun potensialının üzə çıxarılmasına hər zaman xüsusi diqqət yetirilib".

### Elmə dəstək

İnsan kapitalının inkişafında əsas yerdə elm durur. Buna görə fundamental və tətbiqi elmlərin inkişafına xüsusi qayğı göstərilir. Müstəqil Azərbaycan dövlətinin inkişafının elmin, elmi-texniki tərəqqinin və təhsilin səviyyəsindən əhəmiyyətli dərəcədə asılı olduğuna hər zaman diqqət çəkən Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, bütün bunlar yüksək ixtisaslı insan resursları, yeni elmi yanaşmalar və çevik innovasiya fəallığı tələb edir və müasir dünyanın reallıqları Azərbaycan elmi qarşısında tamamilə yeni vəzifələr qoyur.

Azərbaycanda son onilliklər ərzində elmin maliyyələşdirilməsi sistemində islahatların aparılması və sistemin təkmilləşdirilməsi istiqamətində çox işlər görülmüşdür. Elmin maliyyələşdirilməsi üçün müvafiq fondlar yaradılmışdır. Ölkəmizdə təbiət, texniki, humanitar və ictimai elmlər sahəsində dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən fundamental, tətbiqi və axtarış-innovasiya xarakterli elmi tədqiqat proqramları və layihələr qrant şəklində maliyyələşdirilir, alimlərin elmi fəaliyyətini stimullaşdırmaq və onlara azad yaradıcılıq imkanı yaratmaq, habelə elmi müəssisələrin fəaliyyətinin təkmilləşməsini nəzərdə tutan və dəstəkləyən tədbirləri həyata keçirmək yolu ilə elmi-texniki potensial qorunaraq inkişaf etdirilir.

Azərbaycan dövləti elm və təhsilə daha çox investisiya qoymaqla dayanıqlı inkişaf mühiti yaradır. Ölkəmizin beynəlxalq rəqabətliliyi üçün möhkəm təməllər formalaşdırılır. Buna görə təkcə dövlətin deyil, cəmiyyətin hər bir fərdini özünü ölkənin ən böyük kapitalı kimi dəyərləndirməyə, öz potensialını ona qoyulan investisiyalarla daim artıraraq tam gücü ilə istifadə etməyə ruhlandırır.

Ölkəmizin son illər bu istiqamətdə qazandığı nailiyyətlər, "qara qızıl"ı, yəni ölkəmizin əsas təbii sərvətlərindən olan nefti insan kapitalına çevirmək əzmi beynəlxalq hesabatlarda da yüksək qiymətləndirilir. Davos Ümumdünya İqtisadi Forumunun hesabatına əsasən, xeyli göstəricilərə görə Azərbaycanın dünya miqyasında ön sıralarda qərarlaşması buna bir nümunədir.

### Lider baxışı

"Bilik olmalıdır. Çünki indi yeni peşələr açılır. Əvvəlki peşələrin bir çoxu sıradan çıxır. Artıq 20 il bundan əvvəl olan bəzi peşələr yoxdur və olmayacaq da. Bu proses getdikcə gedəcək, biz 4-cü industrial inqilab içərisindəyik. Artıq bilinir ki, hansı peşələr 5 ildən sonra olmayacaq. Amma biz əhalisi artan ölkəyik. Sovet dövründəki 7 milyondan 10 milyona çatıb bizim əhalimiz. Ona görə biz o yeni peşələri gərək mənimsəyək. Gərək imkan yaradaq bizim vətəndaşlara ki, o peşələrə onlar yiyələnsinlər. Ona görə bu sahədə həm müəllimlərin üzərinə böyük vəzifə düşür, həm də tələbələr daim çalışmalıdırlar. Bilik, savad - onların yaxşı gələcəyini, təminatlı gələcəyini müəyyən edən budur" - dövlət rəhbərimiz İlham Əliyev indi bunu Azərbaycan gəncliyinə əsas tövsiyələrindən biri kimi irəli sürür. Eyni zamanda gənclərimizi vətənpərvər olmağa, milli-mənəvi dəyərlərimizi unutmamağa səsləyir. Bu, gələcəyi aydın görən liderin baxışıdır. İnsan kapitalı, intellekual sərmayə, bilik və bacarıqların gücü vətənə, yurda sevgi, dəyərlərimizə hörmət hissi ilə birləşəndə Azərbaycan daha da qüdrətli, sarsılmaz olur.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*











# SUMQAYIT - yüksəliş və quruculuq məkanı

**44 günlük Vətən müharibəsindəki zəfər, ərazi bütövlüyümüzün bərpa edilməsi respublikamızın qarşısında yeni çağırışlar formalaşdırıb. Bundan irəli gələrək işğaldan azad olunmuş ərazilərimizin bərpası milli prioritetə çevrilib. Bununla yanaşı, respublikamızın digər regionlarının sosial-iqtisadi inkişafına dair öncədən müəyyən olunmuş proqramlarla qarşıya qoyulmuş vəzifələrin də yerinə yetirilməsi diqqət mərkəzindədir. Bu baxımdan Sumqayıt şəhərində müşahidə etdiklərimiz, şəhərin iqtisadi həytındakı yeniliklər göstərir ki, öncədən müəyyən olunmuş proqramlar üzrə bütün vəzifələr çevik şəkildə icra olunur. Artıq pandemiyanın yaratdığı çətinliklər də geridə qalır.**

















## Müasir sənaye mərkəzi

Sumqayıt şəhərinin tarixi ənənələr əsasında inkişaf edərək nəinki Azərbaycanın və Cənubi Qafqazın, ümumən Avropanın iri sənaye mərkəzlərindən birinə çevrilməsi, Bakı şəhəri ilə tam rəqabət aparmaq imkanına malik olması Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasını uğurla davam etdirən və dövrün tələbinə uyğun zənginləşdirən Prezident İlham Əliyevin müəyyənləşdirdiyi əsas hədəflərdəndir. Bu gün Sumqayıt ölkə Prezidenti İlham Əliyevin daim diqqət və qayğısı ilə əhatə olunub. Son 19 ildə şəhərdə qazanılan hər bir sosial-iqtisadi uğur Prezident İlham Əliyevin adı ilə bağlıdır. Xüsusən regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurla icrası çərçivəsində qarşıya qoyulan vəzifələrin reallaşdırılması Sumqayıt şəhərini də dinamik inkişaf yoluna çıxarıb. Olkənin makroiqtisadi göstəricilərində şəhərin xüsusi çəkisi yuksəlib, sahibkarlığın inkişafının daha da sürətləndirilməsi, istehsal və emal muəssisələrinin fəaliyyətinin bərpası və genişləndirilməsi, iqtisadi və sosial-mədəni infrastruktur obyektlərinin yenidən qurulması istiqamətində uğurlu nəticələr qazanılıb.

Azərbaycanın tərəqqisinə hər birinin böyük töhfəsi olan şəhərlərimizin sırasında Sumqayıtın yeri tamamilə başqadır. Hələ sovet dövründə Azərbaycanın əsas sənaye mərkəzi statusuna sahib olan Sumqayıt indi bu şərəfli adı daha da layiqincə daşıyır. Son illər şəhərdə yeni istehsal müəssisələrinin yaradılması, bir sıra ənənəvi istehsal sahələrinin fəaliyyətinin canlandırılması bunu təsdiq edir. Sumqayıt bir çox istiqamətlər üzrə qazandığı nailiyyətlərlə fərqlənir.

Xatırladaq ki, son illərdə Sumqayıtda gücü 525 MVt olan elektrik stansiyası, "Sumqayıt-3" yarımstansiyası tikilmiş, "Azərkimya" İB-nin müəssisələri yenidən qurulmuş, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin "Azgüntex" Zavodu, tərkibinə çörək zavodu, taxıl anbarı, dəyirman və logistik mərkəz daxil olan "Sağlam qida" Aqrar-Sənaye Kompleksi, "Azərsun Holdinq"in kağız və karton emalı kombinatı və yağ istehsalı fabriki, "Gilan" Tekstil Parkı, Mis Emalı Zavodu, "Alyans Tekstil" MMC-nin uniformalar istehsalı fabriki, "Azkontakt" MMC-nin beton boru və beton döşəmə daşı istehsalı, "Texnoil" MMC mühərrik yağları istehsalı müəssisələri yaradılmış, Kimya Sənaye Parkında İnşaat Kimyəviləri Zavodu, "Tabaterra" QSC-nin tütün məmulatları istehsalı fabriki, Bakı Əlvan Metallar və Ferroərintilər Zavodu, pestisid və aqro-kimyəvi məhsulları, xortum və fitinq birləşmələri, sürtkü yağları, polipropilen qurğusu, elektron təhsil avadanlığı, şüşə və saxsı məmulatları istehsalı müəssisələri, Məlumatların Emalı Mərkəzi, Sumqayıt Texnologiyalar Parkında müxtəlif istehsal sahələri üzrə ixtisaslaşmış zavodlar, "Azərtexnolayn" MMC-nin polad və polietilen borular, mexaniki və hidrotexniki avadanlıqlar istehsalı zavodları, "Aqrokimya Azərbaycan" MMC tərəfindən pestisidlər istehsalı zavodu istifadəyə verilib.

Bir neçə il əvvəl isə Kimya Sənaye Parkında inşa olunmuş və ildə 650-660 min ton karbamid və 1 milyon ton ammonyak istehsal etmək gücünə malik olan "SOCAR Karbamid" zavodunun və "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən yüksəksıxlıqlı polietilen zavodu istifadəyə verilib. Hazırda ölkədə qeyri-neft sektorunda ən böyük layihələr olan bu müəssisələrin ümumi dəyəri təxminən 1 milyard 200 milyon avro təşkil edir. İstehsal həcminin 70 faizinin ixrac üçün nəzərdə tutulduğu müəssisələrin fəaliyyəti ölkəyə hər il 200 milyon dollar məbləğində vəsaitin daxil olmasına imkan yaradır. Ümumiyyətlə, bu zavodların fəaliyyətə başlaması Sumqayıtın sənaye şəhəri kimi şöhrətini artırmaqla bərabər, respublikada gedən inkişaf proseslərinə sanballı töhfələr verir.

Göründüyü kimi, Sumqayıt həm də müəyyən dövrdə itirdiyi sənaye şəhəri adını özünə qaytarıb və bu işlərdə inamla irəliləyir. İndi bu şəhər nəinki Azərbaycanın, hətta bütün Qafqazın müasir sənaye mərkəzidir. Şəhərin iqtisadi strukturuna kimya və neft-kimya, qara və əlvan metallurgiya, maşınqayırma, elektroenergetika, yeyinti və yüngül sənaye, tikinti materialları istehsalı müəssisələri daxildir. Şəhərdə yüzlərlə sənayeyönümlü müasir texnologiya əsasında işləyən müəssisə fəaliyyət göstərir. Ən önəmlisi də odur ki, bu müəssisələrin əksəriyyəti müasir dünya standartlarının tələblərinə uyğun texnologiya ilə işləyir. Prezident İlham Əliyev Sümqayıtı müasir sənaye mərkəzi adlandıraraq deyib: "Bu müəssisələrin yaradılmasının və təməlinin qoyulmasının çox böyük əhəmiyyəti var, ilk növbədə Sumqayıt şəhərinin inkişafı üçün. Sumqayıt hazırda nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir və müasir sənaye mərkəzidir. Eyni zamanda son illər ərzində Sumqayıtda yaradılmış bütün müəssisələr ən yüksək ekoloji standartlara cavab verir. Sumqayıt üçün bunun xüsusi əhəmiyyəti var. Çünki əvvəllər Sumqayıt ekoloji fəlakət zonası idi. Biz isə Sumqayıtı müasir sənaye mərkəzinə çevirərək, ilk növbədə insanların sağlamlığını nəzərə almışıq".

Cari ilin birinci rübünün makroiqtisadi göstəriciləri Sumqayıtın davamlı inkişafının təcəssümüdür. Belə ki, şəhər üzrə ümumdaxili məhsul istehsalı ötən ilin eyni dövrü ilə müqayisədə 48,1 faiz və ya 403,8 milyon manat artaraq 1 milyard 243,1 milyon manata çatıb. Sənaye müəssisələrində 1077,4 milyon manatlıq məhsul istehsal edilib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 55 faiz çoxdur. Müsbət meyillər şəhərin yerli dövlət büdcəsinin cari ilin birinci rübündəki göstəricilərində də özünü büruzə verib. Birinci rübdə şəhərin yerli büdcəsinin gəlirləri proqnoza qarşı 16,2 faiz və yaxud 1,9 milyon manat artıqlaması ilə icra olunub və yerli büdcəsinin gəliri 13,9 milyon manat təşkil edib.





## Əzəmətli quruculuq nümunələri

Sumqayıt həm də özünün möhtəşəm quruculuğu ilə fərqlənir. Prezident İlham Əliyevin tapşırığı və qayğısı ilə şəhərdə görülən kompleks abadlıq və quruculuq işləri, yeni və möhtəşəm infrastruktur layihələrinin həyata keçirilməsi, şəhər təsərrüfatının yenidən qurulması burada tamamilə yeni ab-hava yaradıb. Xüsusən 2015-ci ilin sonu, 2016-cı ilin əvvəllərindən həyata keçirilən layihələrin nəticəsində Sumqayıtın görkəmi tamamilə dəyişib, şəhərdə yeni infrastruktur yaradılıb. Hansı ki, bu infrastruktur uzun illər sumqayıtlılara ən yüksək standartlar əsasında xidmət edəcək.

Əzəmətli Heydər Əliyev Mərkəzi, Yeni Azərbaycan Partiyasının inzibati binası, Bayraq Muzeyi, Gənclər Mərkəzi, Şahmat Məktəbi, Uşaq İncəsənət Məktəbi, Muğam Mərkəzi Sumqayıtın yeni və möhtəşəm ünvanlarıdır. Bununla yanaşı, şəhərdə sosialyönümlü bir sıra infrastruktur layihələri də həyata keçirilmiş, o cümlədən Olimpiya və Paralimpiya İdman kompleksləri, əlil və şəhid ailələri üçün ümumilikdə 240 mənzilli 5 yaşayış binası inşa edilmiş, "Kimyaçılar" Mədəniyyət Sarayının, Sumqayıt Dövlət Dram Teatrının, Tarix Muzeyinin, 1 nömrəli Uşaq-Gənclər İdman Məktəbinin, 3 nömrəli Uşaq-Gənclər Şahmat-Dama İdman Məktəbinin binaları əsaslı təmir olunmuş, "ASAN xidmət" mərkəzi fəaliyyətə başlamışdır.

Şəhərdə həyata keçirilən kompleks tikinti-quruculuq işlərinin bir hissəsini də ictimai yaşayış binalarının təmiri və yenidən qurulması təşkil edir. Yaşayış binalarının fasadının əsaslı təmiri, şəhərlə yaşıd olan binaların müasir qaydada üzlənməsi işlərinə başlanıldı. Təmir olunan binaların memarlıq görünüşü saxlanıldı, aşınmaya məruz qalan və piyadalar üçün təhlükə yaradan elementlər yeniləndi. Təqdirəlayiq haldır ki, fasadlama işləri zamanı binaların tarixi memarlıq elementlərinə, dizayn və naxışlarına toxunulmadı.

Son illərdə ölkə rəhbərliyinin xüsusi diqqəti və qayğısı nəticəsində şəhərdə, həllini tapan əsas sosial problemlərdən biri də binaların dam örtüklərinin vurulması və yenilənməsidir. Cəmi bir neçə il ərzində şəhərin mənzil fonduna aid olan 1200 çoxmənzilli yaşayış binasının dam örtüyü vuruldu. Beləliklə, şəhər sakinlərinin mütləq əksəriyyətini birbaşa narahat edən daha bir əsas problem öz həllini tapdı.

Əhalinin sağlamlığının qorunması da diqqət mərkəzindədir. Şəhərdə səhiyyə infrastrukturunun müasir tələblərə uyğunlaşdırılması üçün təxirəsalınmaz addımlar atılıb, səhiyyə ocaqlarının əksəriyyəti təmir olunub, tibb müəssisələri müasir avadanlıqlarla təchiz edilib. 1 nömrəli şəhər mərkəzi xəstəxanası, 1 nömrəli doğum evi, 1 və 2 nömrəli qadın məsləhətxanaları, 1 və 4 nömrəli şəhər poliklinikaları, Uşaq xəstəxanasının infeksion şöbəsi, Vərəm xəstəxanası, 2 nömrəli uşaq poliklinikası, 3 nömrəli şəhər xəstəxanasının poliklinika şöbəsi əsaslı təmir olunub. 1 nömrəli uşaq poliklinikasında, 2 nömrəli şəhər poliklinikasında, Onkoloji xəstəxana, 4 nömrəli şəhər xəstəxanasında cari təmir işləri aparılıb. 1 və 2 nömrəli doğum evlərinin reanimasion şöbələri müasir tibbi avadanlıqlarla təchiz olunub. 1 nömrəli doğum evi 2018-ci ildən III səviyyəli Perinatal mərkəz kimi fəaliyyət göstərir.

Sumqayıtda şəhər təsərrüfatının yenilənməsi istiqamətində də mühüm tədbirlər həyata keçirilib. Şəhərdə çoxmənzilli yaşayış binalarının sakinlərini ən çox narahat edən problemlərdən biri də liftlərin yenilənməsi ilə bağlı idi. Sovet dövründən yenilənməyən liftlər əhalinin haqlı narazılığına, narahatlığına səbəb olurdu. Ölkə rəhbərliyinin bu sahəyə olan diqqəti sayəsində qısa müddət ərzində şəhərin lift təsərrüfatı tamamilə yenilənib. Lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi, əhalinin liftdən təhlükəsiz istifadə etməsinin təmin olunması məqsədilə istismar müddətini ötmüş 600-ə yaxın lift yenisi ilə əvəz olunub.

400 min nəfərə yaxın insanın yaşadığı şəhər üçün vacib olan məsələlərdən biri də müasir nəqliyyat infrastrukturunun yaradılması, bu sahədə idarəetmənin təkmilləşdirilməsi, sərnişin daşınması sahəsində rahatlığın təmin olunmasıdır. Ötən dövr ərzində Sumqayıta 200-dən çox Türkiyə istehsalı olan, müasir tələblərə cavab verən avtobuslar gətirilərək marşrut xətlərinə buraxılıb. Əhaliyə göstərilən nəqliyyat xidmətinin yaxşılaşdırılması məqsədilə xırda tutumlu, istismara yararsız, ekoloji tələblərə cavab verməyən nəqliyyat vasitələri xətlərdən çıxarılıb. Bununla şəhər sakinlərini gündəlik narahat edən problemlərdən biri də həll olunub.

Əhalisinin sayına və sənaye potensialına görə respublika həyatında mühüm rolu olan Sumqayıt şəhərində elektrik təchizatının yaxşılaşdırılması, şəhər əhalisinin təbii qazla fasiləsiz təmin edilməsi və su təchizatı və kanalizasiya infrastrukturunun yaxşılaşdırılması ilə bağlı kompleks işlər həyata keçirilib.

Bir neçə il əvvəl Sumqayıt şəhərinin əsas problemlərindən biri də həllini tapdı. Söhbət "Acı dərə" kanalından gedir. Bu kanal şəhər üçün çox böyük təhlükə mənbəyi idi. Ötən dövr ərzində həllinə nail olunan əsas məsələlərdən biri də bu kanalın boruya salınmasıdı.

Sumqayıtın ən böyük nailiyyətlərindən biri də pandemiya dövründə quruculuq işlərinin davam etdirilməsi oldu. Öncə onu bildirək ki, COVID-19-la mübarizədə Sumqayıt da nümunələr yaratdı. Belə ki, virusun ölkəmizdə qeydə alındığı ilk vaxtlardan şəhərdə virusa qarşı intensiv tədbirlər həyata keçirildi, sanitar epidemioloji vəziyyət ciddi nəzarət altında saxlanıldı. Şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcovun sərəncamı ilə koronavirus epidemiyasına qarşı qabaqlayıcı tədbirlərin görülməsi ilə bağlı komissiya yaradıldı. Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərarlara və müəyyənləşdirdiyi qaydalara əməl olunmasına ciddi şəkildə nəzarət həyata keçirildi. Nəticə etibarilə şəhərdə koronavirusun ciddi fəsadlar törətməsinin qarşısı alındı.

Pandemiyaya baxmayaraq, Sumqayıtda abadlıq və quruculuq işləri böyük vüsətlə davam etdirildi. Bunu təkcə son bir ildə şəhərdə həyata keçirilən genişmiqyaslı tədbirlər də təsdiq edir. Bu dövrdə təmiri və bərpası başa çatdırılan ünvanlardan biri "Şəhidlər xiyabanı" memorial kompleksidir. 1992-ci ildə salınan Şəhidlər xiyabanında 513 şəhid uyuyur. Burada həm də müharibədə itkin düşmüş Vətən oğullarının və Xocalı faciəsi qurbanlarının xatirəsinə abidələr ucalır. Şəhidlər xiyabanında bir sıra dəyişikliklər həyata keçirilib. Belə ki, xiyabanın girişində ağır konstruksiyalı müxtəlif atributlar, fiqurlar yer alıb. Orta hissədə daim Vətənin müdafiəsinə hazır olmanın dinamikasını göstərən əsgər heykəli qoyulub. Minadan gül, mərmidən yer kürəsi formatlı kompozisiya inşa olunub. Xiyabanda hündürlüyü 30 metrə çatacaq bayraq dirəyi ucaldılıb. Görülən işlər çərçivəsində 44 günülük Vətən müharibəsi ilə əlaqədar yeni abidə də ucaldılıb.

## Şəhərin yeni və yenilənən ünvanları

Son dövr ərzində Sumqayıtda 3 məktəb üçün yeni bina tikilib. Ötən ilin sentyabrında istifadəyə verilən 1 nömrəli tam orta məktəbin yeni tikilmiş tədris binası 1800 şagird yerlikdir. 73 sinif otağından ibarət ümumi təhsil müəssisəsində 9 laboratoriya, 2 texnologiya, informatika, gənclərin çağırışaqədərki hazırlığı kabineti, 2 məktəbəhazırlıq otağı, 390 yerlik akt zalı, idman zalı, kitabxana və bufet fəaliyyət göstərir.

Şəhərin İnşaatçılar qəsəbəsində yerləşən 9 nömrəli tam orta məktəb üçün də yeni tədris binası tikilib. Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, məktəbin binası tam sökülərək yerində müasir tələblərə cavab verən 1176 şagird yerlik yeni bina inşa edilib. 4 korpusdan ibarət olan məktəb binasında 69 sinif otağı, müasir istilik sistemi ilə təchiz olunmuş fənn kabinetləri, laboratoriyalar, yeməkxana, qapalı idman və akt zalları, kompüter otaqları fəaliyyət göstərəcək. Məktəbdə şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hər cür şərait yaradılıb.

Sumqayıtdakı 20 nömrəli tam orta məktəb üçün bina isə Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunub. Şəhərin 4-cü mikrorayon ərazisində inşa olunan 3 mərtəbəli məktəb binası 1100 şagird yerlikdir. Bina müasir istilik sistemi ilə təchiz edilib və burada fənn kabinetləri, laboratoriyalar, yeməkxana, idman və akt zalları, kompüter otaqları fəaliyyət göstərir. Binada şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hər cür şərait yaradılıb.

Respublikamızda ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə aparılan islahatlar nəticəsində məhkəmə sistemi daha da təkmilləşib, yeni məhkəmələr təsis olunub, onların infrastrukturunun müasirləşdirilməsi üzrə xeyli işlər görülüb. Dövlət büdcəsi hesabına hazırda respublikanın müxtəlif bölgələrində yeni müasir məhkəmə binaları inşa olunur. Sumqayıt Məhkəmə Kompleksinin inşası da bu istiqamətdə icra olunan layihələrdən biridir. Ötən ilin sentyabr ayında Prezident İlham Əliyevin açılışında iştirak etdiyi Məhkəmə Kompleksi "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində inşa olunub. Konseptual baxımdan yeni olan, öz funksionallığı ilə fərqlənən müasir Məhkəmə Kompleksi altı məhkəməni, o cümlədən Sumqayıt apellyasiya, inzibati, kommersiya və ağır cinayətlər, Sumqayıt şəhər, eləcə də müvəqqəti olaraq Qubadlı rayon məhkəmələrini əhatə edir.

Sumqayıtın yeni ünvanlarından biri də "ASAN xidmət" mərkəzidir. 2019-cu ilin noyabr ayında Prezident İlham Əliyev "Sumqayıt şəhərində yeni "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Artıq mərkəzin inşası başa çatıb və tezliklə istifadəyə veriləcək. Qeyd edək ki, mərkəz şəhər bulvarının ərazisində inşa olunub.

Bütün bunlarla yanaşı, Sumqayıtda bir sıra ünvanlarda quruculuq işləri davam edir. Bunlardan biri 2 saylı Sumqayıt Şəhər Xəstəxanasıdır. Bu xəstəxana uzun müddət istismar olunması nəticəsində əhaliyə keyfiyyətli tibbi xidmət göstərmək gücündə deyildi. Yararsız vəziyyətdə olması bu tibb müəssisəsinin yenidən qurulmasını zəruri edirdi. Bunu nəzərə alaraq Prezident İlham Əliyev 2019-cu ilin fevral ayında 2 saylı Sumqayıt Şəhər Xəstəxanasının yenidən tikilməsi və zəruri tibbi avadanlıqlarla təchiz edilməsi haqqında sərəncam imzaladı. Sərəncama əsasən, xəstəxananın əsaslı təmiri və zəruri tibbi avadanlıqlarla təchiz edilməsi məqsədilə 5 milyon manat ayrıldı. Tikinti işlərinin əsas hissəsi artıq yekunlaşıb. Bu il ərzində xəstəxana şəhər sakinlərinin istifadəsinə veriləcək.

Sumqayıtda yenidən qurulan ünvanlardan biri də şəhər stadionudur. 60 il əvvəl istifadəyə verilmiş və iki-üç min azarkeş üçün hesablanan Mehdi Hüseynzadə adına Sumqayıt stadionu müasir tələblərə cavab vermirdi və azarkeşlərin çoxu yarışları yer darısqallığından canlı izləyə bilmirdi. Dörd tərəfi açıq olan stadion əhəmiyyətli futbol yarışlarını keçirən məkana qətiyyən bənzəmirdi. Bir sözlə, yeni stadionun tikintisinə ehtiyac vardı. Bunu nəzərə alaraq Prezidentin Ehtiyat Fondundan Sumqayıt Şəhər İcra Hakimiyyətinə ilkin olaraq 5 milyon manat ayrılıb. Stadion tikintisinin ilin sonuna kimi yekunlaşması nəzərdə tutulur. Sumqayıt stadionunun yeni dizaynı modern üslubda olmaqla şəhər memarlığına böyük töhfə verəcək.

Sumqayıt Dövlət Universitetinin 1 saylı tələbə yataqxanası da əsaslı təmir olunur. Tam yararsız vəziyyətə düşmüş həmin yataqxana müasir standartlara uyğun layihələndirilib və tələbələrin rahatlığını təmin etmək üçün burada hər cür şəraitin yaradılması planlaşdırılıb. 5 mərtəbəli və 150 çarpayıdan ibarət yataqxananın ilin sonuna kimi tələbələrin istifadəsinə verilməsi nəzərdə tutulur.

Prezident İlham Əliyevin diqqəti və qayğısı ilə Sumqayıt inkişaf edir, şöhrətini daha da artırır. Dövlət başçısının indiyədək Sumqayıta 30 dəfə səfər etməsi də şəhərə olan ali diqqətin nümunəsidir. Təbii ki, Sumqayıt ictimaiyyəti bu diqqətə və qayğıya öz əməlləri ilə cavab verəcək, şəhərin daha da yüksəlişi üçün əzmkarlıq göstərəcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası tərəfindən 1995-ci il yanvarın 10-da təsdiq edilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim dəyişmələri üzrə çərçivə konvensiyasına uyğun Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər haqqında" 1997-ci il 30 aprel tarixli 560 nömrəli, "Azərbaycan Respublikasında sərhəd-nəzarət buraxılış məntəqələrinin fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması üzrə Komissiya haqqında" 2000-ci il 20 may tarixli 423 nömrəli, "YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında" 2005-ci il 15 sentyabr tarixli 1006 nömrəli, "Azərbaycan Respublikasında biometrik eyniləşdirmə sisteminin yaradılması üzrə Dövlət Komissiyası və Dövlət Proqramının hazırlanması haqqında" 2006-cı il 6 mart tarixli 1348 nömrəli, "Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə" 2006-cı il 16 oktyabr tarixli 1737 nömrəli, "Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə" 2006-cı il 25 dekabr tarixli 1852 nömrəli, "Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" 2006-cı il 28 dekabr tarixli 1876 nömrəli, "Dövlət əmlakının özəlləşdirilməsinə nəzarət üzrə Dövlət Komissiyası haqqında" 2007-ci il 28 fevral tarixli 2006 nömrəli və "Azərbaycan Respublikası Hökuməti ilə Yunanıstan Respublikası Hökuməti arasında iqtisadi, sənaye və texnoloji sahələrdə əməkdaşlıq üzrə birgə komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə" 2007-ci il 6 mart tarixli 2015 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1464 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası tərəfindən 1995-ci il yanvarın 10-da təsdiq edilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim dəyişmələri üzrə çərçivə konvensiyasına uyğun Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 30 aprel tarixli 560 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 512; 2007, № 9, maddə 871; 2008, № 9, maddə 797; 2010, № 6, maddə 501; 2020, № 3, maddə 305) 1-ci hissəsində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikasında sərhəd-nəzarət buraxılış məntəqələrinin fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması üzrə Komissiya haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 20 may tarixli 423 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 5, maddə 349; 2004, № 7, maddə 568; 2014, № 4, maddə 391; 2015, № 11, maddə 1301; 2017, № 1, maddə 51; 2020, № 3, maddə 303, № 7, maddə 913) 1-ci hissəsində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

3. "YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 sentyabr tarixli 1006 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 826; 2006, № 9, maddə 743; 2014, № 9, maddə 1027; 2015, № 3, maddə 286; 2016, № 7, maddə 1282; 2017, № 8, maddə 1521; 2018, № 8, maddə 1779; 2019, № 11, maddə 1751; 2020, № 2, maddə 170) 3-cü hissəsində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikasında biometrik eyniləşdirmə sisteminin yaradılması üzrə Dövlət Komissiyası və Dövlət Proqramının hazırlanması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 1348 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 245, № 7, maddə 588; 2009, № 2, maddə 74; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2015, № 11, maddə 1301; 2016, № 8, maddə 1384; 2017, № 1, maddə 51, № 8, maddə 1521) 1-ci hissəsi ilə yaradılan Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın sədri**
Azərbaycan Respublikasının Baş naziri

**Komissiyanın üzvləri**
Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri
Azərbaycan Respublikasının iqtisadiyyat naziri
Azərbaycan Respublikasının maliyyə naziri
Azərbaycan Respublikasının xarici işlər naziri
Azərbaycan Respublikasının daxili işlər naziri
Azərbaycan Respublikasının səhiyyə naziri
Azərbaycan Respublikasının ədliyyə naziri
Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi
Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi.".

5. "Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 16 oktyabr tarixli 1737 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 10, maddələr 878, 888; 2012, № 2, maddə 136; 2014, № 2, maddə 112, № 6, maddə 644; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 1, maddə 79; 2021, № 7, maddə 819) 1-ci hissəsində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

6. "Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 dekabr tarixli 1852 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1111; 2007, № 11, maddə 1133; 2009, № 2, maddə 74; 2010, № 2, maddə 80, № 6, maddə 501; 2012, № 2, maddə 135; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2017, № 8, maddə 1521; 2018, № 11, maddə 2334; 2021, № 9, maddə 1031) 1-ci hissəsində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

7. "Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 1876 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1134; 2012, № 2, maddə 117; 2014, № 2, maddə 112, № 6, maddə 644, № 9, maddə 1027; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2017, № 8, maddə 1521; 2018, № 6, maddə 1285; 2019, № 10, maddə 1671; 2021, № 9, maddə 1030) 1-ci hissəsində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

8. "Dövlət əmlakının özəlləşdirilməsinə nəzarət üzrə Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 fevral tarixli 2006 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 179; 2009, № 3, maddə 163; 2010, № 7, maddə 610; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 8, maddə 1384; 2017, № 8, maddə 1521; 2021, № 1, maddə 77) 1-ci hissəsində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

9. "Azərbaycan Respublikası Hökuməti ilə Yunanıstan Respublikası Hökuməti arasında iqtisadi, sənaye və texnoloji sahələrdə əməkdaşlıq üzrə birgə komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 mart tarixli 2015 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 3, maddə 247; 2008, № 11, maddə 1030; 2009, № 7, maddə 589; 2010, № 9, maddə 773; 2012, № 2, maddə 110; 2014, № 2, maddə 112, № 4, maddə 391, № 6, maddə 644, № 11, maddə 1414; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 8, maddə 1677; 2021, № 7, maddə 811) 1-ci hissəsində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 12 fevral tarixli 1815 nömrəli, "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 13 fevral tarixli 1816 nömrəli, "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 27 fevral tarixli 1859 nömrəli, "İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) üzrə Azərbaycan Respublikası Milli Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" 2020-ci il 13 mart tarixli 1937 nömrəli və "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 22 iyul tarixli 2173 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1464 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 fevral tarixli 1815 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 131) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı"nın "6. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsinin 6.2.2-ci və 6.2.4-cü yarımbəndlərinin "İcraçı orqan" sütununda "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 13 fevral tarixli 1816 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 132) ilə təsdiq edilmiş "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün Tədbirlər Planı"nın 1.5-ci, 3.5-ci və 3.12-ci bəndlərinin "Digər icraçılar" sütununda "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 174) ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın 7.3-cü bəndinin "İcraçı / Tövsiyə" sütununda "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

4. "İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) üzrə Azərbaycan Respublikası Milli Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 13 mart tarixli 1937 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 319) 1-ci hissəsində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 iyul tarixli 2173 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 2173) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın "4. Milli Fəaliyyət Planının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsinin 4.2.1-ci, 4.2.6-cı, 4.2.7-ci, 4.8.1-ci, 4.8.2-ci və 4.8.4-cü yarımbəndlərinin "İcraçı orqanlar" sütununda "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Polşa Respublikasının infrastruktur və tikinti naziri və dəniz iqtisadiyyatı və daxili naviqasiya naziri arasında nəqliyyat və nəqliyyat infrastrukturu sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" 2017-ci il 2 noyabr tarixli 1648 nömrəli, "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Latviya Respublikasının Nəqliyyat Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında" 2017-ci il 2 noyabr tarixli 1652 nömrəli, "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Türkiyə Respublikasının Nəqliyyat, Dənizçilik və Rabitə Nazirliyi arasında elektron imza sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" 2018-ci il 27 iyun tarixli 156 nömrəli və "Azərbaycan Respublikasının 2008-ci il 1 fevral tarixli 541-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1068-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2014-cü il 4 noyabr tarixli 341 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1464 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Polşa Respublikasının infrastruktur və tikinti naziri və dəniz iqtisadiyyatı və daxili naviqasiya naziri arasında nəqliyyat və nəqliyyat infrastrukturu sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 noyabr tarixli 1648 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 1987) 2-ci hissəsində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Latviya Respublikasının Nəqliyyat Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 noyabr tarixli 1652 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 1991) 2-ci hissəsində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Türkiyə Respublikasının Nəqliyyat, Dənizçilik və Rabitə Nazirliyi arasında elektron imza sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 iyun tarixli 156 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1246) 2-ci hissəsində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikasının 2008-ci il 1 fevral tarixli 541-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1068-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 4 noyabr tarixli 341 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1381) 3-cü hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "2007-ci il fevralın 7-də Tbilisi şəhərində imzalanmış "Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda - Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin maliyyələşdirilməsi, layihələndirilməsi, inşası, reabilitasiya-rekonstruksiyası və istismarının prinsip və şərtləri haqqında Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Saziş" üzrə Azərbaycan Respublikası Hökuməti tərəfindən səlahiyyətli orqanın müəyyən edilməsi barədə" 2007-ci il 13 iyun tarixli 2222 nömrəli, "Azərbaycan Respublikası ilə Türkmənistan arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" 2007-ci il 20 iyun tarixli 2236 nömrəli və "Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında" 2007-ci il 3 iyul tarixli 2283 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1464 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "2007-ci il fevralın 7-də Tbilisi şəhərində imzalanmış "Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda - Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin maliyyələşdirilməsi, layihələndirilməsi, inşası, reabilitasiya-rekonstruksiyası və istismarının prinsip və şərtləri haqqında Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Saziş" üzrə Azərbaycan Respublikası Hökuməti tərəfindən səlahiyyətli orqanın müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 iyun tarixli 2222 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 636; 2017, № 8, maddə 1521) 1-ci və 2-ci hissələrində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikası ilə Türkmənistan arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 20 iyun tarixli 2236 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 650; 2009, № 6, maddə 424, № 7, maddə 589; 2010, № 9, maddə 773; 2012, № 2, maddə 121; 2014, № 2, maddə 112, № 4, maddə 391, № 6, maddə 644; 2015, № 7, maddə 852; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 1, maddə 79, № 8, maddə 1677; 2021, № 7, maddə 820) 1-ci hissəsində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 3 iyul tarixli 2283 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 719; 2012, № 2, maddə 124; 2014, № 2, maddə 112, № 6, maddə 644; 2016, № 8, maddə 1384; 2021, № 7, maddə 823) 1-ci hissəsində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə"nin təsdiq edilməsi haqqında" 2013-cü il 23 oktyabr tarixli 3 nömrəli, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli 875-IVQD nömrəli Qanununun tətbiqi barədə" 2014-cü il 3 fevral tarixli 100 nömrəli, "Texnologiyalar parkı haqqında Nümunəvi Əsasnamə"nin təsdiq edilməsi barədə" 2014-cü il 15 may tarixli 168 nömrəli, "Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatı Komissiyasının yeni tərkibinin müəyyən edilməsi haqqında" 2015-ci il 8 aprel tarixli 499 nömrəli və "Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sisteminin yaradılması haqqında" 2015-ci il 29 aprel tarixli 503 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1464 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 23 oktyabr tarixli 3 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1148, № 12, maddə 1549; 2015, № 10, maddə 1141; 2016, № 6, maddə 1055, № 10, maddə 1634, № 12, maddə 2078; 2017, № 8, maddə 1521, № 12 (I kitab), maddə 2285; 2018, № 1, maddə 48, № 5, maddə 929, № 8, maddə 1704, № 9, maddə 1833; 2019, № 12, maddə 1947; 2021, № 12, maddə 1418; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 13 aprel tarixli 1664 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə"nin 2.16-cı, 2.16-1-ci, 2.16-3-cü bəndlərində və 2.29.4-cü yarımbəndində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli 875-IVQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 3 fevral tarixli 100 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 107, № 9, maddə 1027, № 10, maddə 1175; 2016, № 9, maddə 1464, № 8, maddə 1521; 2019, № 8, maddə 1397) 7-ci hissəsində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

3. "Texnologiyalar parkı haqqında Nümunəvi Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli 168 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 481; 2017, № 8, maddə 1521; 2019, № 6, maddə 1027) 3-cü hissəsində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatı Komissiyasının yeni tərkibinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 8 aprel tarixli 499 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 378; 2017, № 4, maddə 561; 2018, № 5, maddə 959; 2021, № 4, maddə 324) 1-ci hissəsində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

5. "Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 29 aprel tarixli 503 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 382; 2016, № 5, maddə 858, № 7, maddə 1265; 2017, № 8, maddə 1521) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 5.2-ci bənddə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin;

5.2. həmin Fərmanla təsdiq edilmiş "Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sistemindən istifadə Qaydaları"nın 4.6-cı və 6.3-cü bəndlərində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli, "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiya haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiyanın tərkibi"nin təsdiq edilməsi barədə" 2016-cı il 22 dekabr tarixli 1169 nömrəli və "Azərbaycan Respublikası, Gürcüstan, Moldova Respublikası, Türkiyə Respublikası və Ukrayna mülki aviasiya hakimiyyəti orqanları arasında ICAO çərçivəsində əməkdaşlığa və ICAO orqanlarında təmsilçiliyə dair Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında" 2017-ci il 23 fevral tarixli 1259 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1464 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2056; 2017, № 8, maddə 1521, № 10, maddə 1777; 2018, № 5, maddə 920, № 6, maddə 1196, № 7 (I kitab), maddələr 1496, 1506, № 11, maddə 2287; 2019, № 2, maddələr 218, 236, № 4, maddə 625, № 5, maddələr 848, 855; 2020, № 2, maddə 100, № 9, maddə 1148; 2021, № 1, maddə 43, № 12, maddə 1416) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. "7. Strateji hədəflər" hissəsinin 7.1.1-ci yarımbəndi üzrə:

1.1.1. ikinci abzasın birinci cümləsində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyidir (bundan sonra - NRYTN)" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyidir (bundan sonra - RİNN)" sözləri ilə, ikinci cümləsində "NRYTN" akronimi "RİNN" akronimi ilə əvəz edilsin;

1.1.2. "Tədbir 1.1.1" hissəsinin ikinci abzasının ikinci cümləsində, "Tədbir 1.2.1" hissəsinin adında, birinci və ikinci abzaslarında, "Tədbir 2.1.1" hissəsinin birinci abzasının birinci cümləsində, "Tədbir 2.2.1" hissəsinin birinci abzasının ikinci cümləsində, "7.2.4. Prioritet. 2.4" hissəsinin üçüncü və dördüncü abzaslarında, "Tədbir 2.4.6" hissəsinin ikinci abzasında, "7.3.1. Prioritet" hissəsinin beşinci abzasının birinci cümləsində, "Tədbir 3.1.1" hissəsinin birinci və beşinci abzaslarında, "Tədbir 3.1.2" hissəsinin adında, "Tədbir 3.2.2" hissəsinin ikinci abzasının birinci cümləsində "NRYTN" akronimi "RİNN" akronimi ilə əvəz edilsin;

1.2. "10. Tədbirlər planı" hissəsinin 2.5.2-ci, 2.5.4-cü və 3.2.4-cü yarımbəndlərinin "Digər icraçılar/Tövsiyə" sütununda "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiya haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiyanın tərkibi"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 dekabr tarixli 1169 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2087; 2017, № 1, maddə 42, № 8, maddə 1521; 2018, № 9, maddə 1840) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Fərmanla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiya haqqında Əsasnamə"nin 3.1.2-ci yarımbəndində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə, 4.1-ci bəndində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin;

2.2. həmin Fərmanla təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiyanın tərkibi"nin "Komissiyanın üzvləri" hissəsində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikası, Gürcüstan, Moldova Respublikası, Türkiyə Respublikası və Ukrayna mülki aviasiya hakimiyyəti orqanları arasında ICAO çərçivəsində əməkdaşlığa və ICAO orqanlarında təmsilçiliyə dair Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1259 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 203; 2018, № 9, maddə 1840) 2-ci hissəsində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin nəqliyyatda cinayətkarlıqla mübarizədə əməkdaşlığı haqqında" Saziş üzrə səlahiyyətli orqanların müəyyən edilməsi barədə" 2007-ci il 17 sentyabr tarixli 2391 nömrəli, "Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" 2007-ci il 28 sentyabr tarixli 2413 nömrəli, "2007-ci il avqustun 28-də Lyublyana şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Sloveniya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə" 2007-ci il 12 noyabr tarixli 2497 nömrəli, "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" 2007-ci il 22 noyabr tarixli 2505 nömrəli, "Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" 2009-cu il 10 avqust tarixli 437 nömrəli və "2009-cu il sentyabrın 23-də Nyu York şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə" 2009-cu il 30 oktyabr tarixli 557 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1464 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin nəqliyyatda cinayətkarlıqla mübarizədə əməkdaşlığı haqqında" Saziş üzrə səlahiyyətli orqanların müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 17 sentyabr tarixli 2391 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 9, maddə 893; 2017, № 8, maddə 1521) 1-ci və 2-ci hissələrində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 sentyabr tarixli 2413 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 9, maddə 914; 2009, № 7, maddə 589; 2011, № 6, maddə 520; 2012, № 2, maddə 104; 2014, № 2, maddə 112, № 6, maddə 644, № 11, maddə 1414; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 8, maddə 1677; 2021, № 7, maddə 817) 1-ci hissəsində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

3. "2007-ci il avqustun 28-də Lyublyana şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Sloveniya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 12 noyabr tarixli 2497 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 11, maddə 1141; 2014, № 9, maddə 1027; 2017, № 8, maddə 1521) 2-ci hissəsində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 noyabr tarixli 2505 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 11, maddə 1148; 2009, № 6, maddə 424; 2014, № 2, maddə 112, № 6, maddə 644, № 9, maddə 1027; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2017, № 8, maddə 1521, № 11, maddə 2107; 2021, № 7, maddə 821) 1-ci hissəsində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

5. "Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 10 avqust tarixli 437 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 645; 2012, № 2, maddə 102; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 6, maddə 644, № 9, maddə 1027; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2017, № 8, maddə 1521; 2021, № 5, maddə 461) 1-ci hissəsində "nəqliyyat, rabitə və yüksək texnologiyalar" sözləri "rəqəmsal inkişaf və nəqliyyat" sözləri ilə əvəz edilsin.

6. "2009-cu il sentyabrın 23-də Nyu York şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 30 oktyabr tarixli 557 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 841; 2014, № 9, maddə 1027; 2017, № 8, maddə 1521) 2-ci hissəsində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanununun tətbiqi haqqında" 2011-ci il 15 sentyabr tarixli 500 nömrəli, "Aviasiya təhlükəsizliyi üzrə Dövlət Proqramı"nın və "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2012-ci il 24 aprel tarixli 613 nömrəli, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli, "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli, "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" 2012-ci il 26 sentyabr tarixli 708 nömrəli və "Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasında poçt sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" 2014-cü il 15 dekabr tarixli 395 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1464 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 500 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 794; 2013, № 11, maddə 1340; 2014, № 12, maddə 1569; 2017, № 1, maddə 60, № 8, maddə 1521; 2018, № 9, maddə 1840) 4.4-cü bəndində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 292; 2017, № 1, maddə 50; 2018, № 9, maddə 1840, № 11, maddə 2263; 2019, № 3, maddə 430, № 5, maddə 823; 2020, № 8, maddə 1042) ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyinə dair Dövlət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.2.2-ci və 4.2.8-ci yarımbəndlərdə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin;

2.2. "8. Dövlət Proqramının həyata keçirilməsi üzrə "Tədbirlər Planı" hissəsinin 8.1.2-ci, 8.3.1-ci və 8.3.2-ci yarımbəndlərinin "İcraçı qurumlar" sütununda "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542; 2013, № 1, maddə 29, № 2, maddə 117, № 3, maddə 246, № 8, maddə 909, № 10, maddə 1155, № 12, maddə 1514; 2014, № 5, maddələr 477, 487, № 9, maddə 1027, № 12, maddə 1577; 2015, № 3, maddə 271, № 9, maddə 1005, № 11, maddə 1322, № 12, maddə 1448; 2016, № 2 (II kitab), maddə 273, № 5, maddələr 859, 864, № 8, maddə 1384, № 9, maddə 1464, № 10, maddə 1647, № 11, maddə 1835; 2017, № 3, maddə 353, № 4, maddə 545, № 5, maddə 807, № 8, maddə 1521, № 10, maddə 1797; 2018, № 2, maddələr 191, 215, № 3, maddə 427, № 4, maddə 659, № 7 (I kitab), maddə 1462, № 10, maddə 2017, № 12 (I kitab), maddələr 2538, 2596; 2019, № 3, maddə 406, № 4, maddə 655, № 5, maddələr 820, 826, 848, 852, 857, № 6, maddə 1037, № 12, maddə 1936; 2020, № 1, maddə 7, № 8, maddə 1039, № 10, maddə 1247; 2021, № 1, maddələr 16, 36, № 6 (I kitab), maddə 567, № 11, maddə 1211, № 12, maddə 1367; 2022, № 1, maddə 29; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 aprel tarixli 1641 nömrəli və 13 aprel tarixli 1662 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"yə Əlavənin 2-ci hissəsində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858; 2013, № 2, maddə 109, № 3, maddə 254, № 4, maddə 377; 2014, № 2, maddə 117, № 5, maddə 486, № 9, maddələr 1027, 1044, 1048; 2015, № 6, maddə 708, № 8, maddə 917, № 10, maddə 1122; 2016, № 2 (II kitab), maddə 251, № 5, maddə 852, № 8, maddə 1384, № 9, maddə 1464; 2017, № 2, maddə 174, № 4, maddə 564, № 5, maddə 809, № 8, maddələr 1521, 1531; 2018, № 3, maddə 437, № 6, maddə 1242, № 10, maddə 2013, № 11, maddə 2553; 2019, № 1, maddə 61, № 4, maddə 647; 2020, № 8, maddələr 1039, 1044, 1047; 2021, № 8, maddə 919, № 9, maddə 990, № 11, maddə 1217) 7-ci hissəsində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

5. "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 26 sentyabr tarixli 708 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 860; 2014, № 9, maddə 1027; 2017, № 8, maddə 1521, № 9, maddə 1643; 2018, № 10, maddə 2022; 2019, № 12, maddə 1952) 4-cü hissəsində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

6. "Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasında poçt sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 dekabr tarixli 395 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 12, maddə 1549) 2-ci hissəsində "Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2022-ci il*

Jurnalist araşdırması

# Əcnəbi şirkətin Bakıdakı özbaşınalığı

## "Bolt" Azərbaycan qanunlarını niyə saymır?




"Oğlumu məktəbdən evə gətirmək üçün mobil tətbiq vasitəsilə "Bolt" taksi şirkətinə sifariş verdim. Taksiyə mindikdən sonra ödənişin nağdsız olduğunu öyrənən sürücü avtomobili 50-100 metr irəlidə saxlayaraq bizi yolda düşürdü. Dərhal "Bolt"la əlaqə saxlamaq istəsək də, əlaqə nömrəsi olmadığı üçün mesaj yazdıq. Şirkət tərəfindən isə məsələnin araşdırıldığı, lazımi tədbir görüləcəyi qeyd olundu. Dəfələrlə danışmaq üçün səlahiyyətli şəxsin nömrəsini tələb etsəm də, şikayətə cavab veriləcəyini və məsələ ilə bağlı tədbir görüldüyünü yazdılar. Amma təbii ki, bu tədbirin nə olduğundan xəbərsiz qaldıq".

Bunu paytaxtda sərnişindaşıma xidməti göstərən "Bolt"un taksi sürücülərinin qeyri-etik davranışları ilə dəfələrlə rastlaşan Bakı sakini Mətanət Hüseynli deyir. Mətanət xanım bir neçə gün öncə 14 yaşlı oğlu üçün taksi sifarişi verərək ödənişi kart vasitəsilə edib və sözügedən qanunsuzluqla rastlaşıb.

Təbii ki, bu, ilk olaraq məsuliyyətsiz davranışdır. Çünki yolda avtomobildən düşürdüyü azyaşlının üstündə pul olmaya, eyni zamanda başına hər hansı xoşagəlməz hadisə gələ bilərdi...

### Kimdir müqəssir - sürücü yoxsa şirkət?

Bəs belə olan halda kimə və hara, necə şikayət edilməlidir sualı isə cavabsız qalır. Ona görə ki, hazırda bu bazarda əsas yer tutan iki şirkətdən biri olan "Bolt"un nə əlaqə nömrəsi, nə ictimaiyyətlə əlaqələr şöbəsi, nə də hər hansı dərdi, problemi demək üçün məsuliyyətli şəxsi var. Bütün sualların isə "Bolt"a dəstək komandasının bir üzvü tərəfindən cavablandırılması sadəcə acı gülüş doğurur... Görünən odur ki, "Bolt" sürücülərinin məsuliyyətsizliyinin başında elə şirkətin öz məsuliyyətsizliyi durur!

Təəssüf ki, bu problemlə rastlaşanların sayı az deyil, zaman-zaman vətəndaşlardan taksi şirkətləri ilə bağlı müxtəlif şikayətlər eşidirik. Problemlər əsasən sürücülərin davranışları və nağdsız ödənişlər zamanı narazılıq etmələri ilə bağlı olsa da, əslində digər narazılıqların da sayı-hesabı yoxdur. Əvvəla texnoloji vasitələrin inkişaf etdiyi, insanların onlayn rejimə üstünlük verdiyi XXI əsrdə, eyni zamanda dövlət tərəfindən nağdsız ödənişlərin təşviq edilməsi məqsədilə həyata keçirilən stimullaşdırıcı tədbirlər çərçivəsində kartla ödənişdən imtina nə dərəcədə doğrudur? Təbii ki, burada taksi sürücülərini narahat edən hər hansı məqamlar da var. Bəs taksi şirkətləri tərəfindən bu narazılıqlar nəzərə alınmırmı?

İstənilən halda nağdsız ödəniş sürücüyə sərf etməsə belə müştərini uşaq, qadın demədən yolda maşından düşürmək bir insan üçün nə dərəcədə normal davranışa sığır?

### Taksi sürücülərinin naşılığı, cavabsız qalan suallar...

Taksi şirkətlərində işləyən əksər sürücülərin yolları tanımadığı, naviqatorun yanlış göstərməsi səbəbindən dəfələrlə səhv ünvana getdiyi və ya yolu uzatdığı hallar da olur. Sürücü kartla ödəniş etdiyiniz üçün sizdən imtina etməklə yanaşı, bəzən müştəridən gedişi ləğv etməyi də tələb edir. Təbii ki, bunun da əmması var. Çünki özləri imtina etdikləri zaman şirkət tərəfindən topladıqları "ballarından" uzaq düşürlər.

Özləri məcbur qalıb gedişi ləğv edəndə belə "Bolt" tərəfindən kartdan ödəniş çıxılır. Burada bir nüans da var. Sürücülər vergidən yayınmaq üçün bəzən VÖEN hesabı açdırmırlar, çünki bu halda həm özləri, həm də şirkət vergi ödəmir.

Şikayətinizi bildirmək istədiyinizdə isə əlaqə saxlamağa nömrə tapılmır, operatorla danışmaq mümkün olmur. Tək çarə "Bolt"un sosial şəbəkə ünvanlarına şikayət etmək olur. Oradan isə təklif edilir ki, şikayət şirkətin e-mail hesabına göndərilsin. Bu əməliyyatı gerçəkləşdirdikdən sonra bir ay ərzində cavab ya verilər, ya da verilməz...

Onu da qeyd edək ki, onlayn ödəniş zamanı gediş haqqından əlavə 18 faiz ƏDV tutulsa da, geri qayıdanda təbii ki, bu məbləğ ödənilmir.

Vətəndaşları narahat edən suallara cavab tapmaq üçün "Bolt" şirkətindən səlahiyyətli bir şəxslə danışa bilmədiyimizdən, müraciətlərə ancaq yazılı cavab verildiyindən suallarımıza tam cavab ala bilmədik. Elektron poçt ünvanı üzərindən göndərdiyimiz bir neçə sualın ancaq birinə bu şəkildə cavab verildi: "Qeyd etdiyiniz suallar kampaniyanın daxili qaydaları içində həll olunur. ƏDV hesab aid olan bank tərəfindən çıxılır və bankın hesabına köçürülür. ƏDV məbləği "Bolt"a aid deyil. ƏDV ilə bağlı bankla əlaqə saxlaya bilərsiniz".

Təbii ki, bu, bizi qane etmədiyindən yenidən suallara cavab verilməsi üçün yazılı müraciət etsək də, cavab ala bilmədik.

Bununla bağlı ekspertlər də hesab edirlər ki, vətəndaşların hüquqlarının qorunması istiqamətində addımlar atılmalıdır. Milli Məclisin İnsan hüquqları komitəsinin üzvü Fazil Mustafa qəzetimizə açıqlamasında bildirdi ki, bütün nəqliyyat sferasında xidmətlər keyfiyyətli olmalı, bunun üçün də zəmanət verilməlidir. Zəmanət üçün isə şirkətin əlaqə nömrəsi olmalı və suallara, şikayətlərə operativ cavab verilməlidir. Əgər bu kimi hallar vətəndaşı aldatmaq, çətin vəziyyətə salmaq məqsədi daşıyırsa, müştəri istər-istəməz xidmətdən imtina etməli olacaq, çünki istehlakçı yaxşı xidmət olmayan yerdən istifadəyə maraqlı olmur. Deputatın sözlərinə görə, Azərbaycanda "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanun var və hər hansı şəkildə vətəndaş xidmətdən istifadə edirsə, keyfiyyətli xidmət görmək onun haqqıdır. Əlaqələndirmə imkanları da ortadan qalxırsa, demək ki, burada hansısa mənfi nüanslar var və bunları ortadan qaldırmaq lazımdır.

Fazil Mustafa deyir ki, müvafiq dövlət qurumları bu şirkətlərin fəaliyyətinə ciddi nəzarət etməlidirlər. Bu cür xidmətlərin imtiyazlı formada, kiməsə arxayın olaraq yaradılması anlaşılandır, amma kiminsə kefi naminə vətəndaşın əziyyət çəkməsinə icazə vermək olmaz və bu məsələ hüquqi cəhətdən ciddi şəkildə araşdırılıb münasibət bildirilməlidir.

### Aqreqator şirkətlər monopoliya yaradırlar

Nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı qəzetimizə açıqlamasında dedi ki, Azərbaycanda aqreqator şirkətlərin fəaliyyətinə ciddi nəzarət olunmalıdır, nəzarət mümkün deyilsə, onları ölkədən çıxartmaq lazımdır: "Bir çox ölkələr "Bolt", "Uber", "Yandex", "Maxim" kimi taksi şirkətlərinin fəaliyyətini dayandırıblar. Çünki onlar digər şirkətləri sıxışdıraraq monopoliya yaradır, süni əngəllərlə digər şirkətlərin bazardan çıxmasına çalışırlar ki, tək qalıb hegemonluq eləsinlər".

Ekspert hesab edir ki, onların görə biləcəyi işləri yerli şirkətlərimiz qat-qat artıq formada görürlər. Xarici şirkətlərə elə şərtlər qoyulmalıdır ki, gəlib bazarda öz qaydalarını diktə etməsinlər, Azərbaycan dövlətinin qayda-qanunlarına uyğun işləsinlər. "Bolt", "Uber" başqa ölkələrdə onların şərtləri altında işləyir, ölkənin qaydalarından çəkinir, amma Azərbaycanda öz bildiklərini edirlər. Deməli, nəzarət mexanizmi düzgün qurulmayıb, qaydalarda boşluqlar çoxdur və onlar da bundan sui-istifadə edirlər.

Ekspert qeyd edir ki, nağdsız ödənişlərin qəbul edilməməsi süni yaradılan problemdir. Bundan başqa, sürücülər də nağd pula üstünlük verirlər. Sürücülərə kart hesabı, VÖEN (vergi ödəyicisinin eyniləşdirmə nömrəsi) açdırmaları tələb olunur. Bu halda dövlətə aylıq rüsum ödənilməlidir. Bəzi insanlar ancaq özünə işləmək istəyir, bu baxımdan həmin şəxslər onlayn ödənişlərə üstünlük vermirlər. Ona görə də VÖEN açdırıb, qanuni fəaliyyət göstərmirlər.

Elməddin Muradlı Azərbaycanda taksi fəaliyyətindəki boşluqlardan söz açaraq bu məsələnin ən ağırlı tərəflərinə diqqət çəkdi: "Adam var ki, gecə haradasa işləyir, səhər növbədən çıxanda düşünür ki, getsin əlavə taksidə də işləsin. Bəziləri axşam işdən çıxanda düşünür ki, pik saatdır, 1-2 saat taksi xidməti göstərib pul qazansın. Belə olmamalıdır, bu xaosun qarşısı alınmalıdır".

### "Bolt" ƏDV-ni də vətəndaşa ödətdirir

Taksi şirkətləri sürücünü işə götürərkən vacib tələblərə əməl etmirlər. Sürücüdən onlayn qaydada avtomobilin texniki pasportu və sürücülük vəsiqəsinin şəkli tələb edilir. Qeydiyyatdan keçirildikdən sonra vətəndaş həmin şirkətdə taksi sürücüsü kimi işə başlayır. Amma şirkət bilmir ki, bu şəxs narkomandı, cinayətkardır, psixi xəstədir...

Faktı təsdiqləyən Elməddin Muradlı deyir ki, xarici şirkətlər Azərbaycan dövlətinə heç bir vergi ödəmirlər. Bundan başqa, "Bolt"da müştəri kartla ödəniş zamanı həm gediş haqqını, həm də ƏDV-ni ödəyir. Bu şirkətlər qazandığını cibinə qoyur, dövlətin vergisini də vətəndaşa ödətdirirlər: "Çox təəssüf ki, Dövlət Vergi Xidməti də buna haqq qazandırır ki, belə olmalıdır. Azərbaycanda taksi qiymətlərinin bu vəziyyətə düşməsinin səbəbi aqreqatorlardır. Rəqabət adı ilə vətəndaşları incidirlər. Sürücü də, sərnişin də narazıdır".

Ekspert vurğulayır ki, hazırda taksi sürücülərinin hüquqlarını qoruyan bir təşkilat belə yoxdur. Baxmayaraq ki, təkcə Bakı şəhərində 50 mindən çox taksi sürücüsü var. Respublika üzrə isə taksi sürücülərinin sayı 120-150 minə yaxındır. Azərbaycandan milyonlarla pul hansısa xarici şirkətlərin cibinə belə nəzarətsiz qaydada axır.

E.Muradlı hesab edir ki, ümumiyyətlə, bu şirkətlərin fəaliyyəti məhdudlaşdırılmalı, ya da elə şərtlər qoyulmalıdır ki, dövlət üçün faydalı olsun. Eyni zamanda digər şirkətlərin də tənəzzülə uğramasına gətirib çıxarmasın. İctimai və dövlət təşkilatları bu istiqamətdə səmərəli əməkdaşlıq qurub, təbliğat vasitəsilə müəyyən nəticəyə nail ola bilərlər.

### Taksi xidməti göstərənlər vergi ödəyicisi sayılırlar

İqtisadiyyat Nazirliyindən isə qəzetimizə bildirilib ki, 2022-ci il ərzində taksi xidməti sahəsi ilə əlaqədar Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə müraciətlər daxil olub. Şikayətlər əsasən hesablaşmanın nağdsız olması səbəbindən sürücülər tərəfindən müvafiq xidmətin göstərilməsindən imtina, müştərilərin kart hesablarından əsassız şəkildə vəsaitin silinməsi, məbləğin ilkin qiymətdən fərqli olması, taksi sürücüsünün sifarişə uyğun olaraq düzgün təyinat məntəqəsinə yaxınlaşmaması və ya yubanması ilə əlaqədar olub.

Müraciətlərlə bağlı müvafiq taksi şirkətlərinin nümayəndələri ilə telefon danışıqları aparılıb, qanunun tələbləri izah edilərək göstərilən məsələlərin vətəndaşların xeyrinə həll edilməsinə nail olunub. Bir müraciətlə bağlı isə vətəndaşa qanunamüvafiq izahat və tövsiyə verilib.

Eyni zamanda qeyd olunur ki, qanunvericiliyə əsasən, fiziki şəxslərin mülkiyyətində və ya istifadəsində olan avtomobillə taksi xidməti göstərilməsi fərdi sahibkarlıq fəaliyyəti sayıldığından belə vətəndaşlar vergi ödəyicisi sayılırlar. Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə ölkə daxilində taksi xidməti göstərən şəxslər sadələşdirilmiş verginin ödəyiciləridir.

Taksi ilə sərnişin daşınmasını həyata keçirən vergi ödəyiciləri üzrə sadələşdirilmiş verginin 1 ədəd nəqliyyat vasitəsi üçün aylıq məbləği 9 manatdır. Eyni zamanda VÖEN əsasında şəxsi avtomobili ilə taksi xidməti göstərənlər üçün sadələşdirilmiş verginin məbləği yüksəldici əmsallar nəzərə alınmaqla hesablanır.

Bundan əlavə, həmin vergi ödəyiciləri "Fərqlənmə nişanı" alarkən minimum aylıq əməkhaqqının 6 faizi miqdarında sosial sığorta haqqı və minimum aylıq əməkhaqqının 4 faizi miqdarında icbari tibbi sığorta haqqı ödəyirlər.

Beləliklə, Bakı şəhərində taksi xidməti göstərən şəxslərin əldə etdikləri gəlirdən asılı olmayaraq ödəməli olduqları vergi və sığorta haqlarının aylıq məbləği 66 manat (18+36+12=66 manat) təşkil edir.

Nazirlikdən verilən məlumata görə, avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri, Vergi Məcəlləsində başqa hallar nəzərdə tutulmamışdırsa, bu fəaliyyətə görə vergi orqanlarına bəyannamə vermirlər. Taksi xidməti göstərən subyektlər bu nəqliyyat vasitəsi üçün növbəti ay, rüb, yarım və ya bir il üçün ciddi hesabat blankı olan "Fərqlənmə nişanı" almalıdırlar. Hüquqi şəxs yaratmadan taksi xidməti göstərən fiziki şəxslər hesablanmış vergini tam məbləğdə dövlət büdcəsinə ödədikdən sonra "Fərqlənmə nişanı" almaq hüququ qazanırlar.

### Problemi həll etməyən yeni qaydalar

Onu da vurğulayaq ki, son günlər "Bolt" şirkəti kartla ödənişdən imtina edən sürücülərlə bağlı tədbir həyata keçirmək məqsədilə yeni qayda tətbiq edib. Belə ki, müştəri nağdsız ödənişi seçdiyi zaman sürücü tərəfindən gedişdən imtina olunarsa, o zaman onlar 25 manat məbləğində cərimələnirlər və yalnız bu məbləği ödədikdən sonra işlərinə davam edə bilirlər. Sürücülərin dediklərinə görə, ikinci dəfə imtina edildikdə isə sürücünün hesabı şirkət tərəfindən bloklanır.

Amma şirkət tərəfindən çıxış yolu kimi irəli sürülən bu qaydalar da əslində problemi həll etmir. Çünki gedişin ləğvi üçün orada göstərilən digər səbəblər və ya sürücünün təklifi ilə müştəri tərəfindən gedişin ləğv edilməsi problemi qüvvədə saxlayır. Yəni şirkət tərəfindən irəli sürülən qaydalar həll yolu olmamaqla yanaşı, sanki problemlərin həlli istiqamətində hansısa işlərin görülməsi kimi görüntü yaratmaqdan başqa bir şey deyil.

Yazını bitirmək üzrə idik ki, bir həmkarımın rastlaşdığı problemlə bağlı sosial şəbəkədəki paylaşımı qarşıma çıxdı. O, artıq telefonundan "Bolt"un tətbiqini siləcəyini və bir də heç vaxt ondan istifadə etməyəcəyinə söz verdiyini yazmışdı. Maraqlananda məlum oldu ki, "Bolt" sürücüsünün etdiyi özbaşınalıq müştərini belə söz verməyə vadar edib. Belə ki, Sumqayıtdan "Abşeron Gənclər Şəhərciyi"nə getmək üçün taksi sifarişi verən jurnalist həmkarımız İlahənin tətbiqdə gediş haqqı məbləği 5.37 manat yazılıb. Ünvana çatanda isə taksinin sürücüsü Bəhruz adlı şəxs gediş haqqının 8.74 manat elədiyini deyib: "Deyirəm, bu necə olur? Cavab verir ki, "Bolt" hava yolunu ölçür, maşın yolu ilə 9 manat edir və bunu öz telefonunda mənə göstərir. Mən də öz telefonumda sifarişimin məbləğini sürücüyə göstərib deyirəm ki, 5.37 manat edir, amma mən sizə 6 manat vermişəm. Əlavə olaraq 1 manat da verirəm, amma 9 manat verməyəcəyəm. O əlavə pulu da ona görə verirəm ki, siz xərcə düşməyəsiniz. Bundan sonra sürücü hay-küy salmağa başladı. Gördü mən ona baş qoşmuram, başladı qarğış etməyə. İki övladımın yanında məni söyə-söyə avtomobili sürüb uzaqlaşdı. Bu şirkətin özbaşınalığı nə deməkdi axı...?! Bir saatdı əlaqə nömrəsi axtarıram, amma heç yerdə yoxdur. Bu fırıldaqçılığın yeni metodudur..."

*Yerdə normal fəaliyyət göstərə bilməyən, barəsində şikayətlərin sayı tükənməyən "Bolt"un hava yolundan necə istifadə etməsi və bu yolu hansı cihazla ölçməsi də maraqlıdır.*

*Ümumiyyətlə, Azərbaycanda uçan taksilər varmı?!*

***Əsmər QARDAŞXANOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# Bakı beynəlxalq tədbirlərin keçirildiyi unikal məkandır

## Yüksək təşkilatçılıq və layiqli evsahibliyi Azərbaycanın artan nüfuzunun göstəricisidir

Son illər Azərbaycan müxtəlif sahələri əhatə edən beynəlxalq tədbirlərin keçirildiyi unikal məkana çevrilib. Paytaxtımızın evsahibliyi etdiyi möhtəşəm tədbirlər təbii ki, Azərbaycanın yüksələn nüfuzunun və həmçinin paytaxtımız Bakının ən əlverişli məkan olduğunun göstəricisidir.

Beynəlxalq tədbirlərin keçirilməsi üçün Azərbaycanın seçilməsi heç də təsadüfi deyil. Bu, Prezident İlham Əliyevin apardığı müstəqil siyasət nəticəsində Azərbaycanın beynəlxalq imicinin artması ilə bağlıdır. Bunda dünyada cərəyan edən hadisələr fonunda ölkəmizdə hökm sürən sabitlik də mühüm rol oynayır. Elə təkcə son 3 həftəyə nəzər salsaq, Azərbaycanın bir neçə müxtəlif beynəlxalq tədbirlərə evsahibliyi etdiyinin şahidi olarıq.

### Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi - 24 ölkədən 449 şirkət

Bu tədbirlərin siyahısı XV Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi ilə başlandı. "Caspian Agro 2022" və "InterFood Azerbaijan 2022"nin birgə keçirdiyi layihədə 24 ölkənin 449 şirkətinə qucaq açan paytaxtımız kənd təsərrüfatı sahəsinə maraq göstərənlərə, bu sferada istifadə olunan texnika və avadanlıqlarla yaxından tanış olmaq istəyənlərə əsl fürsət yaratdı. Hətta sərgidə yerli şirkətlərdən daha çox xarici şirkətlər öz istehsallarını nümayiş etdirmək üçün ölkəmizə təşrif buyurmuşdular.

Sərgilənən avadanlıqların 101-i yerli, 348-i xarici şirkətlərə məxsus idi. Bundan əlavə, bu müstəvi yerli və xarici nümayəndələrə, mütəxəssislərə, eləcə də fermerlərə fikir mübadiləsi aparmaq, sağlam rəqabətqabiliyyətli mühit formalaşdırmaq üçün də əlverişli şərait yaratdı. Bakı Ekspo Mərkəzində 3 gün davam edən tədbir çərçivəsində ən son texnologiyalarla hazırlanan texnika və avadanlıqların ziyarətçilərə açıq şəkildə nümayiş etdirilməsi gələcəkdə yeni ideyaların yaranmasına, gənclərin bu sahəyə dair verəcəyi töhfələrə də yol açdı.

### Qardaşlığın ən yükzək zirvəsi - "TEKNOFEST Azərbaycan"

Dünyanın gözünün Azərbaycanda olduğu digər bir möhtəşəm tədbir isə ötən həftə keçirilən, hər kəsin böyük zövqlə izlədiyi "TEKNOFEST" festivalı oldu. 4 ildir Türkiyə səmalarında uçan, nümayiş etdirilən aviasiya, kosmos və texnologiya sahələrinə aid müasir hərbi maşınlar, texnikalar, uçuş aparatları və digər vasitələr bu dəfə Azərbaycanda nümayiş etdirildi. Azərbaycan və Türkiyə şahinləri Bakının mavi səmalarında süzərək insanları heyrətə gətirdi.

Bakının Dənizkənarı bulvarında yerləşən, bundan öncə də beynəlxalq tədbirlərə qucaq açan "Baku Crystal Hall"un qarşısından 4 gün kütlə azalmadı. Hətta 28 May - Respublika Gününə təsadüf edən festivalın sonuncu günü elə bir izdiham yarandı ki, sanki insanlar tədbirin bitməsini istəmir, davam etməsini arzulayırdılar.

Xüsusilə "Bayraktar" və "Akıncı"nın sərgiləndiyi ərazilərdə yaranan sıxlıq Azərbaycanın Vətən müharibəsindəki Zəfərinin əsas yardımçı vasitələrinə olan rəğbətin nümayişi idi. Bu festivalda Azərbaycanla Türkiyənin təkcə dostluq, qardaşlıq münasibətini deyil, eləcə də müstəqilliyimizin növbəti ilini ötən ildən daha uğurlu, güclü şəkildə qeyd etdik. Bu dəfə müstəqilliyimizin ən uca zirvəsinin sədalarını səmalardan Azərbaycan Hərbi Hava Qüvvələrinin qırıcı təyyarələri və hərbi helikopterləri ilə birgə Türkiyənin "Solotürk", "Türk Ulduzları" və "Hürkuş" aerobatika komandalarının nümayiş etdirdikləri hava şouları da dünyaya car çəkirdi.

Böyük məmnunluq və uğurla yekunlaşan tədbir bir sıra texnologiya sahəsində ixtiralar edən yeniyetmə və gənclərə də böyük stimul verdi. Onlar müxtəlif kateqoriyalar üzrə hər iki ölkənin prezidentlərinin iştirakı ilə mükafatlandırıldılar.

### Avropanın enerji təhlükəsizliyinin təminatçısı

Növbəti tədbir isə iyunun 1-də Xəzər regionunun neft-qaz və enerji sektorunda ən nüfuzlu layihəyə - "Bakı Enerji Həftəsi"nə və Xəzər regionunun nəqliyyat sektorunun aparıcı sərgilərinə etdiyimiz evsahibliyi ilə başlanıldı.

İyunun 4-dək davam edəcək "Bakı Enerji Həftəsi" özündə 3 böyük layihəni birləşdirib: 27-ci Beynəlxalq Xəzər Neft və Qaz, 10-cu Yubiley Xəzər Beynəlxalq Energetika və Bərpaolunan Enerji sərgiləri və Bakı Enerji Forumu. Foruma 31 ölkədən 250 şirkət qatılıb. Dünyanın inkişaf etmiş ölkələrindən olan nüfuzlu şirkətlərin iştirakı ilə baş tutan sərgilərdə ziyarətçilərə müxtəlif məhsul və xidmətlər təklif edilməklə yanaşı, bizneslərarası görüşlər də keçirilir.

Qeyd edək ki, Bakı Ekspo Mərkəzində baş tutan Xəzər Neft və Qaz Sərgisi ölkəmizdə müstəqilliyin əldə edildiyi tarixdən bəri keçirilməyə başlayıb. Qlobal pandemiya dövründə iki il fasilə verəndən sonra bu il Bakı yenidən sərgiyə evsahibliyi edir.

Hər dəfə olduğu kimi, bu il də açılış mərasimi Prezident İlham Əliyevin iştirakı ilə baş tutdu. Builki sərgidə xüsusilə bərpaolunan enerji sahəsində pilot layihələr, "yaşıl enerji" zonası, dəniz külək enerjisi potensialı və s. kimi məsələlərə diqqət yetirilib. Beynəlxalq və yerli şirkətlər bərpaolunan enerji mənbələrinin inkişafı və istifadəsi sahəsində ən son təkliflərini təqdim edirlər. Daha təmiz gələcəyə doğru belə addımların atılması isə dünyanın, eləcə də ölkəmizin qarşısında duran əsas məsələlərdəndir.

Sərgidə həm Azərbaycan, həm də digər ölkələrdən olan müvafiq sahələr üzrə mütəxəssislərlə görüşmək, eləcə də ən son yeniliklərlə, mövcud və gələcək layihələrlə tanış olmaq, həmçinin təcrübə mübadilələri aparmaq imkanı yaradılıb. Ziyarətçilər yerli şirkətlərin stendlərinə baxış keçirərkən əldə olunan nailiyyətləri, həmçinin neft və qaz hasilatının hansı forma və üsullarla hasil olunduğunu, daşındığını aydın görə bilirlər.

Belə nəhəng və ixtisaslaşmış sərgilərin məhz ölkəmizdə təşkili ilə daim yeniliklərə imza atmaq daha da asanlaşır. Paytaxtımız beynəlxalq layihə, tədbir və festivalların əvəzedilməz məkanı hesab edilir.

Hər bir beynəlxalq tədbirlə əlaqədar gələn qonaqlar ölkəmizlə əyani tanış olur və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında vasitəçilik edirlər. Bundan başqa, bu kimi beynəlxalq səviyyəli tədbirlər iqtisadi inkişafımıza da təkan verir. Belə ki, təşrif buyurmuş hər bir qonaq respublikamızda yatırımlar üçün əlverişli şəraitin və imkanların olmasını, eyni zamanda sabitliyin hökm sürdüyünü görür. Ona görə də beynəlxalq tədbirlər investisiya cəlbi baxımından da böyük əhəmiyyətə malikdir.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

# "Efes-2022" təlimində növbəti mərhələ üzrə tapşırıqlar icra edilib

Türkiyənin İzmir şəhərində keçirilən "Efes-2022" çoxmillətli təlimində növbəti mərhələnin tapşırıqları yerinə yetirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, beynəlxalq təlimin planına uyğun olaraq iştirakçılar şərti terror dəstəsi tərəfindən avtomobilə yerləşdirilən partlayıcı qurğunun aşkarlanaraq zərərsizləşdirilməsi, helikopterlər vasitəsilə şərti düşmən obyektinə aviazərbələrin endirilməsi, dəniz piyadalarının sahil xəttinə çıxması və yüksəkliklərin ələ keçirilməsi, həmçinin axtarış-xilasetmə əməliyyatı və yaralıların təxliyə olunması mərhələləri üzrə tapşırıqları müvəffəqiyyətlə icra ediblər.

Təlim iştirakçıları eyni zamanda zəbt olunmuş gəminin azad edilməsi və helikopterdən dəniz xüsusi təyinatlılarının gəmiyə enməsi üzrə fəaliyyətləri də müvəffəqiyyətlə yerinə yetiriblər.

# "Komando hazırlığı" kursunu bitirənlərə sertifikatlar verilib

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunda şəxsi heyətin hazırlıq səviyyəsinin və bölmələrin döyüş qabiliyyətinin daha da artırılması istiqamətində görülən işlər davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cari ilin hazırlıq planına uyğun olaraq, "Komando hazırlığı" kursunu müvəffəqiyyətlə bitirən hərbi qulluqçulara sertifikatların və beretlərin təqdim olunması mərasimi keçirilib.

Mərasimdə əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Buraxılış mərasimində Türkiyə Silahlı Qüvvələrinin təcrübəsinə əsaslanan "Komando hazırlığı" kurslarının əhəmiyyəti diqqətə çatdırılıb. Çıxış edənlər şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksəldilməsində bu kimi kursların müsbət təsirini xüsusi vurğulayıb və hərbi qulluqçulara gələcək xidmətlərində uğurlar arzulayıblar.

# Qarabağ Dirçəliş Fondu Şuşada Üzeyir bəy Hacıbəylinin heykəlinin yenidən qurulması üçün maliyyə dəstəyi göstərib

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuzun şanlı qələbəsindən sonra işğaldan azad olunan ərazilərdə tarixi abidələrimizin, o cümlədən görkəmli şəxsiyyətlərimizin heykəllərinin bərpası və yenidən qurulmasına başlanılıb.




Yenidən qurulan abidələr sırasında dünyaşöhrətli bəstəkar, görkəmli musiqişünas alim və ictimai xadim, müasir Azərbaycan peşəkar musiqi sənətinin və milli operasının banisi Üzeyir bəy Hacıbəylinin heykəli də yer alır.

Heydər Əliyev Fondunun sifarişi ilə bürüncdən hazırlanan heykəl Şuşa şəhərində öz əvvəlki yerində ucaldılıb. 2020-ci il dekabrın 1-də yenidən qurulmasına başlanılan heykəlin açılış mərasimi 2021-ci il avqustun 29-da baş tutub. Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər.

Qarabağ Dirçəliş Fondundan (QDF) AZƏRTAC-a bildiriblər ki, abidənin yenidən qurulması üçün tələb olunan bütün xərclər Qarabağ Dirçəliş Fondunun maliyyə dəstəyi hesabına qarşılanıb.

Xatırladaq ki, 1985-ci ildə Üzeyir bəy Hacıbəylinin 100 illik yubileyi münasibətilə bəstəkarın Şuşada ucaldılan heykəli Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminin nəticəsində tamamilə məhv edilib.

Heykəlin modeli qalmadığından yeni abidə o dövrün mətbuatında dərc olunan və arxivdə saxlanılan fotolar əsasında yaradılıb. Hündürlüyü 3,2 metr olan yeni heykəl heykəltəraşlar Aslan Rüstəmov, Teymur Rüstəmov və Mahmud Rüstəmov tərəfindən hazırlanıb.

# ABŞ Konqresi üzvlərinin köməkçiləri Quba Soyqırımı Memorial Kompleksini ziyarət ediblər

Azərbaycan Respublikasının ABŞ-dakı səfirliyinin nümayəndələri və ABŞ Konqresi üzvlərinin köməkçiləri Quba rayonuna səfər ediblər.



AZƏRTAC xəbər verir ki, Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyevlə keçirilən görüşdə qonaqlara rayonun tarixi, son dövrlərdə keçdiyi inkişaf yolu, burada yaşayan azsaylı xalqlar, rayondakı tolerantlıq mühiti haqqında ətraflı məlumat verilib. Bildirilib ki, ölkəmizdə milli və dini azlıqların hüquqlarının qorunmasına xüsusi diqqət yetirilir. Azərbaycan dövləti əhalisinin çoxmillətli olmasını özünün tarixi nailiyyəti hesab edir və milli-mədəni rəngarəngliyi cəmiyyətin zənginliyinə xidmət edən amil kimi dəyərləndirir.

Qonaqlar Quba Soyqırımı Memorial Kompleksini ziyarət zamanı ermənilərin törətdikləri soyqırımı haqqında ətraflı məlumatlandırılıblar. Bildirilib ki, Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksi 2013-cü il sentyabrın 18-də açılıb. Kompleksdə XX əsrin əvvəllərində Quba şəhərinin müxtəlif ərazilərinin görüntüləri, o zaman burada aparılan tikinti-quruculuq işləri, əhalinin həyat tərzi haqqında fotolar var. Burada quraşdırılmış sensor ekranlı monitordakı xüsusi xəritədə ermənilərin ötən əsrdə xalqımıza qarşı respublikamızın müxtəlif bölgələrində həyata keçirdikləri soyqırımı aktları barədə bir neçə dildə məlumat əldə etmək mümkündür.

Nümayəndə heyətinin diqqətinə çatdırılıb ki, Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkarlanıb. Bundan sonra Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işləri aparılıb. Tədqiqatlar nəticəsində məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımı ilə bağlı olduğu müəyyən edilib.

Sonra nümayəndə heyəti Qubada dağ yəhudilərinin yığcam yaşadıqları Qırmızı qəsəbədə olub, burada yəhudi icmasının üzvləri ilə görüşüblər.

Qonaqların diqqətinə çatdırılıb ki, buradakı yəhudilər uzun illərdir azərbaycanlılarla birlikdə, sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Dağ yəhudilərinin Quba ərazisində yığcam şəkildə məskunlaşmasının tarixi XVIII əsrin ortalarına təsadüf edir. Quba xanlığına Fətəli xanın rəhbərlik etdiyi dövrlərdə bütün ətraf ərazilərdə yaşayan yəhudilər buraya köçməyə başlayıblar. Həmin vaxt salınan yəhudi məhəllələrində 10-dan artıq sinaqoq inşa olunub. Qırmızı qəsəbədə yəhudilərin dini icması və milli mədəniyyət mərkəzi fəaliyyət göstərir.

# Havalar isinir, sudan səmərəli istifadə aktuallığını artırır



Məlumdur ki, Azərbaycan su resurslarının məhdud olduğu ölkələrdəndir və bu üzdən sudan səmərəli istifadə olunması bizim su təsərrüfatlarının qarşısında duran vacib məsələlərdən sayılır. Son illər bu istiqamətdə Azərbaycanda bir sıra tədbirlər görülsə də, problemin həll olunduğunu demək hələ tezdir.

Şəmkirçay, Tovuzçay və Taxtakörpü su anbarları ölkənin suya olan tələbatının ödənilməsində önəmli rol oynayır. Bununla yanaşı, müxtəlif sahələrdə kiçik və ortahəcmli su anbarları tikilib. Vaxtında görülmüş tədbirlər sayəsində suvarılma ilə bağlı çətinliklər müəyyən qədər aradan qalxıb. Ancaq ölkəmizdə hələ də əkin sahələrinin suvarılması problemi mövcuddur.

Ümumiyyətlə, dünyada su ilə təminat ildən-ilə çətinləşir. Odur ki, bütün ölkələr sudan qənaətlə istifadə etməyə imkan yaradan texnologiyalara üstünlük verirlər. Hazırda dünyada sudan az istifadə etməklə daha çox məhsul götürən ölkələrin sayı artır. Bizdə də bu üsula üstünlük verilir. Çünki ərzaq təhlükəsizliyinin təminatı birbaşa su ilə bağlıdır.

Ölkəmiz su problemini aradan qaldırmaq və sudan səmərəli istifadə etmək üçün beynəlxalq əlaqələri genişləndirir. Kənd Təsərrüfatı Nazirliyinin BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə birgə həyata keçirdiyi "Kənd təsərrüfatının davamlı inkişafı naminə aqrar sahədə su ehtiyatlarının idarə edilməsinin təkmilləşdirilməsi" layihəsi çərçivəsində ikigünlük təlim proqramı da bu məqsədə xidmət edirdi. Təlim Türkiyənin Kənd Təsərrüfatı və Meşə Nazirliyinin Dövlət Su İşləri Müdirliyinin nümayəndələri və yerli mütəxəssislər tərəfindən keçirilib. Tədbirdə Azərbaycanda su idarəçiliyinin mövcud vəziyyəti, suvarma qurğularının istismarı, texniki xidməti və idarə edilməsi, habelə suyun paylanması və monitorinq proseslərinin idarə olunması, kənd təsərrüfatının su tarifləri və digər mövzularda ətraflı təqdimatlar keçirilib və interaktiv müzakirələr aparılıb. Türkiyəli mütəxəssislər ölkələrində tətbiq olunan qabaqcıl təcrübələri iştirakçılarla paylaşıblar. Təlimdə Azərbaycan Respublikası Nazirlər Kabineti, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC, "Azərsu" ASC və digər qurumların, eləcə də beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Digər bir tədbir də "Caspian Agro 2022" sərgisi çərçivəsində "İqlim dəyişikliyinin kənd təsərrüfatına təsiri" mövzusunda panel sessiyanın keçirilməsi olub. Çıxış edən mütəxəssislər bildiriblər ki, iqlim dəyişikliyi kənd təsərrüfatı sahəsinin qarşısında yeni çağırışlar formalaşdırır. Müasir texnologiyalar və rəqəmsal həllərin tətbiqi iqlim dəyişikliklərinin təsirlərini minimuma endirməyə, torpaq və su resurslarından davamlı və düzgün istifadəyə imkan verir. Tədbirdə çıxış edənlər həmçinin yeni çağırışlara uyğun dayanıqlı kənd təsərrüfatı sisteminin yaradılması ilə davamlı inkişafın təmin edilməsinin, ətraf mühiti qorumaqla məhsuldarlığın artırılmasının, aqrar sahədə elmi yeniliklər, innovasiya və rəqəmsal həllərin tətbiqinin genişləndirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıblar.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycan Açıq Büdcə İndeksi reytinqində 44-cü yerə yüksəlib

Beynəlxalq Büdcə Tərəfdaşlığı Təşkilatı tərəfindən açıqlanan "Açıq Büdcə İndeksi-2021" hesabatında Azərbaycan 100 mümkün baldan 57 bal toplamaqla 120 ölkə arasında mövqeyini 81-ci yerdən 44-cü yerə yüksəldib.

Maliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, son dərc olunan Açıq Büdcə İndeksində Azərbaycanın nəticələri önceki sorğuya nəzərən 22 bal artaraq dünya üzrə orta göstəricidən (45 bal) 12 bal yuxarıda qərarlaşıb. Eyni zamanda Azərbaycan Açıq Büdcə İndeksi reytinqi üzrə ən çox irəliləyən ölkələr sırasındadır (39 pillə irəliləyiş). Açıq Büdcə İndeksi sorğusu üzrə ölkələrin büdcə mexanizmlərinin qiymətləndirilməsinə 2006-cı ildən başlanılıb və Azərbaycan ilk qiymətləndirmədən etibarən müvafiq sorğuda iştirak edir. Büdcə şəffaflığı və hesabatlılığına dair əsas diaqnostik qiymətləndirmə alətlərindən biri olan Açıq Büdcə Sorğusu üzrə hesabat hər iki ildən bir ABŞ-da yerləşən Beynəlxalq Büdcə Tərəfdaşlığı Təşkilatı tərəfindən hazırlanır və dərc olunur. Sorğuda qiymətləndirilməsi nəzərdə tutulan 145 sualdan 109-u büdcə məlumatlarının ictimaiyyətə açıqlığını (Açıq Büdcə İndeksi), 18-i ictimaiyyətin büdcə prosesində iştirakını, 18-i isə parlamentin (Milli Məclis) və ali audit orqanının (Hesablama Palatası) bu sahədə rolunu dəyərləndirir.

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# Daşkəsən rayonunda uşaqlar üçün səyyar tibbi müayinə aksiyası keçirilib

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) və "Regional İnkişaf" İctimai Birliyinin təşkilatçılığı, Bakı Sağlamlıq Mərkəzinin dəstəyi ilə Daşkəsən rayonunda növbəti səyyar tibbi müayinə aksiyası keçirilib.**





1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr edilən və "Sağlam gələcək" devizi altında təşkil olunan aksiyada rayonun Quşçu, Çovdar, Çaykənd, Şadax və digər kəndlərinin azyaşlı sakinləri 3 gün müddətinə ödənişsiz olaraq müxtəlif tibbi xidmətlərdən yararlanıblar. Cərrahiyyə, pediatriya, terapiya, endokrinologiya, hepatologiya, LOR, kardiologiya, urologiya, həmçinin onkologiya sahələri üzrə ixtisaslaşmış peşəkar həkim heyəti uşaqları müayinə edib, onlara ambulator müalicə-profilaktik xidmətlər göstəriblər. Azyaşlılar fiziki müayinələrlə yanaşı, instrumental (EXO, EKS, ultrasəs və s.), eləcə də laborator müayinələrdən yararlanıb, diaqnoza uyğun olaraq müvafiq dərman preparatları ilə təmin olunublar.

Aksiyanın ilk günündə Daşkəsən rayonu ərazisində yaşayan şəhid ailələrinin üzvləri də müayinə prosesinə cəlb edilib. Düşərgədə körpələr üçün nağıl qəhrəmanları və cizgi film personajlarını canlandıran animatorlar tərəfindən əyləncəli oyunlar təşkil edilib, azyaşlılara müxtəlif oyuncaqlar və dərs ləvazimatları hədiyyə olunub. Layihə çərçivəsində ümumilikdə 600 nəfərdən çox sakin müayinədən keçib.

Sosial aksiya "AzerGold" QSC-nin fəaliyyət göstərdiyi bölgədə yaşayan ailələrin qayğı ilə əhatələnməsi, uşaqlarda xəstəliklərin vaxtında və düzgün müəyyən edilməsi, azyaşlılara profilaktik müayinə mədəniyyəti, sağlam həyat tərzinin təbliği məqsədi daşıyır.

Səyyar tibbi müayinə aksiyası sözügedən qurumlar tərəfindən Daşkəsən rayonunda ikinci dəfədir həyata keçirilir. Ötən il birgə təşkil edilən aksiya 7 Aprel - Ümumdünya Sağlamlıq Gününə həsr edilmiş və 3 gün davam edən layihə çərçivəsində bütün yaş qrupları üzrə 450 nəfərdən çox Daşkəsən rayonu sakininə ambulator müalicə-profilaktik xidmətlər göstərilmişdir.

Xatırladaq ki, Çovdar İnteqrə olunmuş Regional Emal Sahəsinin yaxınlığında yerləşən kəndlərin sakinləri mütəmadi olaraq ətraf mühitin mühafizəsi, təhsil, sağlamlıq, məşğulluq, sahibkarlığın təşviqi və sair istiqamətləri üzrə icra edilən layihələrdən faydalanırlar. Bölgədə yaşayanların, xüsusilə də sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin qayğı ilə əhatələnməsinə xidmət edən bu cür layihələr sosial xarakterli dövlət proqramlarına töhfə vermək məqsədi daşıyır.

# "Ermənistan iqtisadiyyatı təcili yardıma ehtiyacı olan xəstəyə bənzəyir"

## İrəvan ekspertləri reallığı gizlətmirlər

Ermənistanda davam edən etirazlar fonunda iqtisadiyyatda və sosial həyatda yaranan ağır vəziyyət daha da dərinləşir. Erməni ekspertlər etiraf edirlər ki, bu gedişlə ölkə daha böyük fəlakətlərlə üzləşməli olacaq. Yaşanan iqtisadi böhran şəraitində gündəlik istehlak, xüsusən də ərzaq məhsullarının qiymətində artım mövcud durumu daha da pisləşdirir.

Bildirilir ki, ölkə iqtisadiyyatının xilasına ümid var, lakin bunun üçün hökumət populist addımlardan əl çəkməlidir. Dövlət maliyyəsinin idarə edilməsi üzrə beynəlxalq müşavir V. Aramyan 2022-ci il üçün qalan ayları üzrə proqnozlarını təhlil edərkən bildirib ki, Ermənistan həm sosial-iqtisadi, həm də siyasi baxımdan ciddi problemlərlə üzləşəcək: "2020-ci böhran ilindən sonra gələn 2021-ci ilin hamı, hətta inkişaf etmiş ölkələr üçün çətin olduğunu kimsə inkar etmir. Lakin iqtisadi tənəzzül Ermənistanda həm Aİ ölkələri, həm də region ölkələri arasında ən dərindir. 2022-ci ildə makroiqtisadi canlanma natamam olacaq. 2020-ci ildəki 7,4 faiz iqtisadi geriləmədən sonra Ermənistanda iqtisadi artım xeyli aşağıdır. Ən azı 7 faizə yaxınlaşa biləcəyimizlə bağlı proqnozlar "fantaziya janrı"ndandır".

V. Aramyan onu da deyir ki, Ermənistan müxalifəti xalqın rəğbətini qazanmaq üçün populist addımlar ataraq ölkənin iqtisadi vəziyyətini daha da ağırlaşdırır. Radikal-revanşistlər nazirlikləri, idarə-müəssisələri gəzərək onların rəhbərlərindən "Qarabağ heç vaxt Azərbaycanın tərkibində olmayacaq" ifadəsini almağa, əks halda, onları ifşa etməyə çalışırlar. Amma maraqlıdır ki, öz istəklərinə çox vaxt nail olmurlar. Məsələn, xarici işlər naziri Mnatsakan Safaryan (sərhədlərin delimitasiyası üzrə Ermənistan tərəfdən yaradılan komissiyanın üzvüdür) onu XİN binasında yaxalamış radikalların təkidlərinə baxmayaraq, həmin ifadəni təkrarlamayıb. Srağagün isə parlamentin spikeri Alen Simonyan "Qarabağ heç vaxt Azərbaycanın tərkibində olmayacaq" söyləməkdən imtina edib.

Aramyan Ermənistan iqtisadiyyatının hazırkı vəziyyətini təcili yardıma ehtiyacı olan xəstə ilə müqayisə edib. Qeyd edib ki, sağalmaq üçün hələ də ümid var. Amma bunun üçün hakimiyyət də populist addımlardan, artıq xərcləmələrdən əl çəkməli, kəmərini sıxmağı bacarmalı və ilk növbədə bunu özündən başlamalıdır: "Hökumət özünü necə doğrultsa da, iqtisadi aktivliyin 5 faizlik göstəricisi olduğunu bəyan etsə də, mən iki amili səsləndirəcəyəm. Unutmayın ki, siz artımdan qat-qat dərin tənəzzül keçirmisiniz, ikincisi, struktura baxın, iqtisadiyyatınız necə inkişaf edir? Biz əsasən ekzogen hadisələr hesabına ayaq üstə dururuq".

O, hökumətin təqdim etdiyi investisiyaların həcmini "fantaziya janrı" hesab edərək 2021-ci ildə birbaşa xarici investisiyaların 42 milyard dram təşkil etdiyini xatırladıb. Üstəlik, onların əksəriyyətinin dağ-mədən sənayesinə yönəldildiyini bildirib. Vurğulanır ki, dağ-mədən sektorunda çoxlu sayda qeyri-rezident investorlar il ərzində dividend şəklində mənfəət əldə edərək onları ölkədən çıxarırlar. Statistika bunu birbaşa investisiya axını və eyni zamanda gəlirin xaricə axını kimi qeyd edir. İqtisadiyyata yönləndirilən ümumi investisiyalara gəlincə, 2021-ci ilin 9 ayının məlumatına görə, özəl investisiyaların artımı da praktiki olaraq sıfır, daha dəqiq desək, 0,3 faiz təşkil edir.

Rəsmi məlumata görə, 2021-ci ilin yanvar-noyabr aylarında istehlak və ərzaq məhsullarının qiymətləri 20 faizdən çox artıb. İqtisadçı ekspert Suren Parsyan qeyd edir ki, 2019-cu ildən Ermənistanda kasıblıq səviyyəsi artır və bu tendensiya davam edir: "2022-ci ilin qalan dövründə qiymətlərin kəskin artması buna daha ciddi təsir göstərəcək. Erməni milli valyutası olan dramın devalvasiyası ölkədə həm qiymətlərin artımına, həm aclığa, həm də kasıbçılıq səviyyəsinin artmasına təkan verəcək. Erməni valyutasının bundan sonra da ucuzlaşması prosesi davam edəcək".

Ekspert onu da əlavə edib ki, işğal olunmuş əraziləri itirdiklərinə görə Ermənistan iqtisadiyyatında ciddi problemlər yaranıb. Odur ki, qarşıda Ermənistanı heç də yaxşı olmayan günlər gözləyir. Bu gedişlə 2022-ci ildə Ermənistanın daha dərin böhran yaşaması, ağır problemlər içində çabalaması, insanların narazılığının pik həddə çatması qaçılmazdır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Son sutkada Azərbaycanda COVID-19 infeksiyasına 7 yoluxma faktı qeydə alınıb

Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 7 yoluxma faktı qeydə alınıb, 2 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, indiyədək ölkədə ümumilikdə 792 min 785 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 783 min 19 nəfər müalicə olunaraq sağalıb, 9 min 713 nəfər vəfat edib. Aktiv xəstə sayı 53 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 2 min 580, dünənə qədər isə ümumilikdə 6 milyon 901 min 5 test icra olunub.







# İyunun 2-də Azərbaycanda COVID-19 əleyhinə 2 min 123 doza vaksin vurulub

İyunun 2-də Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə 2 min 123 doza vaksin vurulub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci doza üzrə vurulan vaksinlərin sayı 326, ikinci doza vaksinlərin sayı 181, üç və daha çox doza vaksinlərin sayı 1438, pozitiv nəticədən sonra "buster" doza vaksinlərin sayı 178-dir.

Azərbaycanda dünənə qədər vurulan vaksin dozalarının ümumi sayı 13 milyon 728 min 289, birinci mərhələ üzrə vurulan peyvənd dozalarının ümumi sayı 5 milyon 348 min 519, ikinci mərhələ üzrə 4 milyon 849 min 400, üç və daha çox doza vaksinlərin sayı 3 milyon 284 min 160, pozitiv nəticədən sonra "buster" doza vaksinlərin sayı 246 min 210-dur.

# Dövlət İdarəçilik Akademiyasının dərsliyi "Amazon"da yayımlanır

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "İnklüziv inkişafın idarə edilməsinin əsasları" adlı ali məktəblər üçün dərsliyi beynəlxalq elektron ticarət platforması olan "Amazon" saytında yayımlanır.**

Müəllifi akademik U.Ələkbərov olan dərslik eyni zamanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sırasında yer alan davamlı inklüziv cəmiyyətin qurulması və idarə edilməsi sahəsində bilik və bacarıqların formalaşdırılmasına və daim təkmilləşdirilməsinə həsr olunub.

Azərbaycan, rus və ingilis dillərində çap edilən əsər dünyada inklüziv inkişafın idarə edilməsi sahəsində ilk dərslikdir. Dərsliyin yaranmasının əsasında Azərbaycan Respublikasında inklüziv cəmiyyətin inkişafı sahəsində qazanılan nailiyyətlər və ölkənin mövcud iqtisadi potensialından ən yüksək istifadə səmərəliliyini təmin edən uğurlu örnək dayanır. Dövlətin inkişafı üçün Prezident İlham Əliyev tərəfindən işlənmiş və tətbiq olunan yeni idarəetmə texnologiyaları, bu texnologiyaların tətbiqində əhəmiyyətli rol oynayan Birinci vitse-prezident institutunun formalaşdırılması və şəxsən Mehriban xanım Əliyeva-




nın səmərəli fəaliyyəti də daxil olmaqla reallaşdırılan dövlət idarəçilik sistemində islahatların təhlil edildiyi dərslikdə Azərbaycan Respublikasının iqtisadi, sosial və humanitar inkişafın müasir və prioritet sahələrində dünya liderləri sırasında yer almasına şərait yaradıldığı elmi cəhətdən əsaslandırılıb.

Elektron platformada çoxsaylı müsbət rəylərlə müşayiət olunan "İnklüziv inkişafın idarə edilməsinin əsasları" dərsliyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in hədəflərinə nail olunması üçün zəruri kadr hazırlığı və bu sahədə əhalinin məlumatlandırılması məqsədiilə ərsəyə gətirilib. Dərslik dövlətin inkişaf proseslərinin idarə edilməsi sahəsində qərar qəbul edənlər, humanitar, texniki və ictimai ixtisaslar üzrə təhsil alanlar, həmçinin davamlı inklüziv inkişaf sahəsində ixtisasını artıran mütəxəssislər və tədqiqatçılar üçün nəzərdə tutulub.

***"Azərbaycan"***

# Avropada inflyasiya rekord həddə çatıb

## Asiya ölkələri isə aclıq təhlükəsi ilə üz-üzə qalıb

**Avrozonada inflyasiya illik hesablamada 8,1 faizlə yeni rekord həddə çatıb. Avropa Statistika İdarəsinin (Eurostat) son məlumatına görə, bu, 1999-cu ildə vahid Avropa valyutası olan avronun dövriyyəyə buraxılmasından bəri ən yüksək göstəricidir. Bundan əvvəl iqtisadçılar Avropada inflyasiyanın ən yüksək səviyyəsini 7,7 faiz həddində qiymətləndirmişdilər.**

Bununla da Avropada inflyasiya tavanını 2 faiz müəyyən edən Avropa Mərkəzi Bankının (AMB) bütün hədəflərinin üstündən xətt çəkilib.

### Ən pis vəziyyət hələ qarşıdadır

Belə kəskin sıçrayışın əsas səbəbləri arasında Ukraynadakı münaqişə və COVID-19 epidemiyasının növbəti dəfə alovlanması ilə bağlı Çindəki sərt karantin tədbirləri var. İnflyasiyanın əsas hərəkətverici qüvvəsi enerji daşıyıcılarının qiymətlərindəki artım olub ki, bu da illik hesablamada, demək olar ki, 40 faizə çatıb. İkinci amil isə ərzaq məhsullarının bahalaşmasıdır.

Avropa mətbuatı son aylar Almaniyada ərzaq qiymətlərinin kəskin artdığını bildirir. Qeyd edilir ki, bu il supermarketlərdə qiymətlər əlavə olaraq ən azı 10 faiz və yəqin ki, daha çox artacaq. Bir nəfər üçün hesablandıqda, bu, ildə 250 avro təşkil edəcək.

Nüfuzlu "Die Zeit" qəzetinin yazdığına görə, ərzaq məhsulları 16,6 faiz, o cümlədən yağlar və piylər 53 faiz, un 28 faiz, makaron məhsulları 19 faiz bahalaşıb. Ukraynada baş verən hadisələr ərzaq məhsullarının bahalaşmasının əsas, lakin yeganə səbəbi deyil, lakin bu, artıq COVID-19 epidemiyası ilə zəifləmiş Avropa iqtisadiyyatının üzərinə əlavə yük olub.

Almaniyanın İFO İqtisad İnstitutunun araşdırması göstərir ki, ölkənin hər on pərakəndə və topdansatış müəssisəsindən doqquzu xammal və enerjinin qiymətinin artması səbəbindən ərzaq qiymətlərində kəskin artım planlaşdırır. Analitiklərin fikrincə, ən pis vəziyyət hələ qarşıdadır.

Ekspertlər deyirlər ki, Almaniyanı ikirəqəmli inflyasiya gözləyə bilər. Bu ölkədə işləyənlərin üçdə biri yüksək xərclərə görə onsuz da dolana bilmirlər. İlk növbədə, bu, ayda iki min avrodan aşağı əməkhaqqı olan işçilərə aiddir. Almaniyada inflyasiya rəsmi olaraq 8,1 faiz hesablansa da, almanların özləri istehlak səbətinə əsaslanaraq real inflyasiyanı 14 faiz qiymətləndirir və tezliklə bunun 20 faizə çatacağını gözləyirlər.

### Britaniya hökuməti üçün əsas çağırış "qida yoxsulluğu" ilə bağlıdır

Ərzaq qiymətləri Böyük Britaniyada nəzərəçarpacaq dərəcədə artıb. Buna səbəb eyni anda üç amildir - Ukraynadakı münaqişə, Breksit və COVID-19 epidemiyası...

Milli Statistika Bürosunun (ONS) məlumatına görə, aprel ayında Britaniyada inflyasiya 9 faizə çatıb ki, bu da Avropada ən yüksək göstəricidir. Makaron məmulatlarının qiyməti 14,9 faiz, ətin qiyməti 14 faiz, süd və yumurtanın qiyməti təxminən 10 faiz, kərə yağının qiyməti 12,5 faiz artıb.

Yanacağın, gübrənin və yemin qiymətləri də kəskin bahalaşıb. Britaniya supermarketlərinin rəflərində günəbaxan yağı defisitə çevrilib. Bu yağ əsasən Ukrayna və Rusiyadan tədarük edilirdi.

Ərzaq qiymətlərinin artması bütün mümkün vasitələrlə sosial sabitliyi qorumağa çalışan Boris Conson hökuməti üçün əsas çağırışa çevrilib. İngiltərə Bankı hazırkı ərzaq qiymətlərini "apokaliptik" adlandırıb. Böyük Britaniyada adlandırılan "qida yoxsulluğu" ilin əvvəlindən 57 faiz artaraq 7,3 milyon böyük yaşlı insanları, 2,6 milyon uşağı əhatə edib.

### Asiyada da vəziyyət ürəkaçan deyil

Ərzaq böhranı təkcə Avropaya deyil, dünyanın bir çox ölkələrinə təsir edən zəncirvari reaksiyaya səbəb olub. Yaponiyanın "Nikkei Asia" qəzeti qeyd edir ki, Asiya ölkələri də aclıq təhlükəsi ilə üz-üzə qalıb və onların ərzaq təhlükəsizliyini təmin etmək üçün təcili tədbirlərin görülməsi zərurəti yaranıb.

Dünyanın ən böyük buğda istehsalçılarından biri olan Hindistan ölkəni bürüyən quraqlıq səbəbilə taxıl ixracına qadağa qoyub. Nəticədə Avropa bazarlarında buğdanın qiyməti bir ton üçün 435 avroya qalxıb. Hindistan rəsmiləri deyirlər ki, artan enerji qiymətləri, gübrə və yem çatışmazlığı inkişaf etməkdə olan ölkələrin ərzaq təhlükəsizliyini sarsıdır.

Ukrayna elevatorlarında yığılan taxılın ixracının mümkünsüzlüyü səbəbindən ərzaq bazarlarında yaranan təşviş də artıb. Qəzet xatırladır ki, dünyada əsas buğda ixracatçılarından biri hesab edilən Ukrayna 2021-ci ildə 400 milyona qədər insanı taxılla təmin edib. Əsas ixrac Odessa və Mariupol limanları vasitəsilə həyata keçirilirdi ki, hazırda bu məntəqələr bağlanıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Zığ Gəmi Təmiri Tikintisi Zavodunun 1547 layihəli gəmilər üçün müxtəlif tikişsiz polad boruların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 06 iyun 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, M.Useynov küçəsi, 2, AZ1003.

Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.

***Tender komissiyası***

## "İstehsalat və Təchizat" ASC-nin səhmdarlarının nəzərinə

"İstehsalat və Təchizat" Açıq Səhmdar Cəmiyyətinin illik hesabat yığıncağı 30 iyun 2022-ci il saat 17:00-da Bakı şəhəri, Binəqədi rayonu, Əliyar Əliyev küçəsi, 13 ünvanında keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. İdarə Heyətinin hesabatı (məruzəçi R.Rəhimov).
2. Məruzə ətrafında müzakirələr.
3. Audit rəyi.

Əlaqə tel.: (012) 561-55-10
Mob.: (050) 325-77-35

***İdarə Heyəti***

# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

***qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrə müxtəlif ölçülü kağızların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 08 iyun 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti gəmilərdə hidravlika sahəsində illik dövri təmir xidmətlərinin (sifariş üzrə) satın alınması məqsədilə açıq müsabiqə üsulu ilə ikimərhələli tender elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 22 iyun 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.

Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti gəmilərdə avtomatika və elektronika sahəsində illik texniki qulluq və təmir xidmətlərinin satın alınması məqsədilə açıq müsabiqə üsulu ilə ikimərhələli tender elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 20 iyun 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.

Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti xaricdə üzən gəmilərin heyəti üçün fərdi qəza (Tibbi sığorta) sığorta xidmətlərinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 09 iyun 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqova anası

**HƏMİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqova anası

**HƏMİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

**Tiraj 5967**
**Sifariş 1514**
**Qiyməti 40 qəpik**